Xalqın qəzeti!

# Xalq qəzeti

№ 209 (30325) 27 sentyabr 2023-cü il, çərşənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | xalqqazeti.az

## Günün sözü

### Prezident İlham Əliyev:

Azərbaycandan onun Qarabağ bölgəsinə, orada yaşayan erməni əhalisinə humanitar yardımlar göndərilməsinə başlanmışdır. Bu, bir daha onu göstərir ki, onların təhlükəsizliyi, hüquqları Azərbaycan dövləti tərəfindən təmin ediləcəkdir.

# 27 Sentyabr – Azərbaycanın dünyaya Günəş kimi doğduğu gün



## *Zəfərə gedən yolun şanlı başlanğıcı*

**“Sentyabrın 27-də nə baş verib, onu tarixçilər deyəcəklər. Necə başlayıb, onu, hesab edirəm ki, bir çoxları bilir. Artıq Azərbaycan xalqının səbri tükənmişdi və mən Ermənistan baş nazirinə son görüşlərdə demişdim ki, siz odla oynamayın, Azərbaycan xalqının səbri ilə oynamayın. Siz Azərbaycan xalqını tanımırsınız, siz tanıyacaqsınız bizi, amma gec olacaq. Düz yola gəlin, çıxın bu torpaqlardan, bu torpaqlar sizə mənsub deyil”. Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyev bu fikirləri Azərbaycan xalqına 10 noyabr 2020-ci il tarixli müraciətində dilə gətirmişdi. Həmin gün 44 günlük müharibə müqəddəs Zəfərimizlə başa çatmışdı.**

27 sentyabrda başlanmış yol özünün gözlənilən məntiqi sonluğuna çatmışdı. Bu gün o şərəf yolumuzun başlanmasından üç il ötür. Nə xoş ki, üç ilin tamamında Vətənimiz Azərbaycan özünün suverenliyini də bərpa edib. Qətiyyətlə demək olar ki, “27 sentyabr”ın qarşıya qoyduğu hədəflər tam şəkildə həyata keçirilib.

Azərbaycan dövləti hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, müqəddəs bayrağımızı işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə hər il sentyabrın 27-si Azərbaycan Respublikasında Anım Günü kimi qeyd edilməsi qərara alınıb.

*(ardı 4-cü səhifədə)*

# Qarabağda yaşayan ermənilərin hüquqları təmin edilir

Sentyabrın 26-da ABŞ dövlət katibi Antoni Blinken Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevə zəng edib.

Telefon söhbəti zamanı, erməni silahlı qüvvələrinə qarşı antiterror tədbirlərindən sonra Azərbaycanın Qarabağ bölgəsində hazırkı vəziyyət ətrafında fikir mübadiləsi aparılıb.

Dövlətimizin başçısı 24 saatdan az müddətdə yekunlaşan antiterror tədbirləri zamanı yalnız hərbi obyektlərin hədəf alındığını, mülki əhaliyə zərər verilmədiyini diqqətə çatdırıb.

Hazırda qanunsuz erməni silahlı qüvvələrinin tərk-silah prosesinin həyata keçirildiyi və onların Azərbaycan ərazisindən çıxarılması işinin həyata keçirildiyi ABŞ tərəfinə bildirilib. Son beş gün ərzində yüzlərlə hərbi texnika, silah-sursat və hərbi təchizat mallarının müsadirə edildiyi vurğulanıb.

Azərbaycanda akkreditə olunmuş xarici ölkələrin hərbi nümayəndələrinin və BMT-nin Rezident Əlaqələndirici Ofisinin nümayəndəsinin toplanmış silah və hərbi texnikaya baxış keçirdiyi qeyd olunub.

Prezident İlham Əliyev Azərbaycanda yaşayan digər etnik azlıqlar kimi Qarabağ bölgəsində yaşayan erməni sakinlərin hüquqlarının ölkə qanunvericiliyi və beynəlxalq öhdəliklər çərçivəsində təmin edilməsi məqsədilə hazırda müvafiq iş aparıldığını vurğulayıb.

Azərbaycan nümayəndələri ilə erməni sakinlərin nümayəndələri arasında reinteqrasiya istiqamətində dialoq aparıldığı, erməni sakinlərə Azərbaycan tərəfindən humanitar yardımlar göndərildiyi, ərazidə infrastrukturun bərpa edildiyi dövlət başçısı tərəfindən qeyd olunub.

Erməni sakinlərə yardımların göstərilməsi istiqamətində Beynəlxalq Qırmızı Xaç Komitəsi (BQXK) ilə əməkdaşlığın həyata keçirildiyi, ölkəmizdə akkreditə olunmuş BMT-nin Rezident Əlaqələndirici Ofisinin yaxın zamanda Azərbaycanın Qarabağ bölgəsinə səfərinin təşkilinə Azərbaycan tərəfinin hazır olduğu diqqətə çatdırılıb.

ABŞ dövlət katibi Antoni Blinken yaranmış vəziyyətlə bağlı narahatlığını ifadə edib, bölgədə sabitliyin təmin edilməsinin, yerli ermənilərlə dialoqun vacib olduğunu bildirib.

***Prezidentin Mətbuat Xidməti***

# Prezidentdən Anım Günü paylaşımı

Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr – Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.

Paylaşımda “27 Sentyabr – Anım Günü” sözləri yazılıb.




# Qardaşlıq zirvəsində yeni əməkdaşlıq

Səhifə ⇨ 3

# 8 ayın iqtisadi hədəfləri təmin edilib



Səhifə ⇨ 7

# Anti-Rusiya isteriyası Ermənistanı haraya aparır?




Səhifə ⇨ 10

# Albert Aqarunovun vurduğu tank...



Səhifə ⇨ 9

# Rusiya XİN-in “centlmensayağı bəyanatı”

## *“Qızım, sənə deyirəm, gəlinim, sən eşit”*

**Əlbəttə, biz bir çox məsələləri başa düşür, yaxud başa düşməyə çalışırıq. Bəzən, özümüzü başa düşürmüş kimi də göstərmək istəyirik. Məsələn, dərk edirik ki, Ermənistan Rusiyaya dönük çıxıb və ikinci birinciyə bunu anlatmaq istəyir. Onu da dərk edirik ki, Moskva İrəvanın Qarabağ, Azərbaycanla münasibətlər müstəvisində ona ünvanladığı ittihamlara hansısa formada cavab verməlidir. Anlamadığımız məsələ həmin cavabların məzmunudur. Söhbətimiz elə həmin məzmun barədədir.**



Əslində, bu barədə əvvəllər söz açmışdıq. Yadınızdadırsa, Ermənistan parlamentinin spikeri Alen Simonyan bütün diplomatik ifadə formalarını, siyasi etiket qaydalarını aşaraq bildirmişdi ki, Rusiya 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatla Qarabağı Azərbaycana verdi. Həmin vaxt məsələyə Rusiyanın Xarici işlər naziri Sergey Lavrov münasibət bildirmiş və Qarabağın statusundan söz açaraq demişdi ki, Ermənistan rəhbərliyi bundan imtina edib. Deməli, belə çıxmışdı ki, Qarabağa status bölgənin Ermənistana verilməsi imiş, ancaq İrəvan razılaşmayıb (?).

Rusiya Prezidenti Vladimir Putin də məsələyə münasibətini açıqlamışdı. O, Şərq İqtisadi Forumu çərçivəsindəki panellərin birində çıxış edərkən, Simonyanın məlum ritorikasına toxunaraq daha açıq danışmışdı.

*(ardı 4-cü səhifədə)*

# Reinteqrasiya ermənilərin “qapısını döyür”

**Qarabağda sentyabrın 19-da başlayan və bir sutkadan az davam edən lokal xarakterli antiterror tədbirləri nəticəsində Azərbaycan qarşıya qoyulan hədəflərə nail oldu. Bütün kommunikasiyalar, yollar, yüksəkliklər nəzarətə götürüldü. Əgər Azərbaycan 44 günlük Vətən müharibəsindən sonra işğalda olan ərazisinin böyük bir hissəsini azad etmişdisə, 23 saatlıq antiterror tədbirləri nəticəsində ölkəmizin bütün ərazilərində dövlət suverenliyi tam bərpa edildi. Bundan sonra Qarabağ iqtisadi rayonunun bütün ərazisində Azərbaycan Konstitusiyasının və digər qanunlarının işləməsi, siyasi hakimiyyətin bərqərar olması təmin olunacaq.**



Bu prosesə artıq başlanılıb. Elə dünən keçmiş Ağdərə rayonunun (keçmiş Dağlıq Qarabağ Muxtar Vilayətinin tərkibində olan Ağdərə rayonu Milli Məclisin 1992-ci ilin 13 oktyabr tarixli qərarı ilə ləğv edilərək ərazisi Tərtər, Ağdam və Kəlbəcər rayonlarına verilib. Qondarma rejimin inzibati-ərazi bölgüsündə isə “Mardakert” adlı rayon qalmaqda idi- (S.H.) mərkəzində Azərbaycanın Dövlət Bayrağı ucaldılıb.

*(ardı 3-cü səhifədə)*

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Cənab Prezident!**

Bu il avqustun 20-də Zati-alinizlə Budapeşt şəhərində görüşərək gələcək əməkdaşlıq məsələləri ilə bağlı müzakirə aparmaq imkanına görə Sizə minnətdarlığımı bildirirəm.

Mən Qarabağ bölgəsində baş verən hadisələri diqqətlə izləyirəm. Qeyd edim ki, onilliklər boyu davam edən münaqişələrin həlli bir çox dünya dövlətlərinin tarixində olduğu kimi, güclü və ağıllı liderin cəsarətini və müdrikliyini tələb edir.

Yaranmış yeni vəziyyətin region və onun sakinlərinin tam inteqrasiyası üçün imkanlar açacağına ümid edir, Qarabağ bölgəsinə və bütün Azərbaycana sülh və tərəqqi diləyirəm.

Zati-aliləri, Sizə dərin ehtiramımı bildirir, cansağlığı və firavanlıq, dost Azərbaycan xalqına rifah arzularımı çatdırıram.

**Hörmətlə,**

***Milorad DODİK,***
***Bosniya və Herseqovinanın Serb Respublikasının Prezidenti***

* * *

**Zati-aliləri!**

Sizi Azərbaycanın suverenliyi və beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün tam təmin olunması istiqamətindəki davamlı fəaliyyətiniz və əldə etdiyiniz tarixi nailiyyətlər münasibətilə təbrik etməkdən böyük şərəf hissi duyuram.

Mən Sizin Qarabağda yaşayan ermənilərin reinteqrasiyası prosesi, onların hüquqlarına zəmanət verilməsi ilə bağlı mövqeyinizi, həmçinin müxtəlif mədəniyyətlərə və dini inanclara münasibətinizi tam şəkildə dəstəkləyir və yüksək qiymətləndirirəm. Azərbaycanın müxtəlif etnik və dini icmalar arasında anlaşmaya göstərdiyi diqqət və dəstəkdən qürur duyuram.

Cənab Prezident, Sizə fəaliyyətinizdə uğurlar arzulayıram, ən yüksək hörmət və ehtiramımı qəbul etməyinizi xahiş edirəm.

***Rosen PLEVNELİEV,***
***2012-2017-ci illərdə Bolqarıstan Respublikasının Prezidenti, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin Qəyyumlar Şurasının üzvü***

* * *

**Hörmətli cənab Prezident!**

Zati-alinizin sarsılmaz qətiyyəti və əzmi sayəsində Qarabağda qanunsuz erməni silahlı birləşmələrinə qarşı həyata keçirilmiş antiterror tədbirlərinin zəfərlə başa çatması bizim kimi, bütün Türk və İslam dünyasında sevinclə qarşılandı.

Fürsətdən istifadə edərək, Sizə və lideri olduğunuz Azərbaycan xalqına ən xoş arzularımı, təbriklərimi və ehtiramımı ifadə edirəm.

***Ekmələddin İHSANOĞLU,***
***İslam Əməkdaşlıq Təşkilatının 9-cu Baş katibi, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

* * *

Hörmətli cənab Prezident!

Azərbaycanın beynəlxalq səviyyədə tanınmış ərazi bütövlüyünün tam təmin olunması münasibətilə Sizi təbrik edirəm. Bu hadisə Cənubi Qafqaz regionunun tərəqqisi üçün yeni imkanların yaranması baxımından bir şansdır.

Cənab Prezident, Sizin Avropa İttifaqı ilə əlaqələrin inkişafına göstərdiyiniz diqqət, Ukraynaya dəstəyiniz, müxtəlif xalqların nümayəndələrinə və dini konfessiyalara hörmətiniz bizim üçün çox əhəmiyyətlidir.

İcazə verin, Rumıniya ilə Azərbaycan arasında mənim xüsusi önəm verdiyim strateji tərəfdaşlığın dərinləşməsinə göstərdiyiniz daimi dəstəyə görə Sizə təşəkkür edim.

Zati-alinizlə Qlobal Bakı Forumunda görüşməyi səbirsizliklə gözləyirəm.

Dərin hörmətlə,

***Ana BİRÇAL,***
***2018-2019-cu illərdə Rumıniyanın Baş nazirinin müavini, ədliyyə naziri, Nizami Gəncəvi Beynəlxalq Mərkəzinin üzvü***

# Azərbaycan Prezidentinin köməkçisi ilə Ermənistan TŞ katibinin görüşü

**Brüsseldə Avropa İttifaqı Şurasının Prezidenti Şarl Mişel, onun diplomatik müşavirləri Saymon Mordyu və Maqdalena Qrononun rəhbərliyi ilə Azərbaycan Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev və Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan arasında görüş keçirilib.**



"Report" Aİ Şurasının mətbuat xidmətinə istinadən xəbər verir ki, görüş zamanı iştirakçılar Azərbaycanın Qarabağ bölgəsindəki vəziyyəti müzakirə ediblər.

Hikmət Hacıyev Azərbaycanın humanitar yardım göstərmək və yerli əhalinin təhlükəsizliyini təmin etmək planlarından danışıb.

Görüş həmçinin oktyabrın 5-də Qranadada keçirilməsi planlaşdırılan Avropa Siyasi Birliyinin (EPC) üçüncü sammiti çərçivəsində liderlərin mümkün görüşünün aktuallığı barədə iştirakçılar arasında intensiv fikir mübadiləsi aparmağa imkan verib.

# Qarabağa təxirəsalınmaz yardım davam edir

**Xəbər verildiyi kimi, sentyabrın 25-də Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində yanğınla müşayiət olunan partlayış hadisəsi baş verib.**



Sentyabrın 25-də Azərbaycanın Xankəndi şəhərinin yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş yanğınla əlaqədar əraziyə Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi Dövlət Yanğından Mühafizə Xidmətinin qüvvələri cəlb olunub.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, hadisə yerində əməliyyat şəraitinin qiymətləndirilməsi zamanı yanğının ehtiyat yanacaq çənləri parkında baş verdiyi və genişlənmə riskinin yüksək olduğu müəyyənləşdirilib.

Yanğınsöndürənlərin fədakarlığı və peşəkar fəaliyyəti sayəsində yanğın genişlənməsinə imkan verilmədən qısa müddətdə söndürülüb.

Ətraf ərazilər, o cümlədən digər yanacaq çənləri yanğından mühafizə olunub.

* * *

2023-cü il sentyabrın 21-də Yevlax şəhərində keçirilmiş görüşdə Azərbaycanın Qarabağ bölgəsində yaşayan erməni sakinlərin nümayəndələrinin, ilk növbədə, bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsinə dair xahişinə uyğun olaraq, sentyabrın 26-da Ağdam–Əsgəran–Xankəndi yolu vasitəsilə 30 ton benzin, 34 ton dizel yanacağı yola salınıb.

* * *



İçərisində, ümumilikdə, 40 ton un, gigiyenik vasitələr və 500 nəfər üçün yataq dəsti olan 4 yük avtomobili, həmçinin Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində yaralanan şəxslərə yardım məqsədilə 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları olan növbəti təcili tibbi yardım maşını sentyabrın 26-da Ağdam–Əsgəran–Xankəndi yolu vasitəsilə yola salınıb.

* * *



Azərbaycan Respublikasının Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli və orada yaşayan erməni sakinlərinin ehtiyaclarının təmin olunması üçün təxirəsalınmaz tədbirlər davam etdirilir.

2023-cü il sentyabrın 26-da bağçaların, təcili tibbi yardım və yanğınsöndürmə xidmətlərinin yanacaq-sürtkü materialları ilə təmin edilməsi məqsədilə Ağdam–Əsgəran–Xankəndi yolu vasitəsilə 38 ton benzin, 16 ton dizellə dolu növbəti 2 avtomobil yola salınıb.

***Azərbaycan Respublikası Prezidentinin Administrasiyası***

# Mehriban Əliyevanın tapşırığı ilə Qənirə Paşayevanın səhhəti üzrə daha bir konsilium olub

**Səhhətində yaranan problemlərlə əlaqədar sentyabrın 23-də Mərkəzi Klinik Xəstəxanaya yerləşdirilən Milli Məclisin deputatı Qənirə Paşayevanın reanimasiya şöbəsində müalicəsi davam edir.**

Deputatın səhhəti ilə bağlı məsələlər ilk gündən Birinci vitse-prezident Mehriban Əliyevanın nəzarətindədir. Heydər Əliyev Fondunun əməkdaşları Mərkəzi Klinik Xəstəxananın həkim personalı və Mehriban Əliyevanın tapşırığı ilə Türkiyədən konsultasiyaya cəlb edilmiş həkim mütəxəssisləri ilə daim əlaqədədir. Bakıya dəvət edilmiş türkiyəli həkimlə yanaşı, mütəmadi olaraq qardaş ölkədə olan digər həkimlərlə də videobağlantı formatında məsləhətləşmələr aparılır.

Növbəti konsilium zamanı Qənirə Paşayevanın səhhəti ilə bağlı vəziyyət bir daha dəyərləndirilib. Mərkəzi Klinik Xəstəxananın reanimasiya şəraitində tələb olunan müalicə protokollarına yeni dərmanlar da təyin edilib.

***XQ***

# Zakir Həsənovun Saşa Beykerlə telefon danışığı

**Sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənovla Amerika Birləşmiş Ştatlarının müdafiə katibinin siyasi məsələlər üzrə müavini xanım Saşa Beykerin təşəbbüsü ilə telefon danışığı olub.**

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildiriblər ki, tərəflər ölkələrimiz arasında əlaqələr, regiondakı vəziyyət və təhlükəsizlik məsələləri ilə bağlı ətraflı fikir mübadiləsi aparıblar.

Telefon danışığı zamanı, həmçinin ölkələrimiz arasında ikitərəfli hərbi əməkdaşlığın inkişaf perspektivləri də müzakirə olunub.

***XQ***

# Müsadirə edilmiş hərbi vasitələr

**Müdafiə Nazirliyi Azərbaycanın Qarabağ bölgəsində keçirilən lokal xarakterli antiterror tədbirləri başa çatdıqdan sonra müsadirə edilmiş döyüş texnikası, silah və sursat barədə sentyabrın 26-sı saat 17:00-a olan məlumatı açıqlayıb.**

Həmin siyahını təqdim edir.

1. Atıcı silah və qumbaraatanlar - 909



2. Artilleriya silahları - 47
3. HHM vasitələri - 226
4. Döyüş sursatları - 251308
5. Təchizat və ləvazimatlar - 1674
6. Optik və digər cihazlar - 164
7. Zirehli texnika - 22
8. Avtomobil texnikası - 75
9. Qoşqu - 21

* * *

Ermənistan silahlı birləşmələrinin və qeyri-qanuni erməni silahlı dəstələrinin mülki təyinatlı infrastrukturdan hərbi məqsədlər üçün istifadə etməsi növbəti dəfə aşkar edilib.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə biriblər ki, lokal xarakterli antiterror tədbirlərindən sonra Qarabağ iqtisadi rayonunda tərk edilmiş tikililərə baxış zamanı bu obyektlərin silah-sursat anbarı kimi istifadə edildiyi müəyyən olunub.

Aşkar edilmiş silah və sursatla dolu yeşiklər, müxtəlif tipli qumbaraatanlar üçün mərmilər, "Kornet" tankəleyhinə raket kompleksinin idarə olunan raketləri, hərbi geyim dəstləri və zirehli dəbilqələr müsadirə edilib.

* * *

Qarabağ bölgəsində Ermənistan silahlı birləşmələri və qeyri-qanuni erməni silahlı dəstələrinin hərbi məqsədlər üçün istifadə etdiyi mülki təyinatlı tikililərin aşkar olunması üzrə tədbirlər



davam edir.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən XQ-yə bildiriblər ki, Xocalı rayonu ərazisindəki mülki infrastruktur obyektlərinə baxış zamanı növbəti silah-sursat anbarı müəyyən edilib.

Anbardan aşkar edilmiş külli miqdarda patron, əl qumbaraları, minaatan, müxtəlif çaplı ağır artilleriya və tank mərmiləri, həmçinin tankəleyhinə raket komplekslərinin idarəolunan raketləri və digər döyüş sursatları müsadirə edilib.

Ərazidə, həmçinin qoşqulara yüklənmiş halda xeyli sayda sursatla dolu yeşiklər də aşkar edilərək götürülüb.

***XQ***

# Baş nazir Türk dövlətlərinin nazirləri ilə görüşüb



**Sentyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov Türk Dövlətləri Təşkilatının Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısında və 2-ci Türk Aqrobiznes Forumunda iştirak edən kənd təsərrüfatı nazirləri ilə görüşüb.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, Baş nazir Bakıda keçirilən 2-ci Kənd Təsərrüfatı Nazirləri Toplantısının və 2-ci Türk Aqrobiznes Forumunun əhəmiyyətini vurğulayıb, bu tədbirlərin Türk dövlətləri arasında kənd təsərrüfatı sahəsində əməkdaşlığın inkişafına töhfə verəcəyinə əminliyini ifadə edib.

Bildirilib ki, Türk dünyası ölkələri ilə əlaqələrin möhkəmləndirilməsi Azərbaycan üçün xarici siyasətin əsas prioritetlərindən biridir.

Azərbaycanda qeyri-neft sektorunun inkişafı istiqamətində görülən ardıcıl tədbirlər barədə məlumat verilib. Diqqətə çatdırılıb ki, bu məqsədlə ölkədə aparılan uğurlu iqtisadi siyasət nəticəsində iqtisadiyyatın diversifikasiyasına nail olunub, bütün digər sahələr kimi aqrar sektorun da inkişafı üçün əlverişli şərait yaranıb.

Azərbaycanda aqro-ərzaq sisteminin davamlı transformasiyasının təmin edilməsi istiqamətində yaşıl enerji, rəqəmsallaşma və innovativ həllərin tətbiqi barədə söhbət açılıb.

Ölkədə aqroparkların yaradılması prosesinin geniş vüsət aldığı bildirilib, həmçinin Azərbaycanın işğaldan azad edilmiş ərazilərində kənd təsərrüfatının inkişaf potensialı barədə məlumat verilib.

Görüşdə Azərbaycanla Türk Dövlətləri Təşkilatının üzv və müşahidəçi dövlətləri arasında kənd təsərrüfatı sahəsində həyata keçirilən layihələr, həmçinin əməkdaşlığın inkişaf perspektivləri müzakirə edilib.

***XQ***

# Qarabağı tərk edən ermənilərin təhlükəsiz və maneəsiz keçidi təşkil olunur

**Qarabağda qalmaq istəməyən erməniəsilli sakinlər Ermənistana tam təhlükəsiz şəkildə gedirlər.**

"Laçın" dövlət sərhədindən buraxılış məntəqəsindən Qarabağ bölgəsində yaşayan erməni sakinlərin maneəsiz keçidi təmin olunur.

Ermənistan istiqamətində hərəkət edən sakinlər heç bir təhlükə və təhdid ilə qarşılaşmadıqlarını, könüllü şəkildə getdiklərini bildiriblər. Onlar həm də yolların açıq olduğunu, maneəsiz şəkildə Ermənistana getdiklərini söyləyiblər.

Azərbaycan dilində səlis danışan bir Xankəndi sakini əvvəllər Bakıda yaşadığını və Bakıda da təhsil aldığını bildirib. O, yanğınsöndürən ixtisasına yiyələndiyini, Xankəndidə uzun illər yanğınsöndürmə məntəqəsinin müdiri olduğunu, bu günsə öz istəyi ilə Azərbaycanı tərk etdiyini deyib.



***XQ***

# Qardaşlıq zirvəsində yeni əməkdaşlıq

## Naxçıvanda imzalanan sənədlər növbəti birgə hədəflərə start verdi

**Sentyabrın 25-də İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması mərasimindən sonra Azərbaycan–Türkiyə əməkdaşlığına önəmli təsir göstərən bir sıra sənədlər–Qars–Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolu, qardaş ölkənin Kahramanmaraş vilayətində yaşayış binaları, ibtidai məktəb, uşaq bağçası və mədəniyyət mərkəzinin tikilməsi haqqında Əməkdaşlıq Sazişi və hər iki respublikada bərpaolunan enerji mənbələrindən istehsal olunan elektrik enerjisinin ötürülməsi ilə əlaqədar Anlaşma Memorandumu imzalanıb.**




Həmin gün Prezident İlham Əliyev mətbuata bəyanatında imzalanan sənədlərin Türkiyə–Azərbaycan əlaqələrinin inkişafına mühüm xidmət göstərəcəyini vurğulayıb. Dövlətimizin başçısı daha sonra İğdır–Naxçıvan qaz kəmərinin çəkilişinin qardaşlıq münasibətlərimizin tarixində önəmli hadisəyə çevrildiyini, iki dövlətin sıx əlaqələrinə yeni təkan verəcəyini, Naxçıvanın enerji təhlükəsizliyini daha böyük ölçüdə gerçəkləşdirəcəyini bildirib.

Prezident İlham Əliyev bəyanatında diqqətə çatdırdığı kimi, müstəqilliyimizin ilk illərində Ermənistanın Azərbaycana qarşı işğalçılıq siyasətinin tərkib hissəsində Naxçıvana qarşı da ərazi iddiası vardı və ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə bunun qarşısı alındı. Ancaq həmin dövrdə muxtar respublikanın enerji təminatı ölkəmizin əsas hissəsindən olduğu üçün işğalçı tərəfindən bütün elektrik və qaz xətləri kəsilmişdi və qədim diyarımız demək olar ki, işıqsız və “mavi yanacaq”sız qalmışdı. Yaranan acınacaqlı vəziyyət isə 2005-ci ildə İran İslam Respublikası ilə imzalanan anlaşma əsasında mübadilə yolu ilə İrandan Naxçıvana qazın verilməsi ilə aradan qaldırıldı.

İğdır–Naxçıvan qaz kəmərinin təməlinin qoyulması isə muxtar respublikaya ikinci qaz xəttinin daxil olmasını şərtləndirir. Başqa sözlə, 2020-ci il dekabrın 15-də Ankarada Azərbaycan və Türkiyə arasında İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisinə dair anlaşma memorandumunun imzalanması muxtar respublikanın qaz təchizatının şaxələndirilməsinə imkan verməklə onun bir mənbədən asılılığını aradan qaldırması məqsədi daşıyıb. Prezident İlham Əliyevin 2022-ci il 10 fevral tarixli sərəncamına əsasən isə İğdır–Naxçıvan qaz boru kəmərinin tikintisi üçün dövlət büdcəsindən vəsait ayrılıb. Layihə bu il iyunun 5-də qəbul edilən “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın prioritet layihələri sırasında yer alıb.

Boru kəmərinin İğdırdan Sədərək rayonuna qədər uzunluğu 97,5 kilometr təşkil edir. Kəmərin Azərbaycan hissəsinin uzunluğu 17,5 kilometr, Türkiyə hissəsinin uzunluğu isə 80 kilometrdir. Boru kəməri gündə 2 milyon kubmetr, ildə isə 730 milyon kubmetr qaz ötürmək qabiliyyətinə malikdir ki, bununla da Naxçıvanın qaza tələbatı tamamilə ödəniləcəyi gözlənilir. Eyni zamanda, gələcəkdə boru kəmərinin ötürücülük qabiliyyətini iki dəfədən çox artırmaq mümkündür.

Beləliklə, bu kəmər Naxçıvanın qazla təchizatında ciddi rol oynayacaq, həmçinin muxtar respublika üçün “mavi yanacaq”la əlaqədar alternativ yaranacaq. Naxçıvanın qazla təchizatı Türkiyə üzərindən təmin olunduqdan sonra, təbii ki, burada iqtisadi baxımdan da ciddi dividendlər olacaq. Xüsusilə, qazın Bakı–Tbilisi–Ərzurum və Cənubi Qafqaz Boru kəmərləri vasitəsilə Türkiyəyə və qardaş ölkə üzərindən dövr edərək Naxçıvana verilməsi bu baxımdan müstəsna əhəmiyyət daşıyacaq.

Naxçıvanda enerji təminatının yaxşılaşdırılması istiqamətində həyata keçirilən layihələr isə davamlılığı ilə diqqət çəkir. Belə ki, bir neçə gündən sonra muxtar respublikada Türkiyə–Azərbaycan III Enerji Forumunun keçiriləcəyi nəzərdə tutulur.

Bildirildiyinə görə, həmin forumda da Naxçıvanın zəngin bərpaolunan enerji potensialının hərəkətə gətirilməsi ilə əlaqədar müzakirələr aparılacaq, muxtar respublikanın “yaşıl enerji” zonasına çevrilməsi istiqamətində reallaşdırılacaq layihələrin əhəmiyyətindən danışılacaq. Yeri gəlmişkən, hesablamalara görə, yaxın gələcəkdə Naxçıvandan Türkiyəyə ən azı min meqavat həcmində yaşıl enerji ixracı da mümkün olacaq.

Türkiyə–Azərbaycan əlaqələrinin inkişafından danışarkən, iki qardaş ölkənin əməkdaşlığına önəmli təsir göstərəcək sentyabrın 25-də imzalanan Qars–Naxçıvan dəmir yolu layihəsinə dair Niyyət Protokolunun əhəmiyyətinə də diqqət yetirək. Həmin sənədin imzalanmasını tarixi hadisə kimi dəyərləndirən dövlətimizin başçısı mətbuata bəyanatında bu layihənin də uğurla həyata keçiriləcəyinə və beləliklə, Orta Dəhlizin bir qolu kimi həm Azərbaycana, həm Türkiyəyə, həm də digər ölkələrə uğurla xidmət göstərəcəyinə əminliyini ifadə edib.

Xatırladaq ki, Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu (Orta Dəhliz) 2014-cü ilin fevral ayında Azərbaycan, Qazaxıstan və Gürcüstanın müvafiq strukturlarının iştirakı ilə yaradılıb. Sonradan layihəyə Ukrayna, Rumıniya və Polşa qoşulub. Hazırda marşrut Çin–Qazaxıstan sərhədindən başlayır və Qazaxıstan, Xəzər dənizi, Azərbaycan və Gürcüstan ərazisindən keçərək Avropaya qədər uzanır. Bütün marşrut boyunca vahid tarif yaradılıb, “vahid pəncərə” prinsipi tətbiq olunur.

Avropa İttifaqı Orta Dəhlizi Trans–Avropa Nəqliyyat Şəbəkəsi ilə inteqrasiya baxımından ən perspektivli adlandırır. İlkin qiymətləndirmələrə görə, perspektivdə fasiləsiz tədarükü təmin etməsi üçün marşrutun inkişafına 18,5 milyard avro tələb olunacaq. Yatırımların əhəmiyyətli hissəsini Avropa İttifaqı öz üzərinə götürməyə hazırdır. İnvestisiyalar, o cümlədən dəmir yolu və avtomobil dəhlizlərinin bərpası və yenidən qurulması, limanların ötürücülük qabiliyyətinin artırılması və sərhədlərdə infrastrukturun inkişafı üçün lazımdır.

Qeyd edək ki, hazırda iki qardaş ölkə rəhbərliyinin hazırda diqqət mərkəzində saxladığı məsələlərdən biri də Bakı–Tbilisi–Qars dəmir yolunun potensialının genişləndirilməsi ilə bağlıdır. Yaxın aylarda bu yolun imkanlarının 1 milyon tondan 5 milyon tona qədər artırılması nəzərdə tutulur. Bu gün respublikamızı Naxçıvan və Türkiyə ilə birləşdirən dəmir yolunun inşası da sürətlə icra olunur. Azərbaycan ərazisində işlərin gələn ilin sonunda başa çatdırılacağı planlaşdırılır.

Xatırladaq ki, Bakı-Tbilisi-Qars dəmir yolu 2017-ci il oktyabrın 30-da açılıb. Dəmir yolu xətti Asiya və Avropanın dəmir yol şəbəkələrinin birləşdirilməsini təmin edir. Bu, təkcə 3 ölkə arasında deyil, həm də Asiya ilə Avropa arasında ən qısa yoldur. BTQ yüklərin daşınmasına sərf edilən vaxtı 2 dəfədən çox qısaltmağa imkan verir, Mərkəzi Asiya ölkələrinin – Türkmənistan, Qazaxıstan, Özbəkistan, Qırğızıstan, Tacikistan və Əfqanıstanın Avropa və dünya bazarlarına çıxışını asanlaşdırır.

Ümumi uzunluğu 846 kilometr olan xəttin 504 kilometrlik hissəsi Azərbaycan, 263 kilometrlik hissəsi Gürcüstan, 79 kilometrlik hissəsi isə Türkiyə ərazisindədir.

Azərbaycan qardaş ölkə ilə bütün sahələrdə olduğu kimi, ticarət dövriyyəmizin artırılması istiqamətində də indiyədək önəmli layihələr reallaşdırıb. Məhz bunun nəticəsidir ki, ticarət dövriyyəmiz keçən il 6 milyard dollardan çox olub. Cari ilin 7 ayında isə həmin göstərici daha 40 faiz artıb. Preferensial ticarət anlaşmasının imzalanması isə siyahıda olan məhsulların sayının artmasını şərtləndirib.

***Vaqif BAYRAMOV***
***XQ***

# Reinteqrasiya ermənilərin “qapısını döyür”

**(əvvəli 1-ci səhifədə)**

Bundan sonrakı mərhələdə qarşıda dayanan əsas məsələlərdən biri Qarabağın erməni sakinlərinin Azərbaycan cəmiyyətinə reinteqrasiyasına nail olunmasıdır. Bu istiqamətdə atılan hər bir addım, necə deyərlər, yüz dəfə ölçülür, bir dəfə biçilir. Rəsmi Bakının məqsədi 30 ildir bu bölgənin qondarma rejim tərəfindən talan edilməsinə son qoymaq, orada yaşayan insanlara azadlıq, haqq-ədalət, barış və rifah gətirməkdir. Ölkəmizi olmazın məsələlərdə ittiham edən yaxın-uzaq xaricdəki bəzi xəbis niyyətli dairələrin söylədiklərinin əksinə olaraq, hər bir Azərbaycan vətəndaşı kimi, Qarabağda yaşayan ermənilərin də həyatı dövlətimiz üçün çox qiymətlidir. Məhz buna görə də Qarabağda ölkəmizin Konstitusiya quruluşunun bərpa edilməsi məqsədilə həyata keçirilən lokal xarakterli antiterror tədbirləri ilə bağlı bölgədə yaşayan erməni sakinlərə müraciətdə tədbirlər həyata keçirilən zaman hərbi hissələrdən, obyektlərdən, hərbi texnikadan, qanunsuz rejimin fəaliyyət göstərdiyi bütün inzibati binalardan uzaq durmaq çağırışı edilmişdi.

Müraciətdə deyilirdi: “Ermənistanın və Qarabağdakı cinayətkar rejimin apardığı təbliğat erməni əhalidə belə bir qənaət yaradıb ki, Azərbaycan etnik təmizləmə siyasəti həyata keçirmək, Qarabağdan erməniləri çıxarmaq istəyir. Əgər belə bir niyyət olsaydı, Azərbaycan 2020-ci ilin noyabr ayında müharibəni dayandırmazdı. Həmin dövrdə heç bir qüvvə Azərbaycan Ordusunun Zəfər yürüşünün qarşısını almaq gücündə deyildi. Amma Azərbaycan dövləti sülh yolunu seçdi, Qarabağda yaşayan əhaliyə dostluq əlini uzatdı. Çünki Azərbaycan çoxsaylı xalqların bir yerdə mehriban yaşadığı ölkədir. Biz əminik ki, insanlar arasında barış və birgəyaşayış mümkündür. Sizin də bu həqiqəti qəbul etməyiniz və bu ölkənin vətəndaşları kimi yeni gözəl həyata qovuşmağınız lazımdır”.

Bəli, bu, həqiqətən də, belədir. Gəncəni, Bərdəni, Tərtəri uzaqmənzilli raketlərlə atəşə tutan Ermənistan hərbi-siyasi rəhbərliyindən fərqli olaraq, Azərbaycan müharibəni ləyaqətlə apardı. Beynəlxalq humanitar hüququn bütün norma və prinsiplərinə əməl olundu. Nəticədə Qarabağda mülki şəxslər arasında ölüm-itim halları minimum oldu. Azərbaycan bu məsələdə də bütün dünyaya nümunə göstərdi.

***

Müharibədən sonra Azərbaycan üçün məsələnin siyasi tənzimlənməsi mərhələsi başlanıb. Bu mərhələdə ölkəmiz Qarabağda yaşayan, bir vaxtlar Azərbaycan vətəndaşı olmuş, son 30 ildə isə Ermənistanın və qanunsuz rejimin girovuna çevrilmiş erməni sakinlərin ölkənin sosial-iqtisadi və ictimai-siyasi həyatına reinteqrasiya etməsinə çalışır. Azərbaycan 30 illik işğal faktı bitdikdən az sonra özünün erməni sakinləri ilə təmas qurmağa hazır olduğunu bildirib. Amma biz xaricdən ixrac olunmuş “Ruben Vardanyan” layihəsi ilə Qarabağda yeni reallığın yaradılmasına, vəziyyətin 1988-ci ilə gətirilməsinə, yeni status-kvonun yaradılmasına cəhdlər edildiyini gördük.

Onu da qeyd edək ki, bu məsələyə hələ ötən ilin noyabrın 17-də Avropa İttifaqının Şərq Tərəfdaşlığı üzrə xüsusi elçisi Dirk Şuebelin rəhbərlik etdiyi, Aİnin və bir sıra üzv ölkələrin Şərq Tərəfdaşlığı üzrə məsul şəxslərinin daxil olduğu nümayəndə heyətini qəbul edərkən Prezident İlham Əliyev də münasibət bildirmişdi. Dövlətimizin başçısı demişdi: “Hesab edirəm, vacib odur ki, Ermənistan, əslində, istədiyini açıq şəkildə elan edir. Əgər onlar Qarabağda ermənilərin hüquqları və təhlükəsizliyi barədə söhbət aparmaq istəyirlərsə, bu alınmayacaq. Biz bu haqda Qarabağda yaşayan ermənilərlə danışmağa hazırıq, amma ciblərində rus xalqından oğurladığı milyardlarla pula sahib Vardanyan kimi insanlarla yox. O, oraya çox aydın gündəliklə göndərilib. Biz Qarabağda yaşayan və orada yaşamaq istəyən insanlarla söhbətə hazırıq. Biz buna hazırıq. Yeri gəlmişkən, bu proses başlayıb. Əgər elə indicə qeyd etdiyim bəzi ölkələrdən, yəni, kənardan müdaxilə olmasa və həmin prosesi dayandırmaq cəhdləri edilməsə, onda hesab edirəm ki, proses daha dinamik gedə bilərdi. Lakin bunun Paşinyana və onun hökumətinə heç aidiyyəti yoxdur...”



Azərbaycanın tələbi ilə bu ilin fevralında R.Vardanyan separatçı rejimin “dövlət naziri” vəzifəsindən qovuldu. Elə həmin dövrlərdə Milli Məclisin deputatı Ramin Məmmədov Qarabağda yaşayan erməni sakinlərlə təmaslar üzrə məsul şəxs təyin olundu. Martın 1-də Xocalıda – Rusiya sülhməramlı kontingentinin bazasında Qarabağın erməni icmasının təmsilçiləri ilə ilkin təmaslar yaradıldı. Təəssüf ki, təmaslardan sonra erməni sakinlərin nümayəndələrinin arzuolunmaz açıqlamalarının şahidi olduq. Lakin bu təmasları davam etdirməkdə qərarlı olan Azərbaycan yenə də özünün vətəndaşlarına barış əli uzatdı. Dövlətimiz məsələni sülh yolu ilə həll etməyə, həm ermənilər, həm də azərbaycanlılar arasında insan itkisinə yol verilməməsinə çox çalışdı. Prezident İlham Əliyev mayın 28-də Laçın şəhərinə qayıdan əhali ilə görüş zamanı məsələyə belə münasibət bildirmişdi: “İki il yarım ərzində bütün planlarımız ardıcıllıqla, tədricən həyata keçdi və biz öz planlarımızın son addımlığındayıq, o addım da atılacaq və buna mən şübhə etmirəm. Buradan – uzun illər istismar etdikləri, qanunsuz məskunlaşdıqları Laçın diyarından onlara bir daha deyirəm ki, sizin kitabınız bağlandı. “Miatsum” kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə. Ona görə, yeganə yol qalıb – Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dıqnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, “parlament”i buraxmaq. Guya, orada “parlament” fəaliyyət göstərir, guya orada prezident var, guya nazir var, bunlar hamısı gülməlidir”.

Dövlətimizin başçısı qeyd etmişdi ki, biz, sadəcə olaraq, dözüm göstəririk. Halbuki, hər kəs yaxşı bilir ki, bu gün o bölgədə istənilən əməliyyatı keçirmək üçün hər bir imkanımız var: “Ona görə “parlament” buraxılmalıdır, özünü “prezident” adlandıran ünsür təslim olmalıdır, bütün “nazirlər”, “deputatlar” və digərləri öz vəzifələrini artıq kənara qoymalıdırlar. Ancaq o təqdirdə onlara güzəşt oluna bilər. Ancaq o təqdirdə hər hansı bir amnistiyadan söhbət gedə bilər. Onu da bildirməliyəm ki, son vaxtlar beynəlxalq təşkilatlar faktiki olaraq bizim mövqeyimizlə tamamilə razılaşıblar. Bunu mən müxtəlif görüşlər əsnasında artıq görürəm. Yəni, nəyə görə razılaşıblar? Ona görə ki, biz haqlıyıq və ona görə ki, biz mövqeyimizdən kənara bir addım belə atmırıq. Ona görə bu gün nə müstəqillikdən, nə muxtariyyətdən, nə başqa bir şeydən heç kim artıq söhbət açmır. Sadəcə olaraq, bizə gələn son mesajlar belədir ki, bəs orada dırnaqarası rəhbərliyin aqibəti necə olacaq? Onlara amnistiya düşürmü, düşmürmü? Mən isə deyirəm ki, buna baxmaq lazımdır”.

İndi – son günlərini yaşadığımız sentyabr ayında dönüb geriyə boylananda Prezident İlham Əliyevin prosesləri bir neçə ay öncədən necə uzaqgörənliklə proqnozlaşdıra bildiyinə heyrətlənməmək olmur: “Birincisi, biz oraya heyət göndərmişdik. Mənim nümayəndəm gedib onlarla birinci görüş keçirib və ondan sonra onları dəvət etmişik Bakıya ki, gəlin danışaq. Onlar bundan imtina etdilər. Bundan sonra ikinci dəfə biz onları dəvət etmişik Bakıya. Yəni, Qarabağda yaşayan erməni azlığının nümayəndələrini. Ondan da imtina etdilər. Daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək. Ona görə onlara ancaq o halda amnistiya düşə bilər ki, özləri könüllü olaraq bütün saxta vəzifələrini kənara qoyub Azərbaycan vətəndaşlığı üçün müraciət etsinlər. Ona da biz hələ baxacağıq. Mənim sözüm qətidir, bunu hər kəs bilir, həm Azərbaycanda, həm dünyada, o cümlədən Ermənistanda. Nəyi deyiriksə, onu da edirik. Bir dənə də olsun sözümüz, necə deyərlər, havada qalmayıb, bu söz də havada qalmayacaq. Əgər mən deyirəmsə ki, amnistiyaya baxmaq olar, bu fürsəti də qaçırmasınlar. Onlar bir çox fürsətləri qaçırıblar, bir çox fürsətləri və hər dəfə, necə deyərlər, gərək onların başından vuraydıq ki, özlərinə gəlsinlər”.

Bəli, lokal antiterror tədbirlərinin elə birinci günü qanunsuz hərbi birləşmələr ağ bayraq qaldıraraq təslim oldular. Sentyabrın 20-də antiterror tədbirləri dayandırıldı. Ertəsi gün erməni sakinlərin nümayəndələri görüş üçün Yevlaxa gəldilər. Onların Azərbaycanın mərkəzi hakimiyyətini təmsil edən şəxslərdən xahişi nəzərə alındı. Sentyabrın 22-də içərisində müxtəlif ərzaq məhsulları və gigiyenik vasitələr olan 20 tonluq 2 yük avtomobili və 2 çörək dolu avtomobil Xankəndiyə yola salındı. Bir gün sonra bölgəyə 24 ton benzin və 40 ton dizel yola salındı. Prezident İlham Əliyevin tapşırığı ilə Qarabağ bölgəsində sosial, humanitar, iqtisadi və infrastruktur məsələlərinin həlli məqsədilə baş nazirin müavini Şahin Mustafayevin rəhbərliyi altında işçi qrup yaradıldı.

Sentyabrın 25-də Xocalı şəhərində Ramin Məmmədovun Qarabağın erməni sakinlərinin təmsilçiləri ilə növbəti görüşü keçirildi. Əgər ilk görüşdə Azərbaycan Konstitusiyası və qanunları əsasında Qarabağın erməni əhalisinin reintqrasiyası, infrastrukturunun bərpası və fəaliyyətinin təşkil olunması məsələləri üzrə müzakirələr aparılmışdısa, ikinci görüşdə müzakirə olunan məsələlərin spektrinin genişliyi diqqəti cəlb edir. Belə ki, görüşdə Qarabağ iqtisadi rayonunda yaşayan ermənisilli vətəndaş cəmiyyəti təmsilçiləri və ictimai fəalların Bakıya və ya Azərbaycanın digər şəhərlərinə səfərlərinin təşkil edilməsi təklifi vurğulanıb və bu cür təşəbbüslərin vətəndaş cəmiyyəti dialoqu platformasının yaradılması, eləcə də etimad quruculuğu tədbirlərinin həyata keçirilməsi baxımından əhəmiyyətli olduğu qeyd edilib. Həmin gün Xankəndi şəhəri yaxınlığında yanacaqdoldurma məntəqəsində baş verən partlayış nəticəsində çox sayda ölən və yaralananlar olub. Bununla əlaqədar yaralanan şəxslərə yardım məqsədilə ilkin olaraq 200 nəfərin müalicəsi üçün yanığa qarşı tibbi ləvazimatlar, sarğı materialları, əlcəklər, dərman preparatları (spreylər, kremlər, ağrıkəsicilər, antibiotiklər və s.) daşıyan təcili tibbi yardım maşını Ağdam–Əsgəran–Xankəndi yolu vasitəsilə yola salınıb. Həmçinin Ağdam, Sabirabad və Saatlı rayonlarındakı xəstəxanalar Xankəndidən xeyli sayda xəstənin qəbulu üçün hazır vəziyyətə gətirilib.

Dünən isə növbəti humanitar yardım Xankəndiyə yola salınıb. Dörd yük maşını 40 ton unu, gigiyenik vasitələri, yataq dəstlərini ünvana çatdıracaq. Həmçinin, növbəti təcili tibbi yardım maşını Xankəndi yaxınlığında yanacaqdoldurma məntəqəsində baş vermiş partlayış nəticəsində yaralanan şəxslərə tibbi ləvazimatlar aparıb.

Beləliklə, reinteqrasiya artıq qaçılmaz prosesə çevrilib və şübhəsiz ki, yaxın dövrün ən aktual, bəlkə də ən çox müzakirə olunacaq mövzularından biridir. Bu gün Qarabağ ermənilərinin, necə deyərlər, qapısını reinteqrasiya “döyür”. Prosesin mürəkkəb və davamlı olduğunu hamı dərk edir. Onun müxtəlif inkişaf mərhələlərində nəzərdə tutulmayan və proqnozlaşdırılması çətin olan amillər meydana çıxa bilər. Ancaq bütün ehtimallara rəğmən reinteqrasiya prosesində ən vacib və ən prinsipial məsələ siyasi iradənin mövcudluğudur. Dövlət başçımız həmin siyasi iradəni sentyabrın 20-də xalqa müraciətində həm Azərbaycan, həm də beynəlxalq ictimaiyyətə növbəti dəfə aşkar şəkildə nümayiş etdirdi. Prezident İlham Əliyevin “Bunu mən demişəm və bir daha demək istəyirəm, Qarabağın erməni əhalisi bizim vətəndaşlarımızdır” sözləri Qarabağ ermənilərinin reinteqrasiyası ilə bağlı Azərbaycan dövlətinin prinsipial mövqeyinin təsbitidir.

***Səxavət HƏMİD***
***XQ***

### Ekspert rəyi



**Yeganə HACIYEVA,**
**politoloq**

Hazırkı mərhələdə erməni sakinlərin nümayəndələrinin reinteqrasiya prosesini dəstəklədikləri görünür. Bunun özü pozitiv haldır. Ancaq prosesin siyasi, iqtisadi, təhlükəsizlik və sair kimi aspektləri var ki, onların dəyərləndirilməsi vacibdir. Azərbaycanın mərkəzi hakimiyyəti də bu riskləri dəyərləndirərək addımlar atır. Erməni sakinlər isə qismən kənar təsirlərin altındadırlar. Amma proseslərin inkişaf etməsi erməni sakinlərin Azərbaycan cəmiyyətinə reinteqrasiyası üçün vacib zəmin formalaşdırır. Bölgədə gələcəkdə separatizmin qarşısının alınması üçün də reinteqrasiya şərtdir. Ərazilərimizdə separatizmin inkişafı bizim gözümüz önündə oldu. Biz reinteqrasiya prosesindən danışarkən siyasi, iqtisadi, təhlükəsizlik kimi məsələrədən danışırıq, amma burada bir vacib məqam da tarixi dərslərdən nəticə çıxarmaqdır. Bu nəticənin çıxarılması gələcək risklərin qarşısının alınmasında mühüm rol oynayacaq.

Bütövlükdə, reinteqrasiya prosesinin dünyanın müxtəlif yerlərində fərqli modelləri var. Hansı modelin seçilməsindən asılı olmayaraq, indki halda regionun özünün, əhalinin spesifik xüsusiyyətləri, mental düşüncələri və yenə də tarixi dərslər əlavə olunmaqla reinteqrasiya prosesi uğurla tətbiq oluna bilər.

# Rusiya XİN-in "centlmensayağı bəyanatı"

## "Qızım, sənə deyirəm, gəlinim, sən eşit"

(əvvəli 1-ci səhifədə)

O demişdi ki, Kəlbəcər və Laçın da daxil olmaqla, bütövlükdə Qarabağın Ermənistana verilməsi söhbəti olub, lakin ölkə Kremlin təklifinə etinasız yanaşıb.

Burada üç məqam üzərində dayanmağa ehtiyac var. Birincisi, nə Putin, nə də Lavrov qaldırdıqları məsələyə tam diqqət yetirmir, digər təfərrüatları və incəlikləri açıqlamırlar. İkincisi, onların hər ikisi status məsələsini, prinsip etibarilə, Qarabağın Ermənistana verilməsi kimi qəbul edir. Üçüncüsü isə bu şəxslər özlərini elə aparırlar ki, sanki istədiklərini reallaşdıra, hər şeyi həll edə bilərmişlər.

Təbii, biz Rusiyanın Cənubi Qafqazda, ümumən dünyada hegemon roluna barmaqarası baxmırıq. Ancaq bu rol, ümumən, o zaman anlaşılandır ki, özünü ədalətli əməldə göstərir, yüngül deyimlərdə yox. Yəni, "verirdik, götürmədiniz" kimi ritorika hakim rol oynamaq deyil. Obrazlı desək, öküz də çox atılıb-düşür, ancaq özündən razılıq onu konserv qutusuna düşmək aqibətindən sığortalamır. Digər tərəfdən, böyüklük Simonyan kimi avantüristin, saxta inqilab həngaməsi nəticəsində hakimiyyət kreslosunu zəbt etmiş tərbiyəsizin səfeh məntiqinə eyni tonda cavab vermək də deyil.

Ermənistan baş naziri Nikol Paşinyan da Simonyandan fərqlənmir. Hər ikisi küçələrdən idarəçiliyə keçmiş adamlardır və məqsədləri bəllidir. Qərbpərəst Nikolun Ermənistandakı, ümumən, Cənubi Qafqazdakı Rusiya amilinə bomba qoymaq üçün ortaya atılmış fiqur olduğu gün kimi aydındır. Ancaq nə məsələdirsə, Paşinyanın söylədiklərinə Rusiya tərəfindən verilmiş reaksiyalar, bir qayda olaraq, adekvat alınmır. Yəni, erməni baş nazirin, əslində, küçə uşağı olduğu heçə sayılır. Düşünülmür ki, Nikol özünün yarımçıq təfəkkürü ilə sərsəm fikirlər söyləyir və onun dediklərinə münasibətdəki ayrı-ayrı motivlər problem yaradır. Problem bu dəfə də yarandı. Söhbət erməni baş nazirin 24 sentyabr 2023-cü il tarixdə xalqa müraciəti zamanı söylədiklərinə Rusiyanın Xarici İşlər Nazirliyinin cavab bəyanatından gedir. Daha doğrusu, bəyanatda əksini tapmış bəzi fikirlərdən.

***

Bəli, əvvəldə də dediyimiz kimi, rəsmi Moskva hər vəchlə İrəvana, ümumən Ermənistan cəmiyyətinə başa salmaq istəyir ki, ölkənin düşdüyü hazırkı acınacaqlı duruma görə məsuliyyəti o yox, erməni iqtidarının özü daşıyır. Mövcud xüsusda Kremlin əvvəlki Ermənistan hakimiyyəti üzərinə yüklənmələrini də görürük. Məsələn, Putinin "Kəlbəcər və Laçın da qarışıq bütün Qarabağı Ermənistana verirdik, razılaşmadılar" məntiqinin Paşinyan hakimiyyətinə heç bir dəxli yoxdur. Rusiya bu təklifi öz adamı olan Serj Sarkisyana vermişdi. Moskvanın ərköyün uşağa çevirdiyi Serjik isə ondan imtina etmiş, bütün işğal olunmuş rayonları öz əlində saxlamaq istəmişdi. Hələ biz onu demirik ki, Azərbaycan da məsələ ilə razılaşmamışdı. Əsas məqam Rusiyanın Sarkisyanın şıltaqlığını normal qəbul etməsi idi. Yəni, prinsipcə, Moskva da torpaqlarımızın işğalda qalmasına etiraz bildirməmiş, İrəvana təzyiq göstərməmişdi.

Ancaq Paşinyanın iqtidara gəlməsi ilə vəziyyət kökündən dəyişdi. Belədə Kreml nəyə görə Koçaryan–Sarkisyan xuntasının göstərdiyi mənasız inadı Nikolun üzərinə transformasiya edir? Hər keçi öz ayağından asılmalı deyilmi? Rusiya XİN-in bəyanatı göstərir ki, ölkə bu prinsipdən uzaqdır. Uzaqlıq isə ortaya bir reallığı qoyur – Rusiya özünü təmizə çıxarmaq üçün manipulyasiya yolu tutur. Ancaq məsələ yalnız bunda da deyil...

***

Diqqət yetirək, Kremlin baş diplomatiya idarəsinin bəyanatında bildirilir ki, N.Paşinyan Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 2020-ci ilin noyabrında əldə olunmuş və Qarabağın statusu məsələsini gələcək nəsillərin öhdəsinə buraxmaq barədə centlmensayağı razılaşmaya əməl etmək əvəzinə, Qərbin öyüd-nəsihətlərinə boyun əydi. Birincisi, centlmensayağı razılaşma nə deməkdir? Axı, Azərbaycan



Prezidenti İlham Əliyev 10 noyabr 2020-ci il tarixdə xalqa müraciətində çox açıq və aydın şəkildə bildirdi ki, Qarabağa status məsələsi bitdi. Dövlətimizin başçısı onu da vurğuladı ki, üçtərəfli Bəyanatda həmin məsələ barədə heç nə yoxdur. Yeri gəlmişkən, Ermənistan iqtidarı da müharibədən sonra bu haqda fikir bildirməyib. Status məsələsini ara-sıra qaldıran elə Rusiya olub. Yəni, heç bir halda, məsələ 44 günlük müharibədən sonrakı Azərbaycan–Ermənistan sülh nizamlaması üçün prioritet təşkil etməyib. Elə isə Moskva İrəvana minnətini nə üçün mövcud xüsusda qoyur? Deməli, Rusiya rəhbərliyi öz düşüncəsini tərəflərə sırımaq istəyib və onların heç biri razılaşmayıb.

***

Digər tərəfdən, sual olunur: Ermənistanın Qarabağa status məsələsi ilə razılaşmaması nə üçün Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının prezidenti Şarl Mişelin vasitəçiliyi ilə keçirilmiş Praqa (6 oktyabr 2022-ci il) və Brüssel (14 may 2023-cü il) görüşlərində Paşinyanın, Qarabağ da daxil olmaqla, Azərbaycanın ərazi bütövlüyünü tanıması ilə əlaqələndirilməlidir? Nəyə görə Rusiya XİN hesab etməlidir ki, Nikolun 1991-ci il Alma-Ata Bəyannaməsi əsasında hərəkət etməyə dair qərar verməsi status məsələsinə ziddir? Nəhayət, hansı səbəbdən Paşinyanın Alma-Ata Bəyannaməsini üstün tutması 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatın imzalandığı şərtləri, eləcə də Rusiya sülhməramlı kontingentinin mövqeyini əsaslı şəkildə dəyişdirməlidir? Belə çıxır ki, Moskva üçtərəfli Bəyanata Ermənistan üçün yeni ərazi verilməsi kontekstində yanaşıbmış? Axı, heç vaxt Kreml tərəfindən bu baxış ortaya qoyulmayıb. Rusiya nə zamansa mövqeyini açıq şəkildə bildiribmi ki, indi İrəvanın məsələ ilə razılaşmamasını ona qəbahət kimi qələmə verir? Hazırda onsuz da vəziyyət başqadır. Bəs, Rusiya rəhbərliyi əvvəl düşünürdü ki, Azərbaycan onun məntiqi ilə razılaşacaqdı? Əlbəttə, heç vaxt razılaşmazdı.

1991-ci ilin Alma-Ata Bəyannaməsi sabiq SSRİ respublikalarının malik olduqları sərhədlərin qarşılıqlı şəkildə tanınmasını rəhbər tutur. Bu isə o deməkdir ki, keçmiş Dağlıq Qarabağ Muxtar Vilayəti Azərbaycanın tərkibində tanınır. Nikol çox doğru olaraq bildirmişdi ki, hazırkı Rusiyanın ərazisi də həmin sənədə əsasən tanınıb. Bəs, o zaman nə üçün Paşinyanın Praqa və Brüsseldə Alma-Ata Bəyannaməsinə sadiqliyini bildirməsi Qarabağa status məsələsini ikinci plana atmalıdır? Sözdə bildirilmə əsasdır, yoxsa imza ilə təsdiq? Yəni, hər bir halda, Ermənistan bəyannaməyə çoxdan imza atıb. Nikol əvvəlki açıqlamasında, hətta onu da demişdi ki, Alma-Ata razılaşması artıq ölkəsinin qanunvericiliyinin bir hissəsidir. Rusiya XİN sırf bu məqamı nəzərə almır, özü bilər, bəs Qarabağı niyə düşünmür? Daha doğrusu, bölgənin əbədi və əzəli Azərbaycan torpağı olduğunu "yaddan çıxarır". Axı, V.Putin özü də bildirmişdi ki, Qarabağ və ətraf rayonlar beynəlxalq hüquq nöqteyi-nəzərindən Azərbaycan əraziləridir.

***

Məlum olduğu kimi, N.Paşinyanın xalqa müraciəti əsasən Ermənistanın təhlükəsizliyinin qorunması seqmenti üzərində idi. Onun Rusiyaya yönələn ittihamında da bu motiv əsas götürülmüşdü. Yəni, Nikol açıq surətdə demişdi ki, Moskva İrəvanın təhlükəsizliyini təmin edə bilmir və bu səbəbdən ona yeni alətlər lazımdır. Rusiya XİN isə bəyanatında vurğulayır ki, Paşinyan iqtidarının "uzaqgörənliyi" sayəsində Ermənistanın təhlükəsizliyinin möhkəmləndirilməsi sahəsində bir sıra sazişləri həyata keçirmək mümkün olmadı, xüsusən Nikol altı ölkənin xarici işlər nazirləri tərəfindən razılaşdırılmış qərarı imzalamadı. Söhbət Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatının müşahidə missiyasının Ermənistan-Azərbaycan sərhədinə yerləşdirilməsi ilə bağlı məsələdən gedir. Söhbət həm də KTMT-nin 2022-ci ilin noyabrında keçirilmiş İrəvan sammiti ilə bağlıdır. O sammit ki, orada Rusiya Prezidenti V.Putin də iştirak etmişdi. Paşinyan isə həmin tədbirdə quruma üzv dövlətlərin liderləri qarşısında bəyan etmişdi ki, KTMT Azərbaycanın işğalçılığı kimi dəyərləndirdiyi sentyabr eskalasiyasına siyasi qiymət verməlidir. Bu qiymət isə olmadı. Nəticədə Nikol Rusiya XİN-in hazırkı bəyanatında vurğulanmış "sərhəddə missiya" məntiqinə müsbət reaksiya vermədi. Bütün bunlar öz yerində, amma Kremlin baş diplomatiya idarəsinin yaydığı sənəddən belə nəticə hasil olur ki, Ermənistana sərhədində təhlükə mənbəyi Azərbaycandır. Halbuki, ölkəmizin Ermənistan ərazisinə hücum planı olmayıb. Digər tərəfdən, sual olunur: Azərbaycanla Ermənistan arasında sərhədlər müəyyənləşməyibsə, KTMT qüvvələri harada yerləşdiriləcəkdi? Əgər Moskva həqiqətən də İrəvanın təhlükəsizliyini düşünsəydi, o zaman, ilk növbədə, sülh müqaviləsinin imzalanmasına çalışardı. Çalışmadı və bildirdi ki, müqavilənin imzalanması sonraya saxlanılmalıdır. Yəqin, bir azdan bunu da centlmen razılaşması kimi qiymətləndirənlər tapılacaq. Yəni, problemin ətrafında gəzişmək lazım deyil. Çünki bu gəzişmənin şəxsi maraqlardan irəli gəldiyi, səmimiyyətdən uzaqlığı çox aydın görünür.

***

Rusiya XİN-in Praqa və Brüssel sammitlərindən söz açması müstəvisində yada saldığı bir məqam da var. Qurumun bəyanatında vurğulanır ki, sözügedən görüşlərdə Ermənistanın baş naziri Azərbaycanın ərazi bütövlüyünü tanımaqla, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyini unudub. Mövcud deyimdə konseptual baxış nədir? Bu barədə söz açmazdan əvvəl bildirək ki, Nikol, ümumən rəsmi İrəvan son dövrlər Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi məsələsini mütəmadi şəkildə qaldırmaqda idi. Hətta mövcud yöndə hansısa beynəlxalq təminatlardan da söz açırdı. Rusiyanın mövqeyi isə budur: Qarabağı istəyirsənsə, onu Azərbaycan kimi tanıyaraq bölgədəki erməni əhali ilə bağlı iddia irəli sürə bilməzsən! Görünür, İrəvan bunu həm də ona görə etməməlidir ki, belə dəst-xətt Rusiyanın Qarabağ ssenarisinə ziddir.

Dəst-xətdən söz düşmüşkən, o da məlumdur ki, İrəvanın Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə əlaqədar beynəlxalq təminatlar məsələsi ərazini Rusiyanın egidasından çıxarmaq cəhdidir. Başqa sözlə desək, Nikol avantüranı Qərb platformasına keçirərək hərəkət etməyin tərəfdarıdır. Rusiya XİN isə bildirir ki, belə cəhdlər uğursuzluq gətirdi və o, uğursuzluğa görə məsuliyyət daşımaq istəmir, həmçinin uğursuzluğun Kremlin boynuna qoyulması ilə razılaşmır. Yəni, buradan da belə nəticə çıxa bilər ki, Ermənistan Azərbaycanın ərazi bütövlüyünü tanımasaydı, Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi kontekstində bölgə ilə bağlı iddialarını davam etdirə bilərdi. Əlbəttə ki, Rusiyanın köməyi ilə.

***

Daha bir məqama keçid alaq. Rusiya XİN-in bəyanatında bildirilir ki, vəziyyət rəsmi İrəvanın 10 noyabr 2020-ci il tarixindən sonra Ermənistan silahlı qüvvələrinin Qarabağda mövcudluğunun davam etdirilməsini israrlı şəkildə boynundan atması ilə də gərginləşdi. Sən demə, bu da sonuncu sentyabr eskalasiyasının əsas səbəblərindən birinə çevrildi. Yəni, "ayın 20-də Rusiya sülhməramlılarının vasitəçiliyi ilə yerdə qalan erməni birləşmələrinin çıxarılması və "Dağlıq Qarabağ Müdafiə Ordusu"nun tam tərksilahına dair əldə olunmuş razılaşma real mənzərəni üzə çıxardı, davamlı deeskalasiya üçün ilkin şərtlər yaratdı".

Əvvəla, Azərbaycan həmişə bildirirdi ki, Qarabağda qeyri-qanuni erməni hərbi birləşmələri var. Ölkəmiz onların çıxarılmasını tələb edirdi. Ermənistan rəhbərliyi isə çox zaman məsələnin üzərindən sükutla keçirdi. Yəni, Rusiya XİN-in bildirdiyi kimi, bunu heç zaman yüksək səslə bildirmirdi. Nikol yalnız ara-sıra "Qarabağda Ermənistan ordusu yoxdur", – deyə fikir səsləndirib. Onun bunu ucadan bəyan etməsi məhz antiterror tədbirləri zamanı oldu – baş nazir sentyabrın 19-da dedi, 20-si təkzib elədi və bildirdi ki, razılaşmaya əsasən Ermənistan ordusunun birləşmələri tam şəkildə Qarabağdan çıxarılacaq.

Bəs, yaxşı, Rusiya XİN nə üçün 10 noyabr Bəyanatı xüsusunda bölgədə olan İrəvana məxsus hərbi birləşmələr məsələsinin üzərinə gəlir? Nəzərə alaq ki, bu deyim Ermənistanın təhlükəsizliyi müstəvisində səslənir. Deməli, belə qənaətə gəlmək olar ki, Moskva həmin qeyri-qanuni hərbi birləşmələri də İrəvan üçün təhlükəsizlik prizmasında dəyərləndirirmiş və gözləyirmiş ki, Paşinyan iqtidarı buna uyğun addımlar atsın? Deməli, Nikol məsələyə əhəmiyyətsiz yanaşmaqla səhvə yol verib. Bəs, üçtərəfli Bəyanat? Axı, orada aydın yazılıb ki, Ermənistana məxsus hərbi birləşmələr Qarabağdan çıxmalıdır. Bəyanatda Putinin də imzası var. Nə üçün bu, təmin edilməmişdi? Axı, ödəlik Rusiyanın idi...

Əslində, Rusiya XİN yaydığı bəyanatla İrəvana başa salmaq istəyir ki, Qarabağda bölgəni itirməmək üçün ordunun qalmasını təmin edən Rusiya olub və ölkə son anadək – sentyabrın 19-da başlamış antiterror tədbirlərinədək status-kvonu saxlamağı bacarıb. Çox güman, Kremldə sual edirlər ki, Ermənistanın təhlükəsizliyi və Qarabağ üçün daha nə etməli idik? Hə, bu sıraya müxtəlif torpaq yollarla separatçı rejim üçün silah-sursat, hərbi texnika, mina daşınmasını da əlavə edə bilərik. Doğrudan da, Rusiya 44 günlük müharibədən sonra İrəvan üçün başqa nə etməli idi ki, Ermənistan onun orbitinə qayıtsın? Yaxud başqa nə etməli idi ki, Azərbaycana zərər dəysin?..

***Əvəz CAHANGİROĞLU***
***XQ***

> ***Mən bir məsələni də bildirmək, əziz xalqıma çatdırmaq istəyirəm. Yəqin siz fikir vermisiniz ki, bu bəyanatda Dağlıq Qarabağın statusu haqqında bir kəlmə də yoxdur, yoxdur! Bəs hanı Ermənistan tərəfinin tələbləri ki, Dağlıq Qarabağa müstəqillik verilməlidir? Mən onlara muxtariyyət təklif edəndə buna razı olmadılar, dedilər ki, yox, bu, "müstəqil dövlətdir". Bunlar uzun illərdir "müstəqil dövlət" kimi yaşayır və onlar Azərbaycandan müstəqillik almalıdırlar. Bir kəlmə də yoxdur, Paşinyan.***
>
> ***Prezident İlham Əliyevin Azərbaycan xalqına 10 noyabr 2020-ci il tarixli müraciətindən***

# 27 Sentyabr – Azərbaycanın dünyaya Günəş kimi doğduğu gün

## Zəfərə gedən yolun şanlı başlanğıcı



*(əvvəli 1-ci səhifədə)*

Bəli, Prezident İlham Əliyevin də bildirdiyi kimi, 27 sentyabr 2020-ci il tarixdə nələrin baş verdiyini tarixçilər deyəcəklər. Ümumən, istənilən hadisəyə ən layiqli qiymətin verilməsi, onun vətəndaşlıq hüququ qazanması üçün əlahəzrət zamana ehtiyac var. Hesab edirik ki, 27 sentyabr tarixi ilə bağlı da ən obyektiv və dolğun qiymət zamanla veriləcək, bu tarixin möhtəşəmliyi özünü daha zəngin təqdimatlarda tapacaq.

Hələlik isə onu qətiyyətlə söyləmək olar ki, 27 sentyabr Azərbaycan xalqının öz üzərindəki ləkəni təmizləmək üçün müqəddəs yolçuluğa çıxdığı tarixdir. Bu tarixin yaşanmasında canından keçmiş Vətən övladlarının anılmasında böyük məntiq və misilsiz qədirbilənlik var. Axı 27 sentyabrdan başlanan yolun məziyyətləri ölçüyəgəlməzdir. Cəbrayıl şəhəri və rayonun 90 kəndi, Füzuli şəhəri və rayonun 53 kəndi, Zəngilan şəhəri, rayonun Mincivan, Ağbənd, Bartaz qəsəbələri və 52 kəndi, Xocavənd rayonunun Hadrut qəsəbəsi və 35 kəndi, Tərtər rayonunun 3 kəndi, Qubadlı şəhəri və rayonun 41 kəndi, Xocalı rayonunun 9 kəndi, Şuşa şəhəri, Laçın rayonunun 3 kəndi, həmçinin Ağdərə və Murovdağ istiqamətlərində bir neçə strateji yüksəkliyi, Zəngilanda isə Bartaz, Sığırt, Şükürataz yüksəklikləri və daha 5 adsız yüksəklik. 2020-ci il noyabrın 10-da imzalanmış üçtərəfli Bəyanata əsasən, noyabrın 20-də Ağdam rayonu Azərbaycana təhvil verildi. Bununla da rayonun işğal edilmiş 73 faiz ərazisi, o cümlədən Ağdam şəhəri azad olundu. Üçtərəfli bəyanata əsasən, noyabrın 25-də Kəlbəcər rayonu Azərbaycana qaytarıldı. Kəlbəcər şəhəri də daxil olmaqla, 147 yaşayış məntəqəsinin işğalına son qoyuldu. Dekabrın 1-də Laçın rayonu Azərbaycana təhvil verildi. Nəhayət, 2022-ci il avqustun 26-da Laçın şəhəri, Zabux və Sus kəndləri nəzarətə götürüldü. Bununla da Ağdam, Kəlbəcər və Laçın rayonlarının sülh yolu ilə qaytarılması prosesi yekunlaşdı. Əlbəttə, bu gün Azərbaycanın öz torpaqlarına sahiblənməsinin, tam suverenliyini bərpa etməsinin əsası da 27 sentyabr 2020-ci ildən qoyuldu.

27 sentyabr tarixi nəinki Azərbaycana, o cümlədən, Cənubi Qafqaz regionuna sülh müjdəsinə əsas yaradan tarixdir. Məlum olduğu kimi, sülh qanla əldə edilir. Həm də elə buna görə qanından-canından keçmiş Vətən övladlarını məhz bu gün anırıq. Onlar yaşadığımız regionun sülh təminatçılarıdır, sülh və ədalət yolunda gənc həyatlarını qurban vermiş əsl fədakarlar, qəhrəmanlardır.

Sentyabrın 27-si müdrikliyin, səriştənin, dönməzlik və prinsipiallığın zəfərinə doğru yolun başlanğıcıdır. Hesab edirik ki, Azərbaycan xalqı bu tarixədək bir İlham Əliyev tanıyırdısa, bu tarixdən sonra tamamilə fərqli bir liderlə tanış oldu. Onu güclü sərkərdə kimi tanıdı. Hər bir azərbaycanlı onu özünə ata, qardaş, dayı, əmi gördü, öz doğması hesab etdi. Bu, cənab İlham Əliyevin prezidentlik keyfiyyətlərinə yeni obraz qazandırdı. Prezident bu obrazın verdiyi qətiyyətlə müzəffərlik zirvəsinə ucaldı. 27 sentyabrdan noyabrın 10-dək xalqımız bu müzəffər liderin tvitlərini gözlədi, müraciətlərini izlədi, dünyanın nüfuzlu media orqanlarına verdiyi müsahibələrin, az qala, hər sözünü bir-bir oxudu. Oxudu, gözlədi, izlədi və daxilində müqəddəs Zəfərimizə inam bəslədi.

27 sentyabr tarixi səbr kasamızın dolduğu gündür. Bu tarix ona görə yaşandı ki, təzavüzkar Ermənistan Azərbaycanın xoş niyyətindən, münaqişəni dinc yolla aradan qaldırmaq istiqamətindəki səylərindən nəticə çıxarmadı, işğalçı mahiyyətindən daşınmadı. 27 sentyabr tarixinə qiymət verən, İrəvanın xəbərdarlıqlardan nəticə çıxarmadığını vurğulayan Prezident İlham Əliyev bu məqamı özünəxas şəkildə təqdim edir: "Amma nə etdilər? Orada qanunsuz məskunlaşma aparmaq üçün beynəlxalq hüququ, beynəlxalq konvensiyaları, o cümlədən Cenevrə konvensiyalarını kobudcasına pozaraq nümayişkaranə şəkildə xaricdən erməniləri gətirib özü də məhz Şuşaya ki, bizi incitsin. Məhz Şuşada o dəstə başçısı hansı ki, indi deşik axtarır gizlənməyə, xunta başçısı özünə andiçmə mərasimi keçirmişdir və Ermənistan baş naziri gedib orada iştirak edib. Bu, bizə sataşmaq deyildimi? Bunun hesabını sizdən soruşan olmayacaqdımı?! Hesabını soruşduq, diz çökdürdük, diz üstə qoyduq! Onun-bunun ətəyindən yapışıb bu 40 gündən çox bir müddətdə adam qalmayıb ki, zəhləsini tökməsin, yardım istəməsin, özünü alçaltmasın. Biz alçaltmışıq onu, əcəb də etmişik. Bizim üçün müqəddəs olan Şuşa şəhərinin Cıdır düzündə sərxoş vəziyyətdə rəqs edəndə fikirləşəydi ki, bu gün gələcək, cəzasını alacaq, siçan kimi gizlənib bax bu sənədi götürüb ağlaya-ağlaya imzalayacaq. Yerini göstərdik, dərsini verdik. Qovmuşuq onları torpaqlarımızdan, iti qovan kimi qovmuşuq. Demişdim ki, qovacağıq, iti qovan kimi qovacağıq və qovmuşuq, iti qovan kimi qovmuşuq".

27 sentyabr tarixi ədalətin bərpasına doğru gedən şanlı yolun başlanğıcıdır. Məlum olduğu kimi, Ermənistan BMT-nin Təhlükəsizlik Şurasının Azərbaycan torpaqlarının işğalına son qoyulmasına dair dörd qətnaməsini saya salmırdı. Bundan başqa digər mötəbər təşkilatların da çağırışlarına məhəl qoymurdu. Azərbaycan bütün bunlara qarşı öz haqq və ədalətini diktə etdi. Əminliklə söyləyə bilərik ki, 27 sentyabr tarixi həm də haqqın və ədalətin güc yolu ilə, hərbi yolla zəfər çaldığı möhtəşəm bir mərhələnin başlanğıcıdır. Halbuki, Azərbaycan Prezidenti 44 günlük müharibə başlanandan sonra da məsələni hərbi yolla həll etməmək üçün səylər göstərdiyini vurğulayıb: "Mən bu müharibə başlanandan sonra demişdim ki, bir çoxları, demək olar, bu məsələ ilə məşğul olan siyasətçilərin hamısı deyirdi ki, bu münaqişənin hərbi həlli yoxdur. Mən nə deyirdim? Deyirdim ki, var! Məni tənqid edirdilər ki, İlham Əliyev nə danışır? Yoxdur hərbi həlli. Dedim yaxşı yoxdursa, onda bunu sülh yolu ilə həll edin. Sizin əlinizdə bu imkanlar var. Siz böyük dövlətlərsiniz, böyük nüfuzunuz var, böyük imkanlarınız var. Nədir ki, sizin qabağınızda Ermənistan, nədir ki, ona təsir edə bilmirsiniz? Bəlkə təsir etmək istəmirsiniz? Yox, deyirdilər ki, olmaz müharibə aparmaq, sülh yolu ilə. Sülh yolu ilə 1 il, 2 il, daha 30 il sülh yolu ilə? Bizim başımızı nə qədər aldatmaq olar?"

27 sentyabr tarixi onu da göstərdi ki, Azərbaycan xalqını saymazdan gəlmək cəhdləri mənasızdır. Həm də ona görə ki, 44 günlük müharibənin Zəfərindən sonra bu xalqın malik olduğu dövlət, ümumən, Cənubi Qafqaz regionunda yeni mərhələnin təməlini qoydu. Ümummilli lider Heydər Əliyev bildirirdi ki, Azərbaycan dünyaya Günəş kimi doğacaq. Dahi şəxsiyyətin söylədiyi hər fikir, dilə gətirdiyi hər arzu reallıqla uzlaşır, çin çıxır. 27 sentyabrdan başlanmış yol Vətənimizi doğan Günəşə çevirdi. Elə bir Günəşə ki, dünyanı yenidən işıqlandırmaq əzmini göstərdi.

***XQ-nin***
***analitik qrupu***

# Qranada sülhə evsahibliyinə iddialıdır

## Aİ-nin oktyabrın 5-nə planlaşdırılan toplantısında Ermənistan və Azərbaycan arasında ilkin sülh müqaviləsinin imzalanması gözlənilir

**Başlığa çıxardığımız nikbin proqnozu şərtləndirən bir sıra amillər artıq göz önündədir. Cənubi Qafqazda Bakının kökündən dəyişdiyi hərbi-siyasi durum, kənar vasitəçilərin öz aralarında gərgin diplomatik atışmalara girişməsi, İrəvanda səslənən “İstefa!” tələbləri, Kremlin Paşinyan hökumətini kəskin tənqid atəşinə tutması fonunda Azərbaycan səbirlə sülh müqaviləsinin imzalanacağı anı gözləyir.**

Həmin anın addım səsləri İspaniyanın dilbər guşəsi Qranadadan eşidilməkdədir, – deməyə tələsirik. Amma Avropa Siyasi Birliyinin bu şəhərdə keçiriləcək növbəti Zirvə toplantısı və bu çərçivədə Ermənistan–Azərbaycan dialoqunun baş tutmasına hələ 8 gün qalıb.

Əvvəlkilərdən köklü şəkildə fərlənəcəyi söylənilən bu görüşdən hamının nikbin gözləntisi var. Belə məlum olur ki, Cənubi Qafqazda olduğu kimi, okeanın o tayında da bu tarixi görüşü intizarla gözləməkdədirlər.

“Azərbaycan Prezidenti İlham Əliyev və Ermənistan baş naziri Nikol Paşinyan arasında gələn həftə görüş baş tutacağına dair məlumat verildi. Bu görüşün nəticələrinin iki ölkə arasındakı uçurumu aradan qaldıracağını düşünürük”. Bu sözləri ABŞ Dövlət Departamentinin mətbuat katibi Metyu Miller jurnalistlərin suallarını cavablandırarkən deyib. Vaşinqton rəsmisi onu da deməyi unutmayıb ki, ABŞ iki ölkə arasında sülh sazişinin əldə olunması üçün bütün dəstəyini verməyə davam edir.

Mediada, sosial şəbəkədə qarşıdakı görüş, ondan gözləntilər və mümkün nəticələr barədə indidən bir çox fərziyə və ehtimallar tirajlanmaqdadır. Mövzunun əhəmiyyətini nəzərə alaraq bu yazımızda daha çox tanınmış ekspertlərin şərhlərinə, proqnozlarına üstünlük verdik.

* * *

**Mövzuya reallığı nəzərə almaqla yanaşmaq istəyən tanınmış politoloq Fikrət Sadıxovun fikrincə, uzun illər ərzində torpaqlarımızın işğal altında olması iki ölkə arasında deyilən uçurumu dərinləşdirmişdi:** “Amma Bakı



işğala son qoydu. Yeddi rayonumuzu azad etdik, indi də Xankəndidəyik. Yəni, ədaləti bərpa etdik. Addımlarımızı beynəlxalq hüquqa uyğun atdıq və dünya birliyi Qarabağı Azərbaycanın tərkib hissəsi kimi tanıdı. Qarabağdan çıxmağa tələsməyən Ermənistan ordusunun qalıqları tərksilah olunandan, Azərbaycan Ordusu Xankəndiyə daxil olandan sonra, bu, tərəflər arasındakı ilk görüş olacaq. Son günlər İrəvan başa düşüb ki, artıq Bakı ilə silah, hücum ritorikası ilə danışmaq qeyri-mümkündür”.

Hazırda Azərbaycanın bölgədə yaratdığı siyasi reallıqla Ermənistan rəhbərliyinin barışmalı olduğunu vurğulayan təcrübəli politoloq hesab edir ki, Bakının indiki məqamda məqsədi İrəvanla sülh sazişini imzalamaqdan ibarətdir: “İrəvanın əvvəllər sülh sazişində öz əksini tapmasına təkid etdiyi Qarabağ erməniləri məsələsi avtomatik yoxa çıxdı. Ermənistan ikitərəfli görüşdə bu məsələni qaldıra bilməz. Erməni icmasının Qarabağda tahlükəsiz yaşaması öhdəliyini Azərbaycan öz üzərinə götürüb. Bu məsələ ilə bağlı dövlətimizin başçısı çıxışlarında dəfələrlə şəffaf və konkret mövqe ortaya qoyub. Əlbəttə ki, biz yeni reallıq yaratmışıq və İrəvan bununla hesablaşmağa məhkumdur. Düzdür, uçurum çox dərindir, İndi əsas vəzifə erməniləri sistemli və davamlı şəkildə dialoqa və sülhə məcbur etməkdir”.

* * *

**“Azərbaycan və Ermənistan arasındakı uçurumu aradan qaldırmaq üçün böyük fürsət yaranıb” ifadəsinin diplomatik jarqon olduğunu söyləyən siyasi şərhçi Orxan Amaşov** bunu hərfi mənada başa düşülmədiyinə diqqət çəkib: “İyirmi sentyabrdan sonra iki ölkə arasında uçurum azalıb. Paşinyan xalqa müraciətində birmənalı olaraq qeyd etdi ki, Qarabağdakı erməni əsilli əhalinin həyatına təhdid yoxdur və dinc sakinlərə zərərin toxunması barədə xəbərlər həqiqəti əks etdirmir. Bəli, bütün bunlar uçurumun zəiflədiyini göstərir. Sülh müqaviləsinin imzalanması qarşısında duran ən böyük maneə qondarma Xankəndi rejimi və Qarabağda separatçı xuntanın mövcudluğu idi. İndi bu maneə aradan qalxıb. Ermənistan ordusunun qalıqlarının və yerli silahlı dəstələrin tərksilah edilməsinə başlanılıb. Bununla paralel olaraq daxili dialoq da intensivləşib. Sentyabrın 21-də Yevlaxda, 25-də Xocalıda görüşlər keçirildi. Yəni, bütün bunlar onu göstərir ki, böyük sülh müqaviləsinin



imzalanması qarşısındakı maneələr aradan qaldırılmaqdadır. Əlavə arqument isə Nikol Paşinyanın Qarabağ ermənilərinin hüquq və təhlükəsizliyi ilə bağlı beynəlxalq mexanizmin cəlb edilməsi tələbindən geri çəkilməsidir”.

Oktyabrın 5-də Qranadada baş tutacaq danışıqların yekununda ciddi irəliləyişin əldə olunmasını istisna etməyən O.Amaşov orada konkret sənədin imzalanmasını belə mümkün sayır: “Ortada iradə məsələsi var. Ermənistan rəsmilərindən, isteblişmentindən gələn son bəyanatlar onu göstərir ki, Bakının lokal antiterror tədbirindən sonra 5 oktyabr görüşünün əhəmiyyəti daha da artıb, Bu baxımdan, Aİ-nin İspaniya zirvəsindən proqres gözləmək olar. Onu da deyim ki, reallıq bu ilin sonuna qədər sülh müqaviləsinin imzalanması ehtimalını xeyli gücləndirir. Çünki, maneələrin aradan götürülməsi istiqamətində böyük nəticələr qazanılıb”.

Siyasi şərhçi sözlərinə onu da əlavə etdi ki, hazırda Ermənistan siyasi rəhbərliyinin fikirlərində ziddiyətin, harmoniyasızlığın görünməsi təbii sayılmalıdır. Buna misal olaraq Ararat Mirzoyanın BMT Baş Assambleyasında bir cür, Nikol Paşinyanın isə xalqa müraciətində fərqli mövqe nümayiş etdirmələrinə diqqəti yönəldən Orxan Amaşov bunu baş nazirin real vəziyyəti daxilə, xarici işlər nazirinin isə dünyaya izah etməyə çalışması ilə izah edir: “Bu, onların düşünülmüş davranış formasıdır”. Qranadadan nikbin xəbərlərin gələcəyini ehtimal edən ekspertin bunu real vəziyyətə və maneəsiz dialoqa söykənərək irəli sürdüyünü söyləyə bilərik. Bu dəfə, doğrudan da, ümidlərin özünü doğruldacağına inam böyükdür.

* * *

**Oktyabrın 5-də Ermənistan–Azərbaycan–Avropa İttifaqı–Almaniya–Fransa beştərəfli görüşü ilə bağlı qəzetimizə açıqlama verən siyasi ekspert, politoloq Fərhad Məmmədov** səkkiz gündən sonra Avropa İttifaqının egidası altında Qranadada keçiriləcək görüşün xüsusu və əlahiddə əhəmiyyət kəsb etdiyinə diqqəti yönəltdi. İştirakçı dövlət və hökumət başçılarının müşavirləri səviyyəsində qarşıdakı görüşə hazırlıqların artıq başlandığını bildirən politoloqun fikrincə, İspaniyada sülh prosesinə ciddi töhfə verə biləcək bəyanatların səslənəcəyini, konkret addımların atılacağını gözləyə bilərik: “Genişmiqyaslı hazırlıq işləri ondan xəbər verir ki, Qranadada nəsə ola bilər. İkinci məqam ondan ibarətdir ki, son iki il on ayda sülh sazişini təklif etməklə yanaşı, bu prosesə təkan vermək baxımından həm diplomatik səviyyədə, həm də ərazidə konkret addımlar atılıb. Azərbaycanın reallaşdırdığı bütün infrastruktur layihələr, o cümlədən, hərbi əməliyyatların, yaxud şərti sərhəddə nəzarət-buraxılış məntəqəsinin quraşdırılmasının əsas məqsədi məhz bu idi. Bakı ildırım sürətli lokal antiterror tədbirləri ilə sülh müqaviləsinə gedən yolda əsas maneəni aradan qaldırdı. Bununla yanaşı, həm Azərbaycan Prezidenti, elə-



cə də Türkiyə Prezidenti tərəfindən Ermənistana xoşməramlı çağırışlar edildi. İrəvandan yaxın zamanlarda sülh sazişini imzalaması gözlənilir ki, sonuncu maneə də aradan qalxsın. Bunu ABŞ başda olmaqla, Ermənistanın Fransa, Rusiya, Avropa İttifaqı, İran kimi tərəfdaşları da yaxşı başa düşürlər”.

F.Məmmədov onu da əminliklə bildirdi ki, bundan sonra bölgədə baş verə biləcək gərginlik, destruktiv hərəkətlər avtomatik olaraq Ermənistanın özünün təhlükəsizliyinin şübhə altına alınmasına gətirib çıxara bilər: “Belə olan təqdirdə Ermənistanın təhlükəsizliyini öz təhlükəsizliyi hesab edən, yaxud ona dəstək verməyə çalışan kənar aktorlar rəsmi İrəvanı qonşuları ilə sülh və əmin-amanlıq şəraitində yaşamağa məcbur etməlidirlər. Düşünürük ki, məhz belə təzyiqlər vasitəsilə indiki şərait sülh müaqaviləsinin imzalanmasını sürətləndirməyə imkan verər”.

* * *

**Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin rəhbəri, ekspert Fərid Şəfiyev** daha çox Ermənistanın özündə müşahidə olunan prosesləri önə çəkərək,



indiki məqamda İrəvandan səmərəli bəyanatların səsləndiyini bildirdi: “Ermənistandan müsbət və ümidverici mesajlar gəlməkdədir. Əlbəttə, oradakı sağlam düşüncəli qüvvələr də bu münaqişənin, nəhayət, tarixə qovuşmasını arzulayırlar. Amma, bu, heç də o demək deyil ki, daha heç bir problemlə üzləşməyəcəyik. Ermənistanın bizə qarşı müəyyən iradları, beynəlxalq məhkəmələrdə iddiaları hələ də qalmaqdadır. Təbii ki, Azərbaycanın da İrəvana müvafiq tələb və iddiaları mövcuddur. Sadəcə bizim tələblərimiz əsaslı və sübutludur, onlar isə süni şəkildə ajiotaj yaratmağa çalışırlar. Bütün bunlara baxmayaraq müəyyən optimizmə yerin olduğunu söyləyə bilərik. Təkrar edirəm, İrəvandan eşidilən bəzi mesajlar ona işarə edir ki, onlar da sülh sazişini tezliklə imzalanmasını istəyirlər”.

* * *

Yazımızın əvvəlində ABŞ Dövlət Departamentinin Qranada görüşünün iki ölkə arasındakı uçurumu aradan qaldıracağına inandığını qeyd etdik. Ekspertlərimizin nikbinliyi onu deməyə əsas verir ki, yeni reallıq şəraitində, bu, baş tutacaq və Avropa İttifaqının budəfəki Zirvə toplantısı çərçivəsində beştərəfli görüş real və konkret nəticə ilə sonuclanacaq.

Aİ-nin Qranada toplantısının siyasi miqyasını və çəkisini artıran amillərdən biri də əvvəlki zirvə görüşlərindən fərqli olaraq, bu dəfə dialoqa hazırlıq işlərinin 10 gün əvvəldən başlanmasıdır. Bu nüans heç də nəzərdən yayınmadı. Artıq dünəndən etibarən Bakı, İrəvan, Paris və Berlinin rəsmi təmsilçilərinin Brüsseldə bir araya gəlməsi faktı qarşıda tərəfləri konkret razılığa gələ biləcəkləri gündəliyin hazırlanması versiyasını irəli sürməyimizə dəstəvuz verir. Əslində, iki qonşu xalq kimi, tərəfləri və vasitəçiləri də yormuş bu münaqişənin sona çatması məqamı yetişib.

Sülh müqaviləsinin imzalanması kimi tarixi hadisənin beştərəfli görüşə evsahibliyi edən İspaniyanın Qranada şəhərinin taleyinə düşməsi bizim kimi qızğın xarakterli ispanların da ürəyincə olacağını indidən söyləyə bilərik.

***İmran BƏDİRXANLI***
***XQ***

# Mübariz Qurbanlı Gürcüstanda rəsmi səfərdədir



**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstanda rəsmi səfərdədir.**

Səfər çərçivəsində M.Qurbanlı bu ölkənin Dini Məsələlər üzrə Dövlət Agentliyinin sədri Zaza Vaşakmadze ilə görüşüb.

Görüşdə iki ölkə arasında dini, mədəni və humanitar sahələrdə əlaqələrin inkişaf perspektivləri müzakirə olunub.

Sonda iki qurum arasında əməkdaşlığa dair memorandum imzalanıb.

Sonra DQİDK-ın sədri Mübariz Qurbanlının rəhbərlik etdiyi nümayəndə heyəti Gürcüstana səfər çərçivəsində Tbilisidəki Cümə məscidində olub.

Mübariz Qurbanlı, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev və nümayəndə heyətinin üzvləri Gürcüstan Müsəlmanlar İdarəsinin (GMİ) din xadimləri ilə görüşüb, məscidə “Qurani-Kərim” və digər dini kitablar hədiyyə ediblər.

GMİ-nin sədri hacı Ramin İgidov Gürcüstanda dini qurumların, xüsusən də islam dini icmasının fəaliyyəti barədə ətraflı məlumat verib.

Mübariz Qurbanlı deyib ki, Azərbaycan dövləti Gürcüstanda yaşayan soydaşlarımıza daim diqqət və qayğı göstərir. İslam dini icması da bu qayğıdan kənarda qalmayıb.

Elə həmin gün Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidəki Heydər Əliyev Parkında ulu öndərin abidəsini ziyarət edib, abidə önünə əklil qoyub, ümummilli liderin xatirəsini ehtiramla anıblar. DQİDK sədri, həmçinin Tbilisidəki Qəhrəmanlar Meydanında Gürcüstanın ərazi bütövlüyü uğrunda həlak olmuş qəhrəmanların xatirəsini yad edib, abidə önünə əklil qoyub.

Azərbaycan nümayəndə heyətinin üzvləri Tbilisidəki Botanika bağında azərbaycanlıların panteonunu da ziyarət ediblər.

***

Gürcüstanda səfərdə olan Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı sentyabrın 26-da Tbilisidəki M.F.Axundzadə adına Azərbaycan Mədəniyyəti Muzeyini ziyarət edib.

Muzeyin elmi işçisi Leyla Əliyeva nümayəndə heyətinə M.F.Axundzadənin həyat və fəaliyyəti, muzeydə saxlanılan Azərbaycan mədəniyyətinin, incəsənətinin, ədəbiyyatının nümunələri, burada yaradılan digər guşələr, eləcə də muzeydə Azərbaycan mədəniyyətinin, dilinin təbliği, tədrisi ilə bağlı təşkil olunan kurslar barədə ətraflı məlumat verib.

M.Qurbanlı muzeyə Qurani Kərim və digər qiymətli kitablar hədiyyə edib.

***XQ***

**27 Sentyabr Azərbaycanda Anım Günüdür**

# Ölməzlik qazananların məkanı ürəklərdir

**Məlum məsələdir ki, Azərbaycan tarixində çox müharibələr olub. O da məlumdur ki, yüzlərlə insan öz Vətəni, dövləti, xalqı naminə aparılan müharibələrdə qəhrəmanlıq, şücaət göstərib. Babəkin, Şah İsmayılın, Azərbaycanın birliyinə nail olmaq üçün xanlıqların birləşdirilməsinə çalışan, yadellilərin istilasına qarşı vuruşan qəhrəmanlarımızın yanında nə qədər mərd, cəsarətli, ölümün gözünə dik baxan, “təki Vətən sağ olsun!”- deməyi bacaran soydaşlarımız olub. Çox təəssüf ki, onların böyük əksəriyyətinin ömür tarixçəsini vərəqləmək mümkün deyil.**



Ancaq İkinci Qarabağ müharibəsinin iştirakçıları, qəhrəmanları, şəhidləri və qaziləri xoşbəxtdirlər ki, biz onların hamısının nəinki adını, hətta tərcümeyi-halını, döyüş yolunu yaxşı bilirik. Onlar təkcə bizim müasirlərimiz olduğuna görə deyil, həm də mümkünsüz olanı mümkünə çevirdiklərinə, dünyanın hər yerində himayədarı, qəyyumu, təəssübkeşi olan Ermənistanın iki yüz il davam edən fitnə-fəsad torlarını darmadağın etdiklərinə, torpaqlarımızın işğalda qaldığı otuz ildə bütün şəhər və kəndlərimizi müdafiə istehkamlarına yazdıqlarına görə ürəyimizdədirlər və milyonlarla insanın yaddaşına yazılıblar.

Möhtərəm Prezidentimiz, Azərbaycan Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı İlham Əliyevin qeyd etdiyi kimi, qəhrəman şəhidlərimiz yeni dastan yaradıblar. Dövlət başçımız ölkəmizdə keçirilən ilk Anım Günündə – 2021-ci il sentyabrın 27-də xalqa müraciət edərkən demişdi: “Əziz həmvətənlər, Anım Günündə bütün şəhidlərimizin xatirəsi qarşısında, Birinci və İkinci Qarabağ müharibələrinin şəhidlərinin ruhu qarşısında bir daha baş əyir, onlara Allahdan rəhmət diləyirəm. Onların yaxınlarına, qohumlarına deyirəm ki, mən demişdim, onların qanı yerdə qalmayacaq və qalmadı. Biz onların qanını aldıq! Mən demişdim ki, biz onların qisasını döyüş meydanında alacağıq, belə də oldu. Bu Qələbəni bizə bəxş edən qəhrəman əsgər və zabitlərimiz bizim qürur mənbəyimizdir. Onların qəhrəmanlığı, onların şücaəti, fədakarlığı artıq dastana çevrilib”.

Anım Günü Prezident İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli Sərəncamına əsasən təsis edilmişdir. Anım Günü Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarından keçmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiramın ifadəsidir.

Bu il Anım Günündə şəhidlərimizin xatirəsini ehtiramla anarkən sentyabrın 19-da həyata keçirilən və uğurla başa çatan lokal xarakterli antiterror tədbirlərində ordumuzun qüdrəti, qəhrəmanlığı, fədakarlığı xüsusi qürurla qeyd olunur. Doğrudur, bu əməliyyatlar zamanı itkilər olmuşdur. Lakin cənab Prezidentin vurğuladığı kimi, əgər üç il bundan əvvəl İkinci Qarabağ müharibəsi nəticəsində biz işğala son qoymuşduqsa, bu il aprelin 23-də Laçın istiqamətində Azərbaycan–Ermənistan sərhədində sərhəd-buraxılış məntəqəsini qoymaqla ərazi bütövlüyümüzü tam bərpa etmişdiksə, 24 saat ərzində, ondan da az müddətdə həyata keçirilən antiterror tədbirləri nəticəsində Azərbaycan öz dövlət suverenliyini tam təmin etmişdir.

Respublikamızın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın şəhidlərimizin xatirəsinin əbədiləşdirilməsi, şəhid ailələrinin, qazilərin hərtərəfli qayğı ilə əhatə olunmasına xüsusi qayğısı, onun rəhbərlik etdiyi Heydər Əliyev Fondunun bu istiqamətdə həyata keçirdiyi genişmiqyaslı tədbirlər xüsusi qeyd olunmalıdır.

Mehriban xanım Əliyeva şəhidlərimizə hörmət və ehtiramının ifadəsi olaraq qeyd etmişdir: “Azərbaycan xalqının igid oğulları Zəfər naminə, Azərbaycanın gələcəyi naminə canlarından keçib. Onların hər biri əsl qəhrəman, rəşadət və qorxmazlıq nümunəsidir... Şəhidlərimizin qanı nahaq yerə tökülmədi – biz tarixi ədaləti bərpa etdik, müqəddəs Qələbə qazandıq. Bu Qələbə xalqımızın tarixinə əbədi həkk olundu. Hər birimiz bu Zəfərin nəyin bahasına qazanıldığını yadda saxlamağa borcluyuq. Biz Vətən müharibəsi şəhidlərini heç vaxt unutmayacağıq. Onlar bizim qəlbimizdə daim yaşayacaq”.

Anım Günü ilə bağlı başda cənab Prezident və Mehriban xanım olmaqla, keçirilmiş ümumxalq yürüşü İkinci Qarabağ müharibəsində şəhid olmuş bütün oğul və qızlarımızın əziz xatirəsinə xalqımızın əbədi ehtiramının təzahürü olmuşdur.

27 sentyabr – Anım Günündə hər birimiz torpaq, Vətən uğrunda canını fəda etmiş bütün şəhidlərimizin əziz xatirəsini ehtiramla anır, Allahdan rəhmət diləyirik!

***Nəsimi ƏFƏNDİYEV,***
***Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin baş eksperti***

## Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində 2023-cü ilin oktyabr ayında vətəndaşların qəbulu cədvəli

| *Qəbulu aparan şəxs* | *Qəbul günü* |
|---|---|
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hərbi məsələlər şöbəsinin müdiri**<br>Əliyev Məhərrəm Abış oğlu | 2 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Ərazi-təşkilat məsələləri şöbəsinin müdiri**<br>Nağdəliyev Zeynal Səfər oğlu | 3 |
| **Azərbaycan Respublikası Prezidentinin mətbuat katibi**<br>Qasımov Azər Məhəmməd oğlu | 4 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Humanitar siyasət, diaspor, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri**<br>Əliyeva Fərəh Şirməmməd qızı | 5 |
| **Azərbaycan Respublikası Birinci vitse-prezidentinin Katibliyinin rəisi**<br>Həsənov Altay Tofiq oğlu | 6,13,20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri**<br>Ələsgərov Fuad Murtuz oğlu | 6,20 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət nəzarəti məsələləri şöbəsinin müdiri**<br>Həsənov Kərəm Əvəz oğlu | 9 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi siyasət və sənaye məsələləri şöbəsinin müdiri**<br>Əmirov Natiq Ərziman oğlu | 10 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Gənclər siyasəti və idman məsələləri şöbəsinin müdiri**<br>Məmmədəliyev Yusuf Ülfət oğlu | 11 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Xarici siyasət məsələləri şöbəsinin müdiri**<br>Hacıyev Hikmət Fərhad oğlu | 12 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Dövlət qulluğu və kadr məsələləri şöbəsinin müdiri**<br>Məcidov Tələt Tahir oğlu | 13 |
| **Azərbaycan Respublikası Prezidentinin köməkçisi –<br>Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>İqtisadi məsələlər və innovativ inkişaf siyasəti şöbəsinin müdiri**<br>Mövsümov Şahmar Arif oğlu | 16 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Vətəndaşların müraciətləri ilə iş şöbəsinin müdiri**<br>İsmayılov Süleyman Abbas oğlu | 17 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Hüquq-mühafizə orqanları ilə iş şöbəsinin Əfv məsələləri sektoru** | 18 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qeyri-hökumət təşkilatları ilə iş və kommunikasiya şöbəsi** | 19 |
| **Azərbaycan Respublikası Prezidentinin Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla)<br>xüsusi nümayəndəsi**<br>Hüseynov Emin Zamin oğlu | 23 |
| **Azərbaycan Respublikası Prezidentinin Şuşa rayonunda xüsusi nümayəndəsi**<br>Kərimov Aydın Zöhrab oğlu | 24 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna<br>daxil olan Laçın rayonunda xüsusi nümayəndəsi**<br>Məmmədov Məsim Əhməd oğlu | 25 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri**<br>Vəliyev Ədalət Məqsəd oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidentinin Şərqi Zəngəzur iqtisadi rayonuna<br>daxil olan Cəbrayıl, Qubadlı və Zəngilan rayonlarında xüsusi nümayəndəsi**<br>Hacıyev Vahid Rasim oğlu | 26 |
| **Azərbaycan Respublikası Prezidenti Administrasiyasının<br>Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri**<br>Kərimov Gündüz Hacı oğlu | 27 |
| * * * | |
| **Azərbaycan Respublikasının Təhlükəsizlik Şurası<br>Azərbaycan Respublikasının Təhlükəsizlik Şurasının katibi**<br>Usubov Ramil İdris oğlu | 27 |

**Qeyd: Vətəndaşlar Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzində qəbul olunurlar.**
**Ünvan: Bakı şəhəri, Nərimanov rayonu, Zaur Nudirəliyev,79.**
**Qəbula yazılış qəbul gününə ən geci 1 iş günü qalmış dayandırılır.**
**Qəbul saat 14:00-dan başlayır.**
**Əlaqə üçün: Çağrı Mərkəzi – 1111.**

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin oktyabr ayında şəhər və rayonlarda keçiriləcək vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri**<br>Qoşqar Təhməzli | **Quba** | Quba, Qusar, Xaçmaz, Şabran, Siyəzən | **02** |
| 2. | **Gənclər və idman naziri**<br>Fərid Qayıbov | **Masallı** | Masallı, Yardımlı | **03** |
| 3. | **Ekologiya və təbii sərvətlər naziri**<br>Muxtar Babayev | **Xaçmaz** | Xaçmaz, Şabran | **06** |
| 4. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri**<br>Rəşad Nəbiyev | **Zaqatala** | Zaqatala, Şəki, Qax, Balakən | **09** |
| 5. | **Baş prokuror**<br>Kamran Əliyev | **Gəncə** | Gəncə | **10** |
| 6. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri**<br>Mübariz Qurbanlı | **Masallı** | Masallı, Cəlilabad, Yardımlı | **10** |
| 7. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Şəki** | Şəki, Qax | **11** |
| 8. | **“Azəriqaz” İstehsalat Birliyinin baş direktoru**<br>Ruslan Əliyev | **Göygöl** | Göygöl, Daşkəsən | **13** |
| 9. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri**<br>Anar Quliyev | **Ağcabədi** | Ağcabədi, Ağdam, Laçın | **19** |
| 10. | **Ədliyyə naziri**<br>Fikrət Məmmədov | **Şəki** | Şəki, Qax, Oğuz | **20** |
| 11. | **İqtisadiyyat naziri**<br>Mikayıl Cabbarov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **20** |
| 12. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri**<br>Saleh Məmmədov | **Hacıqabul** | Hacıqabul, Şirvan | **20** |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri**<br>Zaur Mikayılov | **Qəbələ** | Qəbələ, Oğuz | **20** |
| 14. | **“Azərişıq” ASC-nin sədri**<br>Vüqar Əhmədov | **Göyçay** | Göyçay, Ağsu | **24** |
| 15. | **Daxili işlər naziri**<br>Vilayət Eyvazov | **Ağcabədi** | Ağcabədi, Ağdam, Bərdə, Zərdab, Laçın | **25** |
| 16. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri**<br>Rövşən Rzayev | **Oğuz** | Oğuz, Şəki | **25** |
| 17. | **Azərbaycan Respublikasının Məhkəmə-Hüquq Şurasının sədri**<br>İnam Kərimov | **Göygöl** | Göygöl | **26** |
| 18. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri**<br>Bahar Muradova | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **26** |
| 19. | **Elm və təhsil naziri**<br>Emin Əmrullayev | **Şirvan** | Şirvan, Hacıqabul, Salyan, Neftçala, Biləsuvar | **27** |
| 20. | **Energetika naziri**<br>Pərviz Şahbazov | **Füzuli (Horadiz şəhəri)** | Füzuli, Beyləqan, Xocavənd | **27** |
| 21. | **Əmək və əhalinin sosial müdafiəsi naziri**<br>Sahil Babayev | **Mingəçevir** | Mingəçevir, Yevlax | **27** |
| 22. | **Fövqəladə hallar naziri**<br>Kəmaləddin Heydərov | **Tovuz** | Tovuz, Ağstafa, Qazax | **27** |
| 23. | **Kənd təsərrüfatı naziri**<br>Məcnun Məmmədov | **Samux** | Samux, Şəmkir | **27** |
| 24. | **Mədəniyyət naziri**<br>Adil Kərimli | **Sumqayıt** | Sumqayıt, Abşeron, Xızı, Qubadlı | **27** |
| 25. | **Dövlət Gömrük Komitəsinin sədri**<br>Şahin Bağırov | **Xızı** | Xızı, Siyəzən | **27** |
| 26. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi**<br>Mürsəl İbrahimov | **Qazax** | Qazax, Ağstafa, Tovuz, Gədəbəy | **27** |
| 27. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri**<br>Zaur Əliyev | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **27** |
| 28. | **“Azəristiliktəchizat” ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən**<br>İlham Mirzəliyev | **Yevlax** | Yevlax, Ağdaş, Bərdə | **27** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Söyüdlü komissiyasının növbəti iclası



**Sentyabrın 26-da Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun yanında Gədəbəy rayonunun Söyüdlü kəndində vəziyyətin araşdırılması üçün Nazirlər Kabinetinin 2023-cü il 21 iyun tarixli Sərəncamı ilə yaradılmış Komissiyanın növbəti iclası keçirilib.**

Nazirlər Kabinetinin mətbuat xidmətindən bildiriblər ki, iclasda Gədəbəy rayonunun Söyüdlü kəndində fəaliyyət göstərən “Azərbaycan Beynəlxalq Mədən Şirkəti”nin (AIMC) mədən ərazisində ekoloji monitorinqin keçirilməsi, sağlamlıq, ətraf mühit və əməyin mühafizəsi üzrə qiymətləndirilmənin aparılması məqsədilə dəvət olunmuş dağ-mədən sektorunda beynəlxalq təcrübəyə malik Böyük Britaniyanın “Micon” International Co Limited Şirkətinin keçirdiyi monitorinqlərin nəticələrinə dair hesabat və tövsiyələr müzakirə edilib.

Ə.Əsədov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2023-cü ilin altı ayının sosial-iqtisadi yekunlarına həsr olunmuş müşavirədə iyunun 20-də Gədəbəy rayonunun Söyüdlü kəndində yaranmış xoşagəlməz hadisə ilə əlaqədar beynəlxalq şirkət tərəfindən ərazidə monitorinqlərin aparılması, ətraf mühit, təhlükəsizlik və sağlamlıq məsələlərinin qiymətləndirilməsinə dair müvafiq tapşırıq verdiyini bildirib.

Komissiyanın sədri, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev Söyüdlü kəndində tullantıxana sahəsində və ətraf ərazilərdə son iki ay ərzində aparılmış monitorinqlərin nəticələri və bu müddət ərzində görülmüş işlər barədə hesabat verib.

Qeyd edilib ki, əhalini narahat edən məsələlərin həlli istiqamətində verilən tapşırığın təxirəsalınmadan icrası ilə əlaqədar “Micon” International Co Limited Şirkəti” Azərbaycana dəvət olunub və 2023-cü il 25 iyul–1 avqust tarixlərində beynəlxalq şirkətin ekspertləri tərəfindən Gədəbəy mədən sahəsi və ətraf ərazilərdən – Gədəbəy şəhəri, Söyüdlü, Yenikənd, Arıxdam kəndləri və Qumlu yaşayış massivində müstəqil monitorinqlər keçirilib, həmçinin Gədəbəy və Mis çaylarından su, torpaq nümunələri götürülmüş, atmosfer havasında zərərli qazların, eləcə də toz hissəciklərinin konsentrasiyası, radiasiya fonu və səs-küyün səviyyəsi ölçülüb.

Belə ki, Gədəbəy sahəsində 20 nöqtədə yeraltı, 18 nöqtədə yerüstü su nümunələri götürülüb, su keyfiyyəti üzrə monitorinq məlumatları 35 parametr üzrə (suda sianidin miqdarı, ümumi, sərbəst və zəif turşulu mühitdə dissosiasiya olunan miqdarları) təhlil edilib.

Gədəbəy mədən sahəsindən və ətraf ərazilərdən, o cümlədən, tullantı anbarı və boru kəməri dəhlizi ətrafındakı sahələrdən və ətraf yaşayış məntəqələrindən, ümumilikdə, 29 nöqtədən torpaq nümunələri götürülərək 17 parametr üzrə (pH göstəricisi, sulfatlar, kalsium, maqnezium, ümumi sianid, radiasiya və s.) təhlillər həyata keçirilib.

Gədəbəy mədən sahəsi və ətraf yaşayış məntəqələri daxil olmaqla, 8 nöqtədə portativ qaz, toz, səs-küy, vibrasiya və radioaktivliyi ölçən analizatorlar vasitəsilə havanın keyfiyyətinin monitorinqi üzrə ümumilikdə, 32 ölçmə işi yerinə yetirilib.

“Micon” International Co Limited Şirkəti” tərəfindən hazırlanan hesabatda “Azərbaycan Beynəlxalq Mədən Şirkəti”nin sağlamlıq, ətraf mühit, əməyin mühafizəsi və yerli icmalarla əlaqələrin idarə edilməsi məsələlərində fəaliyyətinin çatışmayan tərəflərinin qiymətləndirildiyi diqqətə çatdırılıb.

Bildirilib ki, nümunələrin təhlillərinə əsasən, su obyektlərində bir sıra göstəricilərin normadan artıq olduğu aşkarlanmış, lakin bunun ətraf mühit və insan sağlamlığı üçün təhlükə mənbəyi olmaması müəyyənləşdirilib.

İstehsal və yaşayış sahələrində yeraltı suların monitorinqi zamanı zavod ərazisindəki üç müşahidə quyusunun suyunda kiçik miqdarlarda sianidin olduğu qeydə alınıb. Qeyd olunan göstəricilər yol verilə bilən qatılıq həddindən dəfələrlə aşağı olsa da, bu fakt ətraf mühitə potensial risk kimi nəzərə alına bilər.

Vurğulanıb ki, eyni zamanda, istehsal sahəsi və ətraf ərazilərdən götürülmüş torpaq nümunələrində bir sıra göstəricilərin miqdarı yol verilə bilən qatılıq həddindən çox olub. “Micon” şirkəti bunu regionun filizləşmə xüsusiyyətləri və tarixi mədənçiliyin mövcudluğu ilə izah edib.

Müəssisənin 2016-cı ildə hazırlanmış sianidin idarə edilməsi planı mövcuddur, lakin planın yenilənməsi tövsiyə edilir.

Bildirilib ki, əsas emal müəssisələrində qurğu və avadanlıqların köhnə olduğundan, mədən sahəsinin beynəlxalq standartlara uyğunlaşdırılması üçün istismar, ekoloji, sosial və təhlükəsizlik istiqamətlərində investisiya yatırımı tələb olunur.

Eyni zamanda, ərazidə monitorinqlərin aparıldığı, qeydə alınan risklərin araşdırıldığı və əhalini narahat edən məsələlərlə bağlı təxirəsalınmaz tədbirlərin görülməsi istiqamətində “Azərbaycan Beynəlxalq Mədən Şirkəti” qarşısında insan sağlamlığına, texnogen təhlükəsizliyə, istehsalatın modernləşdirilməsinə aid bir sıra tələblərin qoyulduğu və tövsiyələrin verildiyi qeyd olunub.

“Azərbaycan Beynəlxalq Mədən Şirkəti” ərazidə monitorinq keçirən “Micon” International Co Limited Şirkəti”nin təhlil və tövsiyə xarakterli hesabatı ilə tanış olub və hesabatda göstərilənlərlə razılaşaraq qeyd olunan tövsiyə və tapşırıqların icrası ilə bağlı müvafiq icra qrafiklərinin qısa müddət ərzində hazırlanmasını və təqdim olunmasını öz üzərinə götürüb.

Baş nazir Əli Əsədov yaxın günlərdə Komissiya tərəfindən Gədəbəy şəhəri, Söyüdlü, Yenikənd, Arıxdam kəndləri və Qumlu yaşayış massivinin sakinləri, qeyri-hökumət təşkilatları və media nümayəndələrinin iştirakı ilə görüşün keçirilməsi və əhalini narahat edən məsələlərin həlli, eyni zamanda, görüləcək işlərlə bağlı tapşırıqlar verib.

Müvafiq tövsiyə və tapşırıqlara uyğun olaraq “Azərbaycan Beynəlxalq Mədən Şirkəti” tərəfindən yenidənqurma, modernləşdirilmə ilə bağlı icra qrafiki hazırlanaraq təqdim olunduqdan və aidiyyəti dövlət qurumları ilə razılaşdırıldıqdan sonra zavodun fəaliyyətinin mərhələli şəkildə bərpa olunması təmin edilə bilər.

***XQ***

# 8 ayın iqtisadi hədəfləri təmin edilib

## *Büdcə gəlirləri 3,1 milyard dollar artıb*

**Nazirlər Kabinetinin sentyabrın 23-də dövlət və icmal büdcələrin müzakirəsinə həsr olunan geniş iclasında ölkəmizin iqtisadi inkişaf göstəriciləri barədə ətraflı məlumat verilib. Qeyd edilib ki, cari ilin 8 ayında qeyri-neft sektorunda 2,6 faiz, qeyri-neft sənayesində isə 6 faiz artımın qeydə alınması, bununla bərabər, respublikamızın maliyyə vəziyyətinin əhəmiyyətli dərəcədə yaxşılaşması, strateji valyuta ehtiyatlarının 67 milyard ABŞ dollarına çatması və bu göstəricinin ilin əvvəlindən 14,5 faiz yüksəlməsi iqtisadiyyatın davamlı inkişafını göstərir.**



İclasda hesabat dövrü ərzində xarici ticarət balansının əhəmiyyətli həcmdə müsbət saldosunun yaranması, xarici borcun azalması və büdcə gəlirlərinin yüksək icrası əldə olunan çox müsbət nəticələr kimi dəyərləndirilib. Bildirilib ki, bu uğurlar, dinamik inkişaf dövlət büdcəsinə yenidən baxılmasını şərtləndirib.

Xatırladaq ki, hesabat dövründə – ilin ötən 8 ayında büdcə gəlirləri 3,1 milyard manat və ya 10,1 faiz, büdcə xərcləri isə 3,3 milyard manat və ya 9,8 faiz artıb. Bununla da Azərbaycan Prezidenti tərəfindən müəyyənləşdirilən prioritet xərc istiqamətləri əsasında 2024-cü ildə həyata keçiriləcək tədbir və layihələrin uğurlu icrası üçün büdcədə tələb olunan maliyyə təminatı yaranıb.

Dövlət başçısının son illərdə hökumət qarşısında qoyduğu başlıca tapşırıqlardan biri də bu ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəsinə nail olunmasıdır. Bu məqsədlə Nazirlər Kabinetinin 2023-cü il 15 iyul tarixli sərəncamı ilə "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılan İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması və təhlili istiqamətində zəruri işlər görülməkdədir.

İnflyasiyanın makroiqtisadi və maliyyə sabitliyi üçün xələl gətirməyən həddə qorunması məqsədilə müvafiq tədbirlərin görülməsi diqqətdə saxlanılır. Məhz bu baxımdan ortamüddətli dövrdə də hökumət qarşısında əsas çağırışlardan biri də makroiqtisadi sabitliyin və büdcə dayanıqlığının təmin edilməsinə nail olmaqdır.

Beləliklə, respublikamızda 2022–2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyasının icrası, Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının bərpa və yenidənqurulması, həmçinin Böyük Qayıdışın təmin edilməsi üzrə tədbirlərin davam etdirilməsi, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramının həyata keçirilməsi, ərzaq təhlükəsizliyinin təmin edilməsi və sahibkarlığın inkişafının dəstəklənməsi kimi bu və digər prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasətinin aparılması, makroiqtisadi və büdcə dayanıqlığının təmin edilməsi zərurəti yaranıb.

Qeyd edək ki, yuxarıda vurğulanan uğurların əsası ulu öndərimiz Heydər Əliyevin müəllifi olduğu sosial-iqtisadi inkişaf strategiyasının Prezident İlham Əliyev tərəfindən son 20 ildə sürətlə və uğurla həyata keçirilməsi ilə qoyulub. Bu müddətdə respublikamızda qeyri-neft sektorunun inkişafının təmin olunması, iqtisadiyyatın müxtəlif sahələrinin şaxələndirilməsi, ixrac potensialının artırılması, xarici investisiyanın cəlb edilməsi, biznes və investisiya mühitinin daha da yaxşılaşdırılması istiqamətində bir sıra önəmli layihələr gerçəkləşdirilib. Məsələn, bir az əvvəl xatırlatdığımız strateji valyuta ehtiyatlarının 67 milyard ABŞ dollarına çatması faktı sadalan amillərlə sıx bağlı olub. Ən başlıcası isə bu göstərici dövlət başçısının uzaqgörən siyasətinin, qeyri-neft sektorunun inkişafı istiqamətində aparılan uğurlu islahatların, investisiya mühitinin əlverişliliyinin nəticəsində mümkün olub.

Bu gün respublikamız qarşısında duran prioritet layihələrin maliyyələşdirilməsi üçün yeni borclanma siyasətinin aparılmasına, makroiqtisadi və büdcə dayanıqlığının təmin edilməsinə zərurət yaranmasını şərtləndirən amillər sırasında iqtisadiyyatın şaxələndirilməsi istiqamətində həyata keçirilən tədbirlərin müsbət nəticələri də əhəmiyyətli yer tutur. Məsələn, 2023-cü ilin ilk 6 ayında qeyri–neft–qaz sənayesində artımın neft–qaz sektorundakı artımı üstələməsi, yəni mövcud sahədə əlavə dəyərin 6,5 faiz artması, ümumi halda isə qeyri-neft sektorunda 3 faizdən çox artım müşahidə olunması bunun bariz ifadəsidir.

Şübhəsiz ki, son illər ərzində bu məsələdə, başqa sözlə, qeyri-neft sektorunun şaxələnməsində və inkişafında ardıcıl və sistemli surətdə gerçəkləşdirilən sənayenin inkişafına dair Dövlət Proqramı da əhəmiyyətli rol oynayıb. Bu proqram ənənəvi sənaye sahələri ilə bərabər, yeni iqtisadi sektorlar olan kosmik, müdafiə, gəmiqayırma və alternativ enerji kimi fəaliyyətlərin, eyni zamanda, müasir istehsal infrastrukturuna malik sənaye zonalarının tərəqqisinə əlverişli şərait yaradıb. Bu isə ixrac qabiliyyətinin davamlı şəkildə güclənməsinə, idxalı əvəzləyəcək məhsulların istehsalının artırılmasına gətirib çıxarıb.

Beləliklə, dövlətimizin başçısının qarşıya qoyduğu dayanıqlı iqtisadiyyat və inklüziv cəmiyyət hədəfləri günümüzün reallığına çevrilib. Məhz bunun nəticəsidir ki, 2003-cü ildən başlayaraq ötən zaman ərzində reallaşdırılan strategiya sayəsində milli iqtisadiyyatın real xərci 4 dəfə, ixrac 15,6 dəfə artıb. İqtisadiyyatın orta artım tempi dünya üzrə orta səviyyədən 4 faiz yüksək olub.

Bugünədək sənaye zonalarında ümumi investisiya dəyəri 7,18 milyard manat olmaqla 131 sahibkarlıq subyektinə rezident statusu verilib və onlardan 68-i, yaxud 51,9 faizi istehsal fəaliyyətinə başlayıb. Sənaye zonalarına 6,56 milyard manat investisiya yatırılıb və 10 min 600-dən çox daimi iş yeri açılıb.

Hazırda sənaye zonaları və aqroparklarda iş adamları üçün stimullaşdırıcı biznes və investisiya mühiti yaradılıb. Sənaye parklarında qeydə alınan hər bir rezident 10 il müddətinə əmlak, torpaq, gəlir və ya mənfəət vergilərindən, istehsal məqsədilə idxal etdikləri texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı zamanı ƏDV-dən və 10 il müddətinə gömrük rüsumlarından azad olunub.

Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarında da bərpa prosesi indiyədək sənayeləşmə siyasəti ilə paralel aparılıb. "Ağdam" və "Araz Vadisi İqtisadi Zonası" sənaye parklarında ümumilikdə 20-ə yaxın sənaye müəssisəsi qeydiyyata alınıb. Düşməndən təmizlənən ərazilərdə kənd təsərrüfatının inkişaf məqsədləri üçün 940 fermer təsərrüfatının yaradılması nəzərdə tutulub.

Yeri gəlmişkən, burada bir mühüm məqamı da xatırladaq. Qarabağ və Şərqi Zəngəzurun bərpasını stimullaşdırmaq məqsədilə hazırda işğaldan azad olunan ərazilərimizdə çalışan hər bir vətəndaşımıza artıq 600 manatlıq birdəfəlik müavinət verilir. Bu proses proaktiv qaydada təyin olunur, başqa sözlə, şəxsiyyət vəsiqəsi ilə müraciət kifayət edir. Ümumiyyətlə, bu dəstək düşməndən təmizlənən ərazilərimizdə tətbiq olunan güzəştlərdən biridir.

Bu, onu göstərir ki, Əmək Məcəlləsinə edilən dəyişikliklər ilə işğaldan azad olunan ərazilərimizdə məskunlaşaraq işləyənlər və işəgötürənlər üçün stimullaşdırıcı mexanizmlərin və eləcə də güzəştlərin tətbiqinə artıq başlanılıb.

Sonda qeyd edək ki, bu gün ölkə iqtisadiyyat üçün yeni istiqamətlər formalaşıb. Bu , yeni prioritetlər idxaldan asılılığın azaldılması, qeyri-neft əmtəə və xidmət ixracı həcminin yüksəldilməsi, qeyri-neft emal sənayesinin inkişafının sürətləndirilməsi, biznesin bank kreditlərinə çıxışının genişləndirilməsi, dövlət investisiyalarının iqtisadi səmərəsinin artırılması, özəl investisiyaların dominant rolunun gerçəkləşdirilməsi, kiçik və orta sahibkarlığın iqtisadi artımın başlıca qüvvəsinə çevrilməsi, şəffaflığın yüksəldilməsi və kölgə iqtisadiyyatının səviyyəsinin minimuma endirilməsindən ibarətdir. Yeni məqsədlərə doğru yolda əldə edilən ilkin nəticələr isə müsbətdir.

***V.BAYRAMOV***
***XQ***



# Türk dünyasının aqrar potensialı da böyükdür

**Dünən Bakıda II "Türk Dövlətləri Aqrobiznes Forumu" keçirilib. Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin 2-ci toplantısı çərçivəsində təşkil olunan forumda təşkilata üzv dövlətlərin və müşahidəçi ölkələrin hökumət üzvləri, dövlət qurumlarının və aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri iştirak ediblər.**

İclası giriş sözü ilə açan Azərbaycanın kənd təsərrüfatı naziri Məcnun Məmmədov ölkədə aqrar sahədə aparılan islahatlar və gələcək hədəflər barədə tədbir iştirakçılarına məlumat verib. Aqrar sahədə məhsuldarlığın daha da artırılmasını, iqlimə uyğun, yaşıl və rəqəmsal kənd təsərrüfatının yaradılmasını, eləcə də ixrac məhsullarını və onların coğrafiyasının şaxələndirilməsini bu sahənin dayanıqlı inkişafının əsas prinsipləri kimi xarakterizə edən nazir türk dövlətlərinin dünya miqyasında böyük iqtisadi gücə malik olduğunu diqqətə çatdırıb.

Azərbaycan Prezidenti İlham Əliyevin işğaldan azad olunan ərazilərimizi "yaşıl enerji zonası" elan etdiyini bildirən nazir Məcnun Məmmədov bu ərazilərin böyük aqrar potensialından söhbət açıb. Onun sözlərinə görə, hazırda əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə əkinə yararlı torpaqları minalardan təmizləyərək xəstəliklərdən azad, rəqəmsal və ən müasir təcrübə və texnologiyalara əsaslanan dayanıqlı kənd təsərrüfatı sistemi qurmaqdır. Nazir Türk Dövlətləri Təşkilatının ölkələrinin iş adamlarını Qarabağ və Şərqi Zəngəzur iqtisadi zonalarında investisiya imkanları ilə tanış olmağa və burada ən yaxşı təcrübələr və texnologiyaları tətbiq etməyə çağırıb. O, həmçinin iş adamlarını xüsusi investisiya güzəştləri təklif edən yeni yaradılmış Ələt İqtisadi Zonasında beynəlxalq ixrac standartlarına cavab verən və müasir texnologiyalarla təchiz olunan TDT-nin brendinə çevriləcək birgə müəssisələrin yaratmaq imkanlarını da nəzərdən keçirməyə dəvət edib.

Tədbirdə çıxış edən TDT Baş katibi Kubanıçbek Ömüralıyev təşkilata üzv ölkələrin kənd təsərrüfatı sahəsində mövcud vəziyyət və aqrar potensial barədə məlumat verib. Qeyd olunub ki, üzv ölkələrin nəqliyyat infrastrukturu və aqrar potensialından səmərəli istifadə iqtisadi inkişaf və ərzaq təhlükəsizliyinə mühüm töhfə verəcək. Baş katib müasir çağırışlar fonunda mövcud çətinliklərin həlli üçün yol xəritələrinin hazırlanması və əməkdaşlığın genişləndirilməsinin vacib olduğunu, TDT üzvləri arasında olan strateji tərəfdaşlığın önəmli investisiyalara çevriləcəyinə inandığını bəyan edib.

Sonra Türkiyənin kənd təsərrüfatı və meşə naziri İbrahim Yumaklı, Özbəkistanın kənd təsərrüfatı naziri Əziz Voitov çıxış edərək TDT-ni üzv ölkələr arasında kənd təsərrüfatı, qida, infrastruktur, nəqliyyat sahələrində əməkdaşlığı genişləndirən mühüm bir platforma kimi dəyərləndiriblər. Qırğızıstanın kənd təsərrüfatı nazirinin birinci müavini Murat Ramatov, Qazaxıstanın kənd təsərrüfatı nazirinin müavini Abilxayir Tamabek, Şimali Kipr Türk Respublikasının kənd təsərrüfatı və təbii sərvətlər naziri Hüseyn Çavuş, Azərbaycan Nazirlər Kabinetinin Aqrar və ekologiya şöbəsinin müdiri Lətif Qasımov, Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev isə çıxışlarında bu tədbirin üzv dövlətlər arasında aqrar sahədə əməkdaşlığın yeni istiqamətlərinin formalaşmasına, yeni investisiya imkanlarının təşviqinə və iş adamları arasında əlaqələrin güclənməsinə xidmət edəcəyini vurğulayıblar. Qeyd olunub ki, üzv ölkələrin elmi-texnoloji, iqtisadi potensialı dayanıq inkişafa və ixrac coğrafiyasını genişləndirməklə qlobal bazarlara çatdırılmasına imkan verir.

Daha sonra II Türk Dövlətləri Aqrobiznes Forumu çərçivəsində Türk Dövlətləri Təşkilatına üzv ölkələrin aqrar sahə üzrə ixtisaslaşmış şirkətlərinin nümayəndələri arasında ikitərəfli görüşlər keçirilib.

Xatırladaq ki, Azərbaycan tərəfinin təşəbbüsü ilə yaradılan və digər dost və qardaş üzv-dövlətlər tərəfindən dəstəklənən Türk Dövlətləri Təşkilatının Kənd Təsərrüfatı Nazirlərinin ilk toplantısı Özbəkistanda keçirilib.

***M.YAQUBZADƏ***
***XQ***

# Bakıda ilk elektrik avtobusu xidmətə başladı



**Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin məlumatına görə, ölkəmizin ilk elektrik mühərrikli avtobusu Bakıda fəaliyyətə başlayıb.**

Bildirilib ki, elektrobusun marşrut xətti "20-ci sahə"– "Nəriman Nərimanov" metrostansiyası istiqamətini əhatə edir.

Salonda 33 sərnişin oturacağı var, ümumi sərnişin tutumu 82 nəfərdir. Tam doldurulduqda avtobus 350 kilometr məsafə qət edə bilir. Avtomobil müasir sərnişindaşıma tələblərinə tam cavab verir.

# 693 milyon manatlıq Azərbaycan metalı



**Dövlət Statistika Komitəsinin məlumatına görə, metallurgiya sənayesi və hazır metal məmulatlarının istehsalı sahələrində cari ilin 8 ayı ərzində 693 milyon manatlıq məhsul istehsal olunub.**

Hesabat dövründə hazır metal məmulatlarının istehsalı sahəsində 17 faiz artım müşahidə edilib. Metaldan digər məmulatların istehsalı isə 56,7 faiz artıb.

***XQ***

# 26,3 milyard dollarlıq xarici ticarət



**Cari ilin yanvar–iyul aylarında Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri dünyanın 190 ölkəsindəki tərəfdaşları ilə ticarət əməliyyatları həyata keçirib, 111 ölkəyə məhsul ixrac olunub, 181 ölkədən idxal edilib.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin 7 ayında xarici ticarət dövriyyəsi 26 milyard 333 milyon dollar, o cümlədən ixracın dəyəri 16 milyard 777 milyon dollar, idxalın dəyəri 9 milyard 557 milyon dollar təşkil edib, nəticədə 7 milyard 220 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Ötən ilin yanvar-iyul ayları ilə müqayisədə xarici ticarət dövriyyəsi real ifadədə 1,4 faiz, idxal isə real ifadədə 8 faiz artıb.

Dövlət Gömrük Komitəsindən daxil olmuş məlumatlara əsasən, xarici ticarət dövriyyəsinin 92,5 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, Yunanıstan, İsrail, Hindistan, İspaniya, Çexiya, Türkmənistan, Gürcüstan, Rumıniya, Fransa, İrlandiya, Xorvatiya, Birləşmiş Krallıq, ABŞ, İran, Vyetnam, Yaponiya, Qazaxıstan, Koreya və Bolqarıstan ilə aparılmış ticarət əməliyyatlarının payına düşüb.

***XQ***

**Azərbaycanda bu ilin sonuna qədər inflyasiyanın birrəqəmli səviyyəsinə endirilməsi gözlənilir. Bu barədə Azərbaycanın 2024-cü il və sonrakı üç il üzrə sosial-iqtisadi inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsinə həsr olunmuş Nazirlər Kabinetinin geniş iclasında bildirilib. Qeyd edilib ki, buna nail olunması dövlət başçısının hökumət qarşısında qoyduğu başlıca tapşırıqlardan biridir.**

# Birrəqəmli inflyasiyaya doğru



Qarşıya qoyulan məqsədə nail olmaq üçün Nazirlər Kabinetinin 2023-cü il 15 iyul tarixli sərəncamı ilə "İnflyasiya və qiymət monitorinqi" üzrə yaradılmış İşçi qrup tərəfindən inflyasiya proseslərinin və onun səbəblərinin araşdırılması, habelə təhlili istiqamətində zəruri tədbirlər həyata keçirilir.

Xatırladaq ki, İqtisadiyyat Nazirliyi 2024-cü ildə orta illik inflyasiyanın 5,3 faizə qədər azalmasını gözləyir. 2025-ci ildə orta illik inflyasiya 4,9 faiz, 2026-cı ildə 4,4 faiz, 2027-ci ildə 4,2 faiz səviyyəsində proqnozlaşdırılır. Bu ilin yanvar-avqust aylarında Azərbaycanda inflyasiya 11,7 faiz səviyyəsində qeydə alınıb.

***XQ***

Zəfər təqvimi

# Qələbə müjdəli Vətən savaşı

**30 illik qara tunelin bu başında gur işıq. Bu, xain düşmənin 30 il işğal altında saxlayıb son daşınadək qarət və talan edərək cəhənnəmə çevirdiyi cənnət Qarabağın xilas yoluna düşən Azadlıq günəşi idi. Beləliklə, 30 il gözlədiyimiz Gün – Zəfər marafonunun başlanğıcı olan 27 sentyabr 2020-ci il Qarabağın qara taleyinə günəş kimi doğuldu.**

***Müsahibimiz Milli Müdafiə Universiteti Hərbi-Elmi Tədqiqat İnstitutunun professoru, tarix elmləri doktoru Mehman Süleymanovla söhbətə məhz bu duyğu-düşüncələrlə başladıq.***

– 3 il əvvəlin bu günündən bizi, sanki, heç 3 gün də ayırmır. 30 il gözlədiyimiz həmin gün və onun 44 günlük davamı ötən 3 ildə həmişə bizimlə olub. Elə bugünlərdə Qarabağda gerçəkləşdirilmiş antiterror tədbirləri də həmin 44 günün davamı kimi qəbul edildi. Bir sözlə, 3 ildir ki, hər gün əvvəlki 30 ilin acısını əritməkdə olan Zəfərin şirinliyini dadmaqdayıq.

– Siz 27 senntyabr 2020-ci ili bir publisist kimi mənalandırdınız. Mən isə bir hərbi tarixçi kimi deyirəm: 2020-ci il sentyabr ayının 27-də Azərbaycanın müstəqillik və dövlətçilik tarixinin yeni bir səhifəsi açıldı. Həmin gündən etibarən xalqımız Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında dəmir yumruğa çevrilərək Vətən müharibəsinə qalxdı, təxminən, 30 il davam edən erməni işğalına son qoyulması üçün azadlıq mübarizəsinə qoşuldu. Qərbin ermənipərəst dövlətləri və qüvvələri tərəfindən himayə olunan və onların siyasi, mənəvi və hərbi dəstəyi ilə ən adi beynəlxalq normaları ayaq altına alan erməni faşizminə müharibənin elə ilk günündə sarsıdıcı zərbə vuruldu.

Ermənistan tərəfindən Azərbaycana qarşı 2020-ci il sentyabr ayının 27-də növbəti dəfə qəfil irimiqyaslı təcavüzə qərar verilsə də, əslində, bu təxribat gözlənilən idi. Çünki son iki ildə Ermənistan rəhbərliyinin Azərbaycana qarşı apardığı davakar və hədələyici siyasət bunu deməyə əsas verirdi. Belə ki, Azərbaycan tor paqlarının işğalının rəsmiləşdirilməsi və zorla qəbul etdirilməsi üçün Ermənistan rəhbərliyi hər cür təxribatlara əl atırdı.

Ermənistan rəhbərliyi isə edilən xəbərdarlıqlara qulaq asmadı və 2020-ci il sentyabr ayının 27-də qarşıya qoyduğu məqsədə çatmaq üçün yenidən hərbi təxribat yolunu tutdu. Həmin gün səhər tezdən Tərtər rayonunun Qapanlı, Ağdamın Çıraqlı və Orta Qərvənd, Füzulinin Alxanlı, Şükürbəyli və Cəbrayılın Cocuq Mərcanlı kəndləri iriçaplı silahlardan atəşə tutuldu. Nəticədə, mülki əhali arasında dünyasını dəyişənlər və yaralananlar oldu. Adları çəkilən rayonlardakı infrastruktur obyektlərinə ciddi ziyan dəydi.

Azərbaycan Ordusunun ön xətt bölmələri düşmənin bu təxribatının qarşısını almaq və qoşunların qarşıdurma xəttinə yaxın zonalarda yaşayan mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə sentyabr ayının 27-də səhər saat 6.00-dan etibarən cavab tədbirləri görməyə başladı. Qoşun bölmələri düşmənə layiqli cavab vermək üçün başlanğıc vəziyyətə gətirildilər. Erməni hərbi təxribatının miqyası və xarakteri qiymətləndirildikdən sonra təmas xətti boyunca yerləşən hərbi qüvvələrə 7.30-dan etibarən kütləvi zərbə endirilməsi əmri verildi. Əlavə olaraq raket-artilleriya və aviasiya qüvvələri düşmənə sarsıdıcı zərbə vurulmasına cəlb olundu.

Bu qüvvələrin qarşısında düşmən müdafiəsinin dərinliklərində yerləşən hərbi obyektlərə və hərbi qüvvələrə ağır zərbə vurulması tapşırığı qoyuldu. Bununla, Ermənistanın hərbi təxribatlarının qarşısının alın ması üçün başlanan əks-hücum əməliyyatının ilk mərhələsinin başlanğıcı qoyuldu. Bütünlükdə, üç mərhələdə yekunlaşan bu müharibənin ilk mərhələsində Azərbaycanın hərbi qüvvələri qarşısında dayanan vəzifələr əks-hücum əməliyyatının hazırlanması, ilk eşelonda yerləşən Azərbaycan qüvvələrinin müdafiəsinin dayanıqlığına nail olunması, düşmənə kütləvi atəş zərbəsinin endirilməsi, əks-hücum üçün başlanğıc vəziyyətin tutulması, əsas qüvvələrin hücuma keçməsinin təmin edilməsi, düşmənin birinci eşalonda yerləşmiş qüvvələrin müdafiəsinin yarılması və digərləri idi.

**– Əsgər və zabitlərimiz ilk gündən yalnız irəli getdilər. Qəhrəman oğullar atəşləri yarıb keçdilər, cəhənnimin üstündən ötdülər. 44 gündə bir nəfər də fərari olmadı. Düşmən isə qoşun-qoşun məğlub oldu, qaçmağa üz qoydu. Azərbaycan Ordusu tarixin ən mükəmməl savaşını apardı.**

– Çünki bu əsl Vətən savaşı, Haqq döyüşü idi. Ölkəmiz bu müharibəyə hərtərəfli hazırlıq görmüşdü, üstəlik, xalqın 30 illik intiqam enerjisi toplanmışdı. Elə həmin gün də Ermənistanın Azərbaycana qarşı irimiqyaslı hərbi təxribatının başlanması ilə əlaqədar İlham Əliyevin rəhbərliyi altında ölkənin Təhlükəsizlik Şurasının iclası çağırıldı. Bu iclasdakı proqram xarakterli çıxışı zamanı İlham Əliyev Ali Baş Komandan kimi erməni hərbi təxribatlarının qarşısının alınması üçün irəlidə hansı vəzifələrin dayandığını müəyyənləşdirdi və onu bütün xalqa çatdırdı. Həmin vəzifələr, əslində, bəlli hədəfləri ifadə edirdi – Ermənistanın Azərbaycana qarşı işğalına son qoymaq, respublikanın ərazi bütövlüyünü təmin etmək və qaçqın və köçkünləri öz yurdlarına döndərmək. Ali Baş Komandan müharibədə ölkəmizin qələbəsinə qəti inamını belə ifadə etdi: “Mən əminəm ki, bizim uğurlu əks-hücum əməliyyatımız işğala son qoyacaqdır! Ədalətsizliyə son qoyacaqdır! Otuz ilə yaxın da vam edən işğala son qoyacaqdır! Çünki Azərbaycan xalqı öz torpağında yaşamaq istəyir. Azərbaycan vətəndaşı Vətən həsrəti ilə yaşayır. Mən müxtəlif dövrlərdə dəfələrlə demişəm ki, bizə bu məsələnin, bu münaqişənin yarımçıq həlli lazım deyil. Biz öz torpağımızdayıq, bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı heç kimə verən deyilik”.

Bu müharibə bütün parametrlərinə görə Azərbaycan üçün Vətən müharibəsi oldu. Beynəlxalq hüquq normalarına, Dağ lıq Qarabağ münaqişəsinin nizamlanması ilə bağlı BMT Təhlükəsizlik Şurasının hələ 1993-cü ildə qəbul etdiyi dörd qətnamənin tələblərinə məhəl qoymayan Ermənistan üçün isə bu müharibə işğalçılıq siyasətinin davamı idi. Vətən müharibəsinin başlanması ilə Ali Baş Komandan kimi İlham Əliyev əməliyyatların planlaşdırılmasını, əməliyyat istiqamətlərinin müəyyənləşdirilməsini, respublikanın hərbi gücünün cəbhəyə səfərbər olunmasına rəhbərliyi, siyasi-diplomatik fəaliyyətin müharibənin tələbləri üzərində qurulmasının təşkilatçılığını, uyğun informasiya mühitinin formalaşdırılmasının təşəbbüskarlığını öz üzərinə götürdü.

**– İlk gün xalqımıza ilk qələbəsini qazandırdı. Düşmən geri oturdulmağa başladı, xalqımız Zəfər əhvalına kökləndi.**

– Günün birinci yarısında artıq bəzi istiqamətlərdən erməni silahlı qüvvələrinin müdafiə xətləri yarıldı. Nəticədə, Füzuli rayonunun Qaraxanbəyli, Qərvənd, kənd Horadiz, Yuxarı Əbdürrəhmanlı, Cəbrayıl rayonunun Böyük Mərcanlı, Nüzgar kəndləri, günün ikinci yarısında isə Murov dağ silsiləsində Murov zirvəsi erməni işğalından azad edildi. Murov zirvəsinin azad edilməsi ilə Ağdərə–Vardenis avtomobil yolu Azərbaycan Ordusunun nəzarəti altına düşdü. Adları çəkilən yaşayış məntəqələri Vətən müharibəsinin gedişində azadlığına qovuşmuş ilk yaşayış məntəqələri oldular. Bu məntəqələrin azad edilməsindən əlavə, gün ərzində erməni hərbi qüvvələrinin atəş mövqelərinə və hərbi texnikasına da sarsıdıcı zərbə endirildi.

Müharibənin elə ilk gününün nəticələri göstərdi ki, güclü olması haqqında yalan çı mif yaradılmış quldurlaşmış Ermənistan ordusu Azərbaycan Silahlı Qüvvələrinin qüdrəti qarşısında gücsüz və acizdir. Mütəxəssislər də qeyd edirdilər ki, öz gücünə yersiz arxayınçılığa varmış Ermənistan ordusu yeni başlanan müharibədə XX əsrin 90-cı illərinin hərbi taktikasına istinad edirdisə, Azərbaycan XXI əsrin müharibəsinin aparılmasına qadir olduğunu nümayiş etdirdi.

Sentyabr ayının 27-dən başlayaraq Azərbaycan Ordusunun müzəffər yürüşünün başlanğıcı qoyuldu və həmin gündən başlayaraq Azərbaycanın hərbi qüvvələri hər gün yeni-yeni Vətən torpağının azad edilməsinin böyük sevincini Azərbaycan xalqına yaşatdı.



Bu hünəri müzəffər Ali Baş Komandan belə dəyərləndirirdi: “Hər gün biz irəliyə gedirdik, 44 gün ərzində bir gün də olmayıb ki, biz geri çəkilək. Bir gün də olmayıb ki, hansısa məsələni biz həll etməyək. Hər gün səhər mənim tərəfimdən hər günün döyüş-əməliyyat planı təsdiq edilirdi, günün sonunda da təhlil olunurdu. Biz bunun nəticəsində qısa müddət ərzində böyük Qələbə qazana bilmişik, öz doğma torpaqlarımızı düşməndən azad edə bilmişik”.

Bu böyük Zəfər Azərbaycan ordusunun, Azərbaycan xalqının və onun Ali Baş Komandanı İlham Əliyevin əzmkar və yaradıcı qətiyyətinin qələbəsi idi. İlham Əliyev Vətən müharibəsinin elə ilk günündən başlayaraq Vətən müharibəsinə rəhbərlikdə yeni bir təfəkkür və yanaşma ortaya qoydu, mövcud olan reallıqların sərt çərçivəsini sındıraraq, Azərbaycan xalqının arzusunda olduğu bir zəfərin memarına çevrildi. 2020-ci il sentyabr ayının 27-də başlanan Vətən müharibəsi, təxminən 30 il erməni işğalı altında qalan Qarabağı və onun ətrafını yenidən Azərbaycana qaytardı, haqq öz yerini tutdu. Azərbaycan xalqı özünün çoxəsrlik tarixinə yeni və şərəfli bir səhifə yazdı və bununla Azərbaycan dünyanın qalib xalqlarından birinə çevrildi. Tarixi zəfərin 3-cü ildönümünə isə xalqımız Qarabağda suverenliyinin tam bərpası ilə gəldi.

**– Maraqlı müsahibə üçün sağ olun.**

***Söhbəti hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Tariximizin ən şərəfli müharibəsi

**3 il bundan öncə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə başlanan və 44 gündə Zəfərlə bitən yolun hələ uzun müddət dərkinə çalışmalıyıq. Bu hadisə özlüyündə o dərəcədə əhəmiyyətli və çoxaspektlidir ki, insanların onları tam anlamasına ehtiyac var. Əslində, vurğulanan təqvim Azərbaycan dövlətçilik tarixinin ən şanlı səhifələrindəndir. XXI əsrdə başqa heç bir dövlət bu dərəcədə uğur əldə edə bilməyib. Burada həm Azərbaycan dövlətinin inkişaf dinamikası, həm xalqımızın öz rəhbəri ətrafında sıx birləşməsi, həm də Azərbaycan əsgərinin peşəkarlığı və şücaəti birləşib! Bunlar birlikdə şəhidlərimizin müqəddəsliyi hissini yaradır, onlarla qürur duymağa imkan verir. Azərbaycan xalqı öz Prezidenti ilə qürur duyur!**

## Bütün uğurların təməli

Dünyada heç bir millət və dövlətin Zəfərə aparan yolu asan olmayıb. Bu yolda geri çəkilmələr də olur, qurbanlar da və bir sıra hallarda haqsızlıq da görürsən. Lakin qarşısına qoyduğu məqsədə tarixi ədalət, milli ləyaqət və hüququ gözləməklə çatmağa çalışan millət və dövləti Zəfər gözləyir! Azərbaycan Respublikası XXI əsrdə dünya miqyasında ilk müstəqil dövlət, Azərbaycan xalqı isə ilk millət oldu ki, Zəfər fəlsəfəsini yaratdı! XXI əsrdə ən azı Avrasiya məkanında Azərbaycan kimi ikinci müstəqil dövlət yoxdur ki, ərazi bütövlüyünü və suverenliyini təmin etməkdə, siyasi-diplomatik qələbə əldə etməkdə yüksək nəticələrə nail olsun!

Şübhəsiz, Azərbaycan Respublikası vurğulanan anlamda əsrimizin "ulduz dövləti"dir! Zəfərə aparan yola bu gün – sentyabrın 27-də qısa da olsa, nəzərə salmağın əhəmiyyəti vardır. Çünki keçən əsrin 90-cı illərində Sovetlər məkanında müstəqilliyinə qovuşmuş respublikalar arasında daxildən və xaricdən ən ağır vəziyyətə salınan məhz Azərbaycan Respublikası idi. Hər addımda ölkəni uğursuzluq və xarici təcavüz izləyirdi. Demək olar ki, postsovet məkanında ən ağır vəziyyətdə olan Azərbaycan Respublikası idi – onu naxələflər "siyasi həyatın dibinə" atmağa çalışırdılar! Obrazlı desək, Azərbaycan öz külündən yenidən yaranmalı idi!

Buna xilaskar lider gərək idi. O lider ulu öndər Heydər Əliyev oldu! Mükəmməl müstəqil dövlət quruculuğu kursu ilə ümummilli lider ardıcıl uğurlar əldə etdi. Tarixi baxımdan qısa bir müddətdə Azərbaycan Respublikasında müstəqil dövlət üçün zəruri olan bütün sosial, siyasi, hərbi, mədəni təsisatlar yaradıldı. Artıq 1994-1995-ci illərdə Azərbaycan dövlət qurumları mükəmməl mexanizmlə işləyirdi. Təcavüz dayandırılmışdı. Geniş islahatlar aparılırdı. Həmin dövrdə Ulu öndər BMT-nin yüksək tribunasından Azərbaycanın müstəqil dövlət kimi mahiyyətini, vəzifələrini, strateji məqsədlərini və regionda tutacağı yeri açıq-aydın şəkildə dünyaya bəyan etmişdi!

Bütün bunlar müstəqil Azərbaycanın böyük Zəfərə aparan yolda olduğunu obyektiv və düşüncəli insanlara anladırdı! Yeni əsrin başlanğıcından taleyin və Azərbaycan xalqının iradəsi ilə dövlət başına gələn İlham Əliyev əməli fəaliyyətində bu tezisi sübut etdi! Dövləti və xalqı, sözün həqiqi mənasında, Böyük Zəfərə qovuşdurdu. İlham Əliyev 2003-cü ildə ilk dəfə Prezident seçiləndə, söz vermişdi ki, birincisi, ulu öndər Heydər Əliyevin dövlət quruculuğu kursunu dönmədən davam etdirəcək, ikincisi, hər bir situasiyada ancaq və ancaq Azərbaycanın dövlətini, milli maraqları müdafiə edəcək və müstəqilliyə xidmət edən mövqedə dayanacaq. Tam olaraq belə də oldu. Daxili islahatlarda, iqtisadi sistemin inkişafında, region və dünya miqyasındakı fəaliyyətdə İlham Əliyev verdiyi vədlərə tam əməl etdi. O cümlədən mükəmməl və möhtəşəm enerji strategiyasını milli təhlükəsizliyin təmini kontekstində mükəmməl surətdə apardı.

Azərbaycan xalqı bütün bunların nəticəsini həm rifah halının yaxşılaşmasında, həm də güclü ordu quruculuğunda gördü. Artıq 2020-ci ilə Azərbaycan Cənubi Qafqazın bütün mənalarda lideri və ən güclü ordusuna sahib müstəqil dövləti kimi qədəm qoymuşdu. Bu həqiqəti də Prezident İlham Əliyev 2020-ci ilin sentyabrın 27-də başlayan və qırx dörd gün davam edən Vətən müharibəsində əldə etdiyi möhtəşəm Qələbə ilə təsdiq etdi!

Bütün dünya güclü Prezidenti, mükəmməl siyasəti, müasir ordusu və güclü iqtisadiyyatı olan Azərbaycan dövlətini gördü! Əvvəlcə şübhə etdilər, lakin İlham Əliyevin müharibənin gedişində verdiyi çoxsaylı müsahibələr və döyüş meydanında qazanılan zəfərlər göstərdi ki, dünya yanılır. Yeni Azərbaycan Günəş kimi dünyaya doğur!

## Yeni uğur fəlsəfəsi: “44+1” formulu

2020-ci il noyabrın 10-da Ermənistan kapitulyasiya sənədini imzalayandan sonra erməni havadarları belə anladılar ki, artıq Cənubi Qafqazda yeni güc – Azərbaycan Respublikası mövcuddur və onunla ciddi surətdə hesablaşmaq gərəkdir! Bununla Azərbaycan dövlət olaraq nəinki ərazi bütövlüyünü təmin etdi, həm də inkişaf potensialı və kursuna görə ən perspektivli ölkələrdən biri olduğunu sübuta yetirdi! Qırx dörd günlük Vətən müharibəsində əldə edilən hərbi qələbə ilə yanaşı, bu geosiyasi, siyasi və dövləti məqam da böyük əhəmiyyət kəsb edir.

Onun bir özəl mənasını da vurğulayaq. 2020-ci ilin sentyabr – noyabr aylarında Azərbaycan dövlət olaraq hər kəsə sübut etdi ki, o, heç zaman müharibə paradiqmasına yuvarlanmayacaq, daim inkişaf paradiqmasında qalacaq! Prezident İlham Əliyev döyüş əməliyyatlarının aparıldığı müddətdə belə qarşı tərəflə sülhdən və əməkdaşlıqdan bəhs edirdi. İndi də deyir: “Mənim sözüm sözdür... Niyyətimiz sülh, qarşılıqlı anlaşma, qarşılıqlı hörmət əsasında birgə həyat qurmaqdır!”

Kütləvi informasiya vasitələrinin nümayəndələri və ekspertlər bunu "qalib lider-güclü xalq" formulu ilə ifadə edirlər! Tamamilə haqlıdırlar və hətta, buraya "Qarabağ Azərbaycandır! ", "Dəmir yumruq", "Əziz Şuşa, sən azadsan!" kimi məşhur şüarları da əlavə etmək olar. Çünki bütün bunlar məhz tarixi baxımdan qısa olan və sentyabrın 27-də başlayan Zəfər yolunda yaranmış fikirlər, şüarlardır!

Bunlar nəyi ifadə edir? Hər şeydən öncə, Azərbaycanın müstəqil dövlət kimi 2020-ci ilin sentyabrın 27-ə qədər olan dövrdə ciddi və əhatəli surətdə dərin düşünülmüş müstəqil dövlət quruculuğu siyasətini yeritdiyini göstərir. Bu siyasət olmasaydı, 2020-ci ilin sentyabrın 27-si bizim üçün indiki qürur və fəxarət mənasını daşımazdı! Əldə olunan Zəfərin təməlində məhz Heydər Əliyevin əsasını qoyduğu müstəqil güclü dövlət quruculuğu konsepsiyası dayanır. Eyni zamanda, Prezident İlham Əliyevin siyasi varislik prinsipi çərçivəsində inamla apardığı yeni quruculuq siyasəti sentyabrın 27-də başlanan yolu Azərbaycan üçün uğurlu etdi!

Bundan başqa, sentyabrın 27-si Azərbaycan xalqının rəşadətini, yüksək təfəkkürünü, mənəvi-əxlaqi dəyərlərinə sadiqliyini, ədalətliliyini nümayiş etdirməkdədir. Azərbaycan xalqı və dövlətinin qəhrəman ordusu, onun zabit və əsgərləri özlərini Vətən yolunda gözünü qırpmadan qurban verməyə hazır olduğunu göstərdi!

Bu yolda nə qədər şəhidlər verdik! Həmin anlamda 27 sentyabr həm də əziz şəhidlərimizi anım günüdür! Onların əziz xatirəsinin daim qəlbimizdə yaşayacağının simvoludur! Azərbaycan əsgəri 2023-cü ilin sentyabrında da yeni qəhrəmanlıq və şəhidlik nümunəsi yaratdı. Cəmi 24 saat ərzində düşmənin Qarabağdakı ordusunun qalıqlarını məhv etdi. Bu qısa müddətdə qəhrəman Azərbaycan Ordusu düşmənin üstünə atıldı, onu sürətli və güclü zərbəsi ilə əzdi. Ermənilər isə yenə də xainliklə bir sıra hallarda Azərbaycan əsgərinə qarşı tələ qurdular. Lakin ən çətin anda belə Azərbaycan əsgəri düşmənin bütün planlarını tamamilə alt-üst etdi! Budur şücaət, qorxmazlıq, cəsarət, vətənsevərlik və 2020-ci ilin sentyabrın 27-dən başlanan yolda əldə etdiyimiz müqəddəs uğur, nailiyyət!

Birinci Qarabağ müharibəsində Azərbaycanın toplum olaraq nə qədər ağır zərbələr aldığını da nəzərə almaq lazımdır. Erməni vəhşiləri soyqırımı cinayətləri törətmiş, mülki insanları, qadınları, uşaqları, qocaları qətlə yetirmiş, insanlarımızı ocaqlara və quyulara atmışdılar. Bu ağır mənəvi əzabı ürəyində daşıyan Azərbaycan əsgəri həm qırx dörd günlük, həm də bir günlük Zəfər savaşlarında mərhəmətini, insanlığını, humanizmini və əxlaqını itirmədi. Erməni mülki əhaliyə zərər vermədi, erməni əsgərlərinə yardım etdi. Son bir günlük savaşda da bunu sübut edən kifayət qədər faktlar mövcuddur! Budur, 2020-ci ilin sentyabrın 27-dən başlanan yolun uğurlarından biri!

…Həmin yolun başlamasından üç il keçir. Qarabağ yenidən qurulur. Ən müasir şəkildə. Sürətlə və inamla. İndi Qarabağda bir neçə beynəlxalq hava limanı var. Orada kəndlər, qəsəbələr, şəhərlər yenidən qurulur. Yollar çəkilir, körpülər tikilir. Qarabağ əsl sahiblərinə qaytarılandan sonra orada həyat qaynayır. O cümlədən "Azərbaycan 2030: sosial-iqtisadi inkişafa dair Milli Prioritetlər"ə və 2022–2026-cı illər üçün nəzərdə tutulan Sosial-İqtisadi İnkişaf Strategiyası çərçivəsinə, uyğun olaraq gələn il müəyyənləşdirilən məqsədlərin yerinə yetirilməsi üçün ayrılan 5 milyard 244 milyon manat həcmində vəsaitin 60 faizlik hissəsinin düşməndən təmizlənən yaşayış sahələrində yenidənqurma və quruculuq işlərinin görülməsinə yönəldilməsi nəzərdə tutulur.

Yəni, 2020-ci il sentyabrın 27-dən başlayan Zəfər yolu davam edir! Azərbaycan daha da yüksəlir!

***Nəriman MEHDİYEV,***
***Bakı Şəhər Nizami Rayon Məhkəməsinin hakimi***

# Xatirə Kitabının 2-ci cildi nəşr olunub

**“44 gün – Tarixi zəfər” adlı kitabın F-L hərfləri üzrə II cildində 1000-ə yaxın şəxs haqqında ensiklopedik məlumat yer alıb. Kitab 44 günlük Vətən müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə çap edilib.**

Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Respublika Xatirə Kitabı insan resurslarını əbədiləşdirən tarixi sənəd, tarixlə cəmiyyət arasındakı həqiqətləri, müharibə ağrılarını özündə geniş əks etdirən ensiklopedik salnamədir. Bu kitabda İkinci Dünya müharibəsi, Əfqanıstan döyüşləri, 20 Yanvar faciəsi, Xocalı soyqırımı, Azərbaycanın ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə həlak olmuş, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız, Milli Qəhrəmanlarımız, Azərbaycanın ərazi bütövlüyü uğrunda şücaət göstərmiş şəxslər haqqında əhatəli materiallar dərc edilir.

Respublika Xatirə Kitabının indiyədək 20-yə yaxın cildi çap olunub. Redaksiya əlavə olaraq, itkin düşmüş, əsir götürülmüş vətəndaşlarımız haqda 4 cildlik kitab hazırlayıb, onlardan 3-ü çap olunub, 4-cü cild çap ərəfəsindədir. Eyni zamanda, redaksiya 44 günlük Vətən müharibəsində şəhid olmuş şəxlərin adlarının əbədiləşdirilməsi məqsədilə bir neçə cildlik kitab üzərində çalışır. Hazırda kitabın 3-cü cild üzərində iş aparılır.

Redaksiya həmçinin, “Bakı Xəbər” qəzeti ilə birgə layihəsi əsasında “Şəhidlər ölməz, Vətən bölünməz!” silsiləsindən 44 günlük Vətən müharibəsində həlak olanların adlarının və xatirələrinin əbədiləşdirilməsi məqsədilə bir neçə kitab nəşr edib. Eyni zamanda, “Vətən daşı... və ya 44 günün dastanı” adlı layihə əsasında 8 sənədli film çəkilib. Bu filmlərin 4-ü geniş ictimaiyyətə təqdim olunub. Layihənin rəhbəri Nəzakət Məmmədovadır.




***Ə.ƏLİYEV***
***XQ***

# Bir ölərik, min dirilərik...

## Cənab Ərdoğan bunun ardınca demişdi ki, “tarixdən ibrət alsaq, tarix təkrar olunmaz”



**Bu sətirləri qələmə almaq üçün təxmini mündəricə barədə düşünəndə ölməz şairimiz Xəlil Rza Ulutürkün ötən əsrin 70-ci illərində Baltikyanı ölkələrə səfərdən sonra yazdığı olduqca kiçik, qeyri-ənənəvi şəkildə lakonik olan bir şeiri yadıma düşdü. Şair şeirdən əvvəl qeyd edirdi ki, Vilnüsdə əsrin əvvəllərində işğalçılara qarşı mübarizələrdə həlak olmuş litvalı qəhrəmanın abidəsini gördüm. Pyedestaldakı yazı bu şeirin stimulu oldu:**

*“Qalacaqsan dünyada, bir litvalı qalınca!”*
*Belə söz eşidəndə adam dönür qılınca.*

Bəli, biz torpağımız uğrunda sonuncu azərbaycanlı qalana qədər olsa da, döyüşməliydik. Çünki bu işğal tarix boyu üzləşdiyimiz çoxsaylı haqsızlıqların ən dəhşətlilərindən biri idi. Həm Ulu öndər Heydər Əliyev, həm də Prezident İlham Əliyev dəfələrlə demişdilər ki, biz bu problemin həllini gələcək nəsillərin – günahsız övladlarımızın, nəvə-nəticələrimizin öhdəsinə buraxa bilmərik.

Belə də oldu. Problem, məhz ulu öndərin siyasi kursunun icrası nəticəsində, “Heydər Əliyev ili”ndə, Prezident İlham Əliyevin ölkədə siyasi hakimiyyətə gəlməsinin 20 illiyi ərəfəsində, Azərbaycan xalqının öz iqtidarı ətrafında monolit birlik yaratmasından, ordumuzun inkişafının “dəmir yumruğ”a çevrilməsindən sonra həll edildi. Ancaq, çox təəssüf ki, xeyli itkimiz oldu. Bu barədə danışan Ədalət Verdiyevin sosial şəbəkədə paylaşdığı arqumentlərdə tapdım. Ekspert yazır ki, hücumda olan ordu müdafiədə olan orduya nisbətən daha çox itki verir. Ancaq 44 günlük müharibədə müdafiədə olan Ermənistan ordusu bizə nisbətən iki dəfədən çox hərbçi itirib, bütün texnikası məhv edilib, Azərbaycanın Qələbəsinin hərb tarixinə “Möhtəşəm Qələbə” kimi düşməsi danılmaz faktdır.

Ekspertin fikrincə, 2023-cü il sentyabrın 20-də həyata keçirilmiş lokal xarakterli antiterror tədbirləri də bir neçə erməni qulduruna qarşı deyil, müasir texnika, silah- sursata malik, şəxsi heyəti minlərlə ölçülən, döyüş təcrübəsi olan Ermənistan silahlı qüvvələrinin birləşmələrinə qarşı həyata keçirilirdi. Üstəlik, onlar uzun illərdir əlverişli müdafiə xətti qurmuşdular və yüksəkliklərdə yerləşərək üstün mövqelərə malik idilər. Məhz ona görə Azərbaycanın itkiləri bizim arzuladığımız kimi, minimum olmadı. Amma yenə



ağsaqqal ziyalılarımızdan biri dedi ki, min illər boyu yaşadığımız tarixdə Azərbaycanın şəhid vermədiyi il olubmu? Bu suala özü cavab verdi ki, olmayıb. Amma xalqımız, dövlətimiz yaşayır. Unutmayın, xalqı da, dövləti də yaşadan məhz həmin itkilərimizin qanı, ruhu, əməli, fədakarlığı, rəşadəti və ləyaqəti olub.

Mənim çoxsaylı şəhidlərimizin olduğuna görə təəssüf etdiyimi eşidən ağsaqqal əlavə etdi ki, türkdilli ölkələrdə bir ildə ölənlərlə dünyaya gələnlərin sayında daim fərq olur. Doğulanlar daha çoxdur: “Ancaq mən ölənlər haqqında danışmaq istəyirəm. Dövlət Statistika Komitəsinin statistik göstəricilərinə baxın. Tutaq ki, 1990-cı ildə vəfat edən, dünyasını dəyişən minlərlə soydaşımızdan öz valideynləriniz və ya əzizlərinizdən başqa kimi tanıyırsınız? Təbii ki, heç kəsi. Ancaq 20 Yanvar şəhidlərinin az qala hamısının tərcümeyi-halını bilirsiniz. Eləcə də, azadlıq və ya ölkəmizin ərazi bütövlüyünün bərpası uğrunda gedən döyüşlərdə şəhid olmuş digər soydaşlarımız da özlərindən və ya bizim düşüncəmizdən asılı olmayaraq, 50 milyonluq xalqımızın əzizinə çevriliblər. 44 günlük İkinci Qarabağ müharibəsində və bu il sentyabrın 19-da başlanan lokal antiterror əməliyyatları zamanı şəhid olan övladlarımız, bacı-qardaşlarımız da xalqın min illər boyu yazdığı tarixin növbəti şərəfli səhifələrinə düşürlər.”

Ağsaqqalın fikirlərini eşidəndə, yaşımın bu çağında da “qılınca dönmək” istədim.

Bəs biz daha mütəşəkkil, daha güclü olduğumuz halda nə üçün xeyli itki vermişik? Bu sualın cavabını tanınmış hərbi ekspert də tədbirlərin miqyası və mahiyyəti etibarilə verilən itkilər çox deyil.

Ekspertlərin fikrincə, itkilərin sayı haqqında danışarkən, əldə edilmiş uğurun miqyasını da xatırlatmaq lazımdır. Məsələn, biz 90-cı illərdə 30 min qurban vermişdik, torpaqlarımız da əldən getmişdi, ləyaqətimiz, milli mənliyimiz də tapdalanmışdı. Hər dəfə ermənilərin bizim əsgərlərə necə işgəncə verməsi kadrlarını görəndə, qız-gəlinlərimizin erməni əsirliyində qalması və hansı faciələr yaşaması barədə oxuyanda sadəcə yaşadığımıza görə utanırdıq. Hətta, bəzən millət kimi yox olmağa, bütün sərvətimizi verməyə hazır idik ki, işğal altında olan ərazilərimizi, Qarabağı, Xocalını, Xocavəndi, Xankəndini qaytaraq. Bu bizim bir millət kimi mövcudluğumuz məsələsi idi.

Biz bunu bacardıq. Məhz həmin “itki” dediyimiz – şəhidlik adlı ali mənəvi rütbəyə ucalmış oğullarımızın və sağlamlıqlarını itirmiş qazilərimizin hesabına müqəddəs torpaqlarımızı özümüzə qaytardıq.

Üstəlik, 2016-cı ilin aprelində, 2020-ci ilin və 2022-ci ilin sentyabr aylarındakı döyüşlərdə, eləcə də 2023-cü ilin sentyabrındakı lokal antiterror əməliyyatlarda şəhid olmuş soydaşlarımız da müqəddəslik mərtəbəsinə ucaldılar. Dinimiz “şəhidlər ölmürlər, onlar cənnətlikdir” – buyurur. Biz bu gün işğaldan azad edilmiş ərazilərimizi məhz şəhidlərimizin adına layiq cənnətə çevirərkən də onlara olan ehtiramımızı nümayiş etdiririk.

***İttifaq MİRZƏBƏYLİ***
***XQ***

# Şəhidlik yolu – şəhidin yolu

## *Onun son arzusu bir günə gerçəkləşdi*

**Sentyabrın 20-də, Qarabağda antiterror əməliyyatı aparılan zaman sosial şəbəkələrdə yayılan bir video – gizir Nəcməddin Quliyevin canlı bağlantıda gülə-gülə qohumuna dediyi sözlər dərhal trendə çevrildi: “Şəhid olsam, ailəmə çatacaq birdəfəlik ödəmə məbləği (11 min manat) kənd yolunun asfaltlaşdırılmasına sərf edilsin”.**

Həmin videoyazını Cəlilabad rayonu Ağdaş kənd bələdiyyəsinin sədri, Vətən müharibəsi qazisi Asəf İsmayılov əldə edərək özünün Facebook səhifəsində paylaşınca, Nəcməddinin nəcibliyindən təsirlənən yüzlərlə insan buna münasibət bildirdi. Hər kəs böyük ürək sahibi olan Azərbaycan hərbçisinə cansağlığı və qələbə sevinci arzuladı.

Bundan 1 gün sonra hərbçilərimizin antiterror əməliyyatı böyük uğurla nəticələndi. Amma Nəcməddin döyüşlərdə şəhid oldu. Sanki şəhadətə qovuşacağı ona əyan olubmuş kimi, öncədən vəsiyyətini etmişdi...





Əslən Yardımlıdan olan Nəcməddinin boya-başa çatdığı Cəlilabad rayonunun rəhbərliyi bundan xəbər tutan kimi şəhidin arzusunu həyata keçirməyə qərar verdi. Elə həmin gün axşamüstü, təbii ki, dövlət vəsaiti hesabına Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin Cəlilabaddakı “46 nömrəli Yol İstismarı” MMC tərəfindən lazımi hazırlıqlar görülərək, şəhidin boya-başa çatdığı Çüncəli kəndinin 1400 metrlik torpaq yoluna asfalt döşənilməsinə başlandı. Gecə saat 1-ə qədər yeni yolun çəkilişi tamamlandı. Kənd camaatı da fəhlələrə əllərindən gələn köməyi etdi: yolun kənarlarını daş-kəsəkdən, kol-kosdan təmizlədilər, onlara çay verdilər.

Ertəsi gün Nəcməddinin cənazəsi ata evinə təzə asfalt çəkilmiş yolla gətirildi. İctimaiyyət nümayəndələri, hərbçilər onu son mənzilə yola salmağa toplaşmışdılar. Vida mərasimində çıxış edən icra başçısı Rafiq Cəlilov dedi: “Şəhidimizin vəsiyyətinə əməl etdik, kənd yolu asfaltlandı. Dünya bir daha gördü ki, necə qəhrəman oğullarımız var və onların xatirəsi necə əziz tutulur. Allah rəhmət eləsin!”

Sonra şəhidin atasına üçrəngli, Ay-ulduzlu Azərbaycan bayrağı təqdim olundu. Dövlət himni səsləndirildi və Nəcməddin Quliyev uğrunda “uf” demədən canından keçdiyi torpağa tapşırıldı.

Sözügedən videoyazını ictimailəşdirən Asəf İsmayılov yol idarəsi kollektivinin fədakarlığından, camaatın təşəbbüsə elliklə qoşulmasından danışaraq, şəhidin ruhunun şad olduğuna əminliyini bildirdi: “İlk olaraq bu yolla Nəcməddinin cənazəsi qəbiristanlığa aparıldı. İnşallah, buradan toy karvanları keçər. Kənd məktəbi də bu yolun üstündə yerləşir, daha yağışlı-yağmurlu havalarda dərsə gedib-gələn uşaqlar da əziyyət çəkməyəcəklər. Böyük savab oldu. Bu, əsl insanlıq dərsidir”.

Şəhidin hərbçi dostu Əli Həsənov paylaşıma yazdığı rəydə bildirib ki, sadə, təvazökar və fədakar bir gənc olan Nəcməddinin Vətən sevgisi çox böyük idi. Heç zaman üzündən təbəssüm əskik olmazdı. Elə vəsiyyətini də işıqlı bir təbəssümlə çatdırdı. Son nəfəsində belə əsl vətənpərvər, elcanlı olduğunu, mənəviyyatı maddiyyatdan üstün tutduğunu göstərdi. Ulu Tanrıdan dostuma rəhmət diləyirəm.

Onun arzusu ilə çəkilən yol bundan sonra şəhid Nəcməddin yolu adlanacaq. Bu yol əbədi olaraq yurdsevər bir Vətən oğlunun hünərindən və yüksək arzularından doğan bir nağıl pıçıldayacaq.

***Əli NƏCƏFXANLI***
***XQ***

# Albert Aqarunovun vurduğu tank...





**Hörmətli oxucu, “Xalq qəzeti”inin son nömrəsində xəbər verilib ki, 1992-ci ildə Azərbaycan ərazilərinin işğalı zamanı ermənilərin Şuşa şəhərinin girişində “özlərinin qələbə rəmzi” kimi qoyduqları tank demontaj edilərək Bakıdakı Hərbi Qənimətlər Parkına gətirilib.**

Məlumatda həmçinin qeyd edilib ki, həmin 442 nömrəli tank Birinci Qarabağ müharibəsi zamanı Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov tərəfindən Şuşa yaxınlığında vurularaq sıradan çıxarılıb. Sonradan həmin tankı ermənilər rəngləyib, Xankəndi–Şuşa yolunun üzərindəki təpədə yerləşdiriblər.

Xatırladaq ki, Azərbaycanın Milli Qəhrəmanı Albert Aqarunov Qarabağ uğrunda döyüşlərdə qeyri-adi şücaətlər göstərib. Döyüşçü dostları hələ sağlığında onu “Şuşanın əfsanəsi” adlandırırdılar. Şahidlərin sözlərinə görə, Birinci Qarabağ müharibəsinin ağır döyüşləri zamanı Albert öz tankı ilə döyüş meydanlarında qeyri-adi, gözlənilməz manevrlər edir, düşməni çaşdıraraq vahiməyə salırdı. Son dərəcə sərrast snayper olub, xüsusilə tankdan açdığı sərrast atəşlər hədəfdən yayınmırdı.

Bu sətirlərin müəllifi Albertin qeyri-adi qəhrəmanlıqları barədə bir neçə dəfə yazıb. Dəfələrlə onun döyüşçü dostları ilə görüşmüşəm, xatirələrini dinləmişəm.

Yadımdadır, Şuşanın müdafiəsi zamanı BTR komandiri olmuş igid döyüşçü İlham Ömərov Albert haqqında danışarkən demişdir:

– Mən Albertin Şuşada bir döyüşdə düşmənin 3 zirehli texnikasını necə məhv etdiyinin şahidi olmuşam. Bu, çox parlaq döyüş idi, təbii ki, heç vaxt yadımdan çıxmır. Dəqiq yadımdadır. 1992-ci il mayın 7-si idi. Həmin gün ermənilər bir T-72 və üç BTR-lə hücuma keçdilər. Albertin tankı birdən Şuşanın giriş qapısından ildırım kimi sıçrayıb düşmənin zirehli texnikasını “qarşılamağa” getdi. Albert məharətlə manevr edərək erməni tankına yaxınlaşıb atəş açdı. Erməni tankı Albertin ilk atəşindən sonra artıq yanırdı!

İlham Ömərov sonra bunları bildirdi:

– Döyüş isə davam edirdi. Ermənilərin daha üç BMP-si Şuşaya doğru gəlirdi. Ermənilər guya hiylə işlədib, Albertin tankına aşağı tərəfdən yaxınlaşmağa cəhd etdilər. Lakin xamlıq edib yolun alt tərəfindəki üstü torpaqla örtülmüş tövlənin üstünə çıxdılar, dam uçdu və BMP dərəyə yuvarlandı.

İ.Ömərovun sözlərinə görə, bundan sonra, ermənilər şərti siqnal işarəsi verib geri çəkilməyə başlayıblar. Düşmənin ikinci BMP-si avtobazanın yanından dal-dalı aşağı enib. Şuşanın yolu dik və dolanbac olduğundan bir müddət həmin BMP gözdən itib. Həmin BMP yenidən Şuşaya tərəf üzüyuxarı çıxanda, ermənilərin iki BMP-si üzbəüz çıxıblar.

Aşağıdan gələn BMP-dəki ermənilər yuxarıdan düşən, əslində, geri qayıdan BMP-nin özlərininki olduğunu bilmirdilər. Beləcə, düşmən BMP-ləri özləri bir-birini vurub sıradan çıxarıblar. Vəziyyətin ağır olduğunu görən digər ermənilər isə döyüş meydanından qaçıblar.

İlham Ömərov söhbətin sonunda dedi ki, bu hadisəni bütün təfərrüatı ilə ona görə danışır ki, ermənilərin həmin gün belə kobud səhvlərə yol vermələrinə Albertin tankından qorxaraq vahiməyə düşmələri səbəb olmuşdu.

– “Şuşanın əfsanəsi” ermənilərin başına, həqiqətən, od yağdırırdı. Onun adı çəkiləndə düşmən xofa düşürdü. Belə yenilməz döyüşçü idi, Albert! – dedi müharibə veteranı İlham Ömərov.

Təəssüf ki, 1992-ci il mayın 8-də sinəsi Şuşada düşmənin snayper atəşinə tuş gələn Albert Aqarunov gözlərini əbədi yummalı oldu. O gün Şuşa süqut etmişdi! Şuşanın son müdafiəçilərindən biri idi Albert!

Bu gün milliyyətcə yəhudi olan Azərbaycanın qorxubilməz oğlu Albert Aqarunovun ruhu şaddır. Axı, hələ üç il əvvəl, 2020-ci ilin payızında 44 günlük şanlı savaş zamanı onun gözəlliyinə heyran olduğu Şuşa şəhəri, bütün Qarabağ yağı düşməndən azad edilib.

Döyüşçü dostları Albertin Şəhidlər xiyabanında əbədi uyuyan məzarını tez-tez ziyarət edir, üzərinə tər güllər düzürlər. Rahat uyu, əziz Albert! Qədirbilən Azərbaycan xalqı sənin əziz xatirəni heç vaxt unutmayacaq.

**PS .** Bakıdakı Hərbi Qənimətlər Parkını ziyarət edən yeniyetmə və gənclər isə Albert Aqarunovun Şuşada vurduğu tanka baxaraq Azərbaycanın Milli Qəhrəmanının qeyri-adi şücaətlərini, əfsanələşən hekayətləri qürurla dinləyəcəklər!

***Məsaim ABDULLAYEV***
***XQ***

# 22 yaşlı şəhidin 25-ci payızı

**Azərbaycan Hərb Tarixi Muzeyində Əmək və Sosial Münasibətlər Akademiyası ilə birgə Vətən müharibəsi şəhidi əsgər Aqşin Şahin oğlu Novruzovun anadan olmasının 25-ci ildönümü ilə bağlı “Vətən müharibəmizin qəhrəman şəhidi” adlı anım mərasimi keçirilib.**

Toplantıda şəhidin ailə üzvləri, qazilər, hərbçilər, tələbə və şagirdlər, Aqşinin məzunu olduğu Azərbaycan Əmək və Sosial Münasibətlər Akademiyasının təmsilçiləri iştirak ediblər.

Muzeyin rəisi Əzizağa Qənizadə bildirib ki, şəhidlik bütün yüksəkliklərdən ucada dayanan bir zirvədir. Bu zirvəyə qalxmaq hər kəsə nəsib olmur. Yalnız müqəddəs amallar uğrunda çarpışan, qorxu nə olduğunu bilməyən, Vətən və xalq yolunda canını fəda etməkdən çəkinməyən cəsarətli, ləyaqətli insanlar bu zirvəyə yüksələ bilərlər. Vətənimizin azadlığı uğrunda canını qurban verən əziz şəhidlərimizi xalqımız heç zaman unutmayacaq.

Əzizağa Qənizadə Vətən müharibəsi şəhidi Aqşin Novruzovun yaşadığı qısa, lakin şərəfli ömrün bugünkü və gələcək nəsillər üçün bir örnək, nümunə olduğunu bildirib. Qeyd edib ki, Aqşin Novruzov Vətən müharibəsində böyük igidliklər göstərib. Müharibədə ayağından yaralansa da, müalicə olunduqdan sonra yenidən ön cəbhəyə yollanıb. O, 2020-ci il oktyabrın 13-də Kəlbəcər istiqamətində gedən döyüşlərdə qəhrəmancasına həlak olub.



Şəhidin ailə üzvləri, döyüş yoldaşları çıxış edərək ürək sözlərini deyib, xatirələrini bölüşüblər.

Bildirilib ki, Aqşin Novruzov ölümündən sonra “Vətən uğrunda”, “Kəlbəcərin azad olunmasına görə”, “Hərbi xidmətlərə görə” medalları ilə təltif edilib.

Anım mərasimində şəhidə həsr olunmuş “Vətən haqqı” adlı sənədli film nümayiş etdirilib.

Mərasim bədii hissə ilə davam etdirilib, hərbi vətənpərvərlik musiqiləri səsləndirilib.

Aqşin Novruzov yaşasaydı, bu il 25 yaşını qeyd edəcəkdi. İllər, qərinələr ötsə də, şəhidlər heç vaxt unudulmur, həmişə minnətdarlıq duyğuları ilə yada salınır, xatirələrinə dərin ehtiram bəslənilir. Vətən uğrunda qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü naminə canlarını fəda etmiş zabit və əsgərlərimizin xatirəsi xalqımızın yaddaşında həmişə yaşayacaq.

***L.QURBANOVA***
***XQ***

# Neft strategiyasının 4 möhtəşəm sütunu

**Azərbaycanın uzunmüddətli və etibarlı tərəfdaşı olan BP şirkəti "Heydər Əliyev İli" çərçivəsində ümummilli liderin anadan olmasının 100 illiyinə töhfə olaraq yeni nəşr olunmuş 4 kitabın təqdimatını keçirib.**

Topluda Azərbaycanın yeni müstəqil neft strategiyasının uğurla gerçəkləşməsi, bu ölkənin yenidən dünyanın mühüm enerji mərkəzlərindən birinə çevrilməsi zəngin tarixi faktlar və məlumatlar əsasında oxuculara çatdırılır. Sözügedən nəşrlərdə Azərbaycanın enerji salnaməsinin 4 əsas sütunu – "Azəri–Çıraq–Günəşli" (AÇG) neft yataqları bloku, "Şahdəniz" qaz yatağı, Bakı–Tbilisi–Ceyhan (BTC) əsas neft ixrac boru kəməri və Cənub Qaz Dəhlizi haqqında məlumatlar xronoloji ardıcıllıqla öz əksini tapıb, onların mahiyyəti və ölkəmizin tərəqqisində önəmi araşdırılıb.

Dünən Bakıda Azərbaycanın ən müasir neft-qaz sənayesinin tarixindən bəhs edən kitab dəstinin təqdimatı keçirildi. Tədbiri giriş sözü ilə açan BP-nin şirkətxarici kommunikasiyalar üzrə rəhbəri Tamam Bayatlı ulu öndər Heydər Əliyevin 30 il əvvəl təməlini qoyduğu yeni neft strategiyasının Azərbaycan dövlətinin, xalğımızın həyatında mühüm rol oynadığını diqqətə çatdırdı. Qeyd olundu ki, ötən 30 ildə SOCAR-la tərəfdaşlıqda işləyən BP şirkəti və konsorsium iştirakçılarının birgə səmərəli fəaliyyətinin nəticəsi olan bu layihələr Azərbaycanın iqtisadi qüdrətinin artmasına, tarixi Zəfərin əldə olunmasına misilsiz töhfələr verib.

T. Bayatlı bildirdi ki, dərin təhlil və araşdırmaların nəticəsi olan bu kitablarda Azərbaycanda həyata keçirilən dünya səviyyəli – "Azəri–Çıraq–Günəşli" neft və "Şahdəniz" qaz yataqları, Bakı–Tbilisi–Ceyhan (BTC) əsas neft ixrac boru kəməri və Cənub Qaz Dəhlizi layihələrinin tarixi, ulu öndər Heydər Əliyevin, Azərbaycan Prezidenti İlham Əliyevin bu layihələrin



geçəkləşdirilməsi istiqamətində həyata keçirdikləri misilsiz fəaliyyətlərindən, eləcə də ölkəmizin enerji salnaməsinin zənginləşdirilməsində yaxından iştirak edən BP şirkəti və tərəfdaşlarının fəaliyyətindən ətraflı söhbət açılır.

Sonra BP-nin Xəzər regionunda kommunikasiya və xarici əlaqələr üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli çıxış edərək bildirdi ki, AÇG, Şahdəniz, BTC və Cənubi Qafqaz Boru Kəməri layihələrinin hər birinin tarixi ümummilli lider Heydər Əliyevin uzaqgörən siyasəti və xalqının gələcəyi naminə müdrikliklə yaratdığı strategiyadan başlayır. Azərbaycanın müasir tarixinin və yeni neft dövrünün məhz ulu öndərin uzaqgörən siyasətinin nəticəsində formalaşdığın vurğulayan vitse-prezident qeyd etdi ki, ölkəmizdə bir sıra dünya səviyyəli neft-qaz layihələrinin həyata vəsiqə alması və uğurla reallaşdırılması məhz ümummilli liderin gərgin əməyi və qətiyyətli sayəsində mümkün oldu.

Təqdimatı keçirilən kitabları illərlə aparılan geniş araşdırmaların və bu yeni tarixin yazılmasında iştirak edən şəxslərlə canlı müsahibə və söhbətlərin nəticəsi kimi dəyərləndirən Bəxtiyar Aslanbəyli dedi ki, "Heydər Əliyev" İli"nə verilən bu töhfə ilə neft sənayesinin möhtəşəm tarixindəki misilsiz xidmətlərinə görə ulu öndərə minnətdarlıq və ehtiramı bir daha ifadə edə bildik.

Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov qeyd etdi ki, ümummilli lider Heydər Əliyevin müəllifi olduğu yeni neft strategiyasının məntiqi nəticəsi olan "Əsrin müqaviləsi"nin çətin bir tarixi şəraitdə imzalanması Azərbaycana beynəlxalq miqyasda hörmət və nüfuz gətirdi. Qeyd olundu ki, ulu öndərin və onun layiqli davamçısı olan İlham Əliyevin gərgin əməyi sayəsində reallaşdırılan neft-qaz layihələrinin hər biri geniş salnamə, tarixdir. Bu baxımdan, neft sahəsinin tanınmış eksperti və jurnalist İlham Şabanın müəllifi olduğu bu kitablar gələcək nəsillər üçün tarixi mənbə rolunu oynayacaq.

Sonda nəşrin müəllifi, enerji məsələləri üzrə tanınmış ekspert, jurnalist, Neft Araşdırmaları Mərkəzinin rəhbəri və Azərbaycanın bütün yeni enerji dövrünün şahidi olmuş, bu sahədə müstəsna şəxsi biliyə malik olan İlham Şaban çıxış edərək Azərbaycanın neft-qaz sənayesinin ən müasir tarixindən bəhs edən bu kitablar haqqında iştirakçılara qısa məlumat verdi. Müəllif təqdimat mərasiminə toplaşanlara və kitabların ərsəyə gəlməsində xüsusi əməyi olan "TEAS Press" nəşriyyatına və yaradıcı heyətə minnətdarlığını bildirdi.

***Mirbağır YAQUBZADƏ***
***XQ***

BEYNƏLXALQ HƏYAT

# Anti-Rusiya isteriyası Ermənistanı haraya aparır?

**Ermənistandakı anti-Rusiya isteriyası kulminasiya nöqtəsinə çatıb. İkinci Qarabağ müharibəsində ağır məğlubiyyəti həzm edə bilməyən Ermənistandakı millətçi siyasi dairələr və ayrı-ayrı analitik qruplar, hətta sıravi vətəndaşlar şimal qonşumuza açıq-aşkar nifrət püskürürlər. Azərbaycanın uğurla həyata keçirdiyi antiterror tədbirlərindən sonra isə erməni radikallarının xoruna rəsmi nümayəndələr də qatılırlar. Rusiya bu hücumların arxasında Qərb ölkələrinin dayandığını deyir və zəruri nəticə çıxardığını vurğulayır.**




Ermənistan Rusiyanın azsaylı rəsmi müttəfiqlərindən biridir və ölkələr arasında münasibətlərin ən yüksək səviyyəsi 2000-ci il sentyabrın 26-da prezident Vladimir Putin və sabiq prezident Robert Köçəryanın "Rusiya Federasiyası ilə Ermənistan Respublikası arasında müttəfiqlik əməkdaşlığı haqqında Bəyannamə"ni imzaladığı zaman qurulub. Lakin son illər Ermənistanda, ilk növbədə, rəsmi dairələrdə və anti-Rusiya ideyalarını təbliğ edən mediada Rusiyadan narazılıq durmadan artır. Ermənistan hakimiyyəti açıq-aydın ölkə əhalisini Rusiyaya qarşı qoyur. Bəs Ermənistanın Rusiyaya qarşı olması nəyə lazımdır? Ermənistan Rusiyadan nə istəyir və nə ilə hədələyir? Ən əsası, bu isteriya Ermənistan hara qədər aparacaq?

Hər iki ölkədə etiraf edilir ki, Rusiya–Ermənistan münasibətləri özünün kritik dövrünü yaşayır. Xüsusilə də Nikol Paşinyan Ermənistanın baş naziri postunu aldığı andan Rusiya–Ermənistan münasibətlərində soyuqlaşma pik həddinə çatıb. Əgər Robert Köçəryan və digər sabiq prezident Serj Sarkisyan klanı xarici mühitdə, ilk növbədə, Rusiyadakı erməni diasporuna arxalanırdısa, N.Paşinyanın və onun komandasının Rusiya ermənləri ilə ciddi əlaqələri olmayıb. Rusiyadakı erməni diasporu və müəyyən siyasi dairələr anladılar ki, N.Paşinyan Qərbə üstünlük verir. N.Paşinyanın ümidlərinin əsas dəstəyi də Fransa prezidenti Emmanuel Makron və erməni diasporunun fransız icması, ikincisi isə erməni diasporunun Amerika icması idi. Lakin elə ilk anti-Rusiya addımından – KTMT-nin baş katibi Yuri Xaçaturovun həbsindən sonra Kremldaxili kanallar vasitəsilə gənc, təcrübəsiz Ermənistan rəhbərliyinə Rusiya–Ermənistan dövlətlərarası əlaqələrinin dərinliyi və sərtliyi barədə məlumat vermişdi. Sonradan aydın oldu ki, N.Paşinyanın komandası şimaldan əsən küləyin gücünü yaxşı hiss etməyib, ya da özünü elə göstərməyə çalışıb.

İkinci Qarabağ müharibəsindən sonra Rusiya–Ermənistan münasibətləri yeni böhrana girdi. 2020-ci ilin payızında İrəvan "yeni müharibə – yeni ərazilər" hərbi doktrinasından istifadə edərək, Azərbaycanla 44 günlük müharibəyə səbəb olanda hər şey dəyişdi. Həmin günlərdə Nikol Paşinyan hər gün Vladimir Putinə zəng edərək hərbi əməliyyatların dayandırılması üçün köməklik istədi. O günlərdə İrəvanın əsas istəyi KTMT qüvvələrini döyüşlərə cəlb etmək idi, lakin həm Kreml, həm də təşkilatın katibliyi hərbi əməliyyatlar teatrının Azərbaycan ərazisində yerləşdiyini vurğuladı və ermənilərin oyunlarına qatılmadı. Nəticədə Ermənistan Qarabağ müharibəsində uduzdu, Azərbaycan öz torpaqlarını işğalçılardan azad etdi və Ermənistan rəhbərliyini təslim olmaq haqqında sənədi – Rusiya, Azərbaycan və Ermənistan liderlərinin 9-10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyannaməsini imzalamağa məcbur etdi. Rusiya-Ermənistan münasibətləri üçün bu tarix, demək olar ki, geri dönüş nöqtəsi oldu. Köçəryan və Sarkisyan klanının Rusiyanın köməyinə olan bütün ümidləri puça çıxdı: Rusiya Qarabağın Ermənistan tərəfindən işğalı üçün Azərbaycanla vuruşmadı.

Rəsmi İrəvan, təbii ki, dərhal siyasi elitanın məyusluğu üzərində oynamağa başladı. "Ermənistan Rusiyanın müttəfiqidirsə, onda bizim müttəfiqimiz niyə bizi tərk etdi?" – ritorikasını gücləndirdi. Müharibədən sonrakı ilk ayda Ermənistan hakimiyyəti Parisdən simvolik yardım aldı – erməni diasporunun fransız icması hökumətə Qarabağdakı separatçı layihənin "müstəqil dövlət" kimi tanınmasını tövsiyə edən parlament qətnaməsi üçün lobbiçilik etdi. Fransa Xarici İşlər Nazirliyi tövsiyəni dərhal rədd etdi, lakin bu, siyasi jesti daha da zəiflətmədi: Paris İrəvanın müttəfiqi olduğu yerə öz hüquqlarını açıq şəkildə bəyan etdi. İndi N.Paşinyan Qərblə yeni və daha təhlükəli siyasi tanqo oynamağa girişib.

Ermənistanın ayrı-ayrı mütəxəssisləri iddia edirlər ki, Ermənistanda anti-Rusiya təbliğatına külli miqdarda vəsait xərclənir. Stenford Universitetinin siyasi elmlər doktoru Artur Xaçikyan deyib ki, yalnız bir təşkilat hər il bu məqsədlər üçün 5-6 milyon ABŞ dolları ayırır: "Bu təbliğat effektiv mexanizmdən istifadə edir: həqiqətin yalnız bir hissəsi alınır, onun haqqında daim danışılır, lakin ümumi kontekstdən təcrid olunur. Nəticədə heç kim Qərbin Ermənistan üçün tamamilə heç nə etmədiyini demir. Eyni zamanda, yeganə bu vurğulanır ki, ruslar nəsə edib, amma bunu zəif ediblər". O qeyd edib ki, qərbyönlü təbliğatçılar insanları Rusiya regiondan çıxacağı təqdirdə Qərbin dərhal Ermənistanın müdafiəsinə qalxacağına inandırmağa çalışır: "Onlar bizi inandırmağa çalışırlar ki, Amerika qoşunları 8 dəqiqəyə (Rusiya getdikdən sonra) burada olacaq, göyərtəsində Makron və Pelosi olan fransız donanması dərhal Sevan gölündə olacaq. Gəlin, bunu uşaqlarımıza yatmazdan əvvəl söyləyək". A.Xaçikyan qeyd edib ki, Ermənistanda son 5 ildə onlar yalnız Qərbə arxalanıblar, lakin "Qərb bizə xəyanət edib və bu, göz qabağındadır".

Amma Ermənistanın Rusiyadan qopması asan məsələ deyil. İki ölkə uzun illər ərzində siyasi-iqtisadi tellər vasitəsilə bir-birilərinə bağlanıblar. Xüsusilə də Rusiyanın Ermənistan üzərində iqtisadi dominantlığı mövcuddur. Moskvanın hər hansı bir iqtisadi qadağasının gücünə haylar yaxşı bələddirlər. Buna görə də, anti-Rusiya isteriyası Ermənistanı geriyə dönüşü olmayan dalana dirəyə bilər. Amma görünür, hazırda N.Paşinyan hökumətini belə perspektiv o qədər narahat etmir.

***S.ELAY***
***XQ***

SOSİAL XƏBƏRLƏR



## Himayədar ailələrə yeni dəstək

**Övladlığagötürmə sahəsində olduğu kimi, himayədar ailə sahəsində də idarəetmə və xidmətlərin elektron infrastruktur üzərindən həyata keçirilməsi üçün "Valideyn himayəsindən məhrum olmuş uşaqlar və övladlığagötürmə" altsistemi təkmilləşdirilib. Digər sosial ödəniş növləri kimi, himayədar ailələrə verilmiş uşağın tərbiyə edilməsinə görə həmin ailələr üçün nəzərdə tutulan müavinətlər də e-sistem üzərindən proaktiv qaydada təyin olunacaq.**

Bu barədə "Himayədar ailə" institutunun tətbiqi və uşaqların dövlət uşaq müəssisələrinə düşməsinin qarşısının alınması ilə bağlı Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində fəaliyyət göstərən işçi qrupun icasında bildirilib. İşçi qrupun rəhbəri, əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Vüsal Nəsirli "Himayədar ailə" institutunun tətbiqi mexanizminin qurulması sahəsində aparılan işləri qeyd edib.

Himayədar ailələrlə bağlı sosial dəstək mexanizminin də tətbiq ediləcəyi bildirilib. Həmin ailələrə himayəyə götürdükləri 0–6 yaş arası uşağa görə 355 manat, 7–13 yaş arası uşağa görə 375 manat, 14–18 yaş arası uşağa görə 395 manat, habelə 18 yaşınadək əlilliyi müəyyən edilmiş 0–6 yaş arası uşağa görə 395 manat, 7–13 yaş arası uşağa görə 415 manat, 14–18 yaş arası uşağa görə 435 manat aylıq müavinət veriləcəyi diqqətə çatdırılıb. Eyni zamanda himayədar ailəyə verilmiş uşaqlara mövsümi geyim alınması üçün həmin ailələrin hər rübdə bir dəfə 200 manat birdəfəlik müavinətlə də təmin ediləcəyi qeyd olunub.

Bildirilib ki, "Himayədar ailə" modelinin tətbiqində əsas məqsəd valideyn himayəsindən məhrum uşaqların sosial xidmət müəssisələrində deyil, qısa və ya uzun müddət ərzində dövlət nəzarəti altında ödənişli əsaslarla ailə mühitində böyüməsinə və inkişafına şərait yaratmaqdır. Bu yeni modelin ölkəmizdə tətbiqi uşaqların valideyn himayəsindən məhrum olmasının qarşısının alınması və hüquqlarının müdafiəsinin gücləndirilməsində növbəti mühüm addım olmaqla, uşaq qayğı sisteminin inkişafında yeni mərhələ açır.

İşçi qrupun iclasında, həmçinin qeyd olunan modelin tətbiqi ilə bağlı görülmüş işlər, himayədar ailə sahəsində xidmətlərin elektron infrastruktur üzərindən həyata keçirilməsi ilə əlaqədar məsələlər müzakirə olunub.

## DOST-un dostları çoxalır

**Bu ilin yanvar – avqust aylarında DOST mərkəzləri tərəfindən 460 min vətəndaşa xidmət göstərilib və DOST xidmətlərindən vətəndaşların məmnunluq səviyyəsi 98 faiz təşkil edib.**



Hazırda fəaliyyət göstərən 7 DOST mərkəzində sosial sahələr üzrə 159 xidmət "bir pəncərə"dən, operativ, şəffaf, müasir, innovativ şəkildə təqdim olunur. Ötən dövrdə həmin mərkəzlərdə ümumilikdə 1,7 milyon vətəndaşa xidmət göstərilib.

"Könüllü DOST" proqramına isə son 8 ayda 18 min 500 müraciət olub və proqrama daha 1002 nəfər cəlb edilib.

## Şəhid övladları səyahətdə

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Sosial Dəstək Mərkəzi "Şəhid övladlarının anaları ilə birgə səyahət və təlim proqramı" adlı layihə həyata keçirib.**



Layihədə Balakən, Zaqatala və Qax rayonlarından şəhid xanımları və övladlarından ibarət 30 nəfər iştirak edib. Onlar üçün Bakıda peşəyönümlü ekskursiyalar, maarifləndirici təlimlər, muzey turları, açıq havada gəzintilər təşkil olunub.

Layihə çərçivəsində tədbirlər 3 gün davam edib. İştirakçılar üçün travmatik təcrübə ilə əlaqədar alternativ psixoloji korreksiya üsullarının tətbiqi də təmin edilib. Gəzintilər uşaqların yaşıdları ilə ünsiyyət və sosiallaşma imkanlarını artırmaqla, onların inkişafına dəstək məqsədi daşıyıb.

## İşsizlər 223 min nəfər azalıb




**Dövlət Məşğulluq Agentliyi tərəfindən bu ilin yanvar–avqust aylarında 223 minədək şəxs aktiv məşğulluq tədbirləri ilə əhatə olunub.**

Onlardan 67 min 200 nəfəri "Əmək və Məşğulluq" altsistemindəki vakansiya bankına yerləşdirilən boş iş yerlərinə təyin edilib. Həmin dövrdə 10 min 200 şəxs özünüməşğulluq proqramına cəlb olunub. Təlim kurslarında iştirak etdikdən sonra onların kiçik bizneslərini yaratmaları üçün aktivlərlə təminatları həyata keçirilib.

Son 8 ayda 8 min 600 işsiz şəxs üçün işəgötürənlərlə əməkdaşlıq çərçivəsində həm Agentliyin Peşə Hazırlığı mərkəzlərində, həm də özəl tədris müəssisələrində kurslar təşkil edilib. Digər bir istiqamət kimi 136 min 800 şəxsə peşəyönümlü xidmətlər göstərilib.

## Məşğulluqda yeni uğur

**Dövlət Məşğulluq Agentliyi Ümumdünya Məşğulluq Xidmətləri Assosiasiyası (WAPES) tərəfindən innovativ iş təcrübəsi olan Məşğulluq Xidmətləri siyahısına daxil edilib.**



Bu barədə WAPES-in "Dövlət Məşğulluq Xidmətləri üçün strategiyalar və çətinliklər" adlı sorğunun nəticələrinə dair hazırladığı hesabatda məlumat verilib. Sorğuda müxtəlif ölkələrdən 38 Dövlət Məşğulluq Xidməti əhatə olunub.

Hesabatda Dövlət Məşğulluq Agentliyinin apardığı islahatlar barədə geniş məlumat əks olunub. Agentlik 2022-ci ildə trendlər və innovativ tədbirlər həyata keçirmiş Məşğulluq Xidmətləri siyahısında yer alıb və "Əmək və Məşğulluq" altsistemi (ƏMAS) ötən ilin mühüm innovativ yeniliyi kimi qeyd edilib.

Həmçinin Agentliyin fəaliyyətində həssas qruplardan olan şəxslərin və qadınların əmək bazarına çıxışının, məşğulluğunun dəstəklənməsinin əsas istiqamətlərdən biri olduğu diqqətə çatdırılıb.

***Zərifə BƏŞİRQIZI***
***XQ***




TƏKRAR

# “Azərişıq” ASC

“Bərdə və Kürdəmir rayonları ərazisində paylayıcı elektrik şəbəkələrində itkilərin azaldılması məqsədilə elektrik verilişi xətlərinin təmiri və yenidən quraşdırılması (0,4 kv ÖİN xətlərinin və KTM-lərin quraşdırılması)” işlərinin satın alınması məqsədilə

## AÇIQ TENDER ELAN EDİR

Tender 1 (bir) lot üzrə keçirilir.

Lot-1. “Bərdə və Kürdəmir rayonları ərazisində paylayıcı elektrik şəbəkələrində itkilərin azaldılması məqsədilə elektrik verilişi xətlərinin təmiri və yenidən quraşdırılması (0,4 kv ÖİN xətlərinin və KTM-lərin quraşdırılması)” işlərinin satın alınması.

İştirak haqqı 1500 manatdır.

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Təşkilat - “Azərişıq” ASC
H/h - AZ83AIIB33020029441802068118
VÖEN - 9900069391
Benefisiarın Bankı: “Kapital Bank”ın Gənclik filialı
Kod - 200189
VÖEN - 9900003611
M/ h - AZ37NABZ01350100000000001944
SWIFT Code: AIIBAZ2X
Əlaqələndirici şəxs: Namiq Heybətov.
Əlaqə telefonu (şəhər): 012 440 39 93 (daxili 92-19)
Elektron poçt: namiq.heybetov@azerishiq.az
Ünvan – AZ 1009. Bakı şəhəri, M.Əliyev küçəsi 130.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər lot üçün göstərilən məbləğdə iştirak haqqını qeyd olunan hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda yerləşən “Azərişıq” ASC-nin inzibati binasından ala bilərlər.

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1. Tenderdə iştirak etmək üçün yazılı müraciət.
2. Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi.
3. İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
4. İddiaçının VÖEN-i, bank rekvizitləri, ünvanı, dövlət reyestrindən çıxarış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
5. Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
6. İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti.
7. İddiaçının yüklülük haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş arayış (sənədlərin əsli və ya əsli olmadıqda notarial qaydada təsdiq olunması zəruridir).
8. İddiaçının mikro, kiçik , orta və ya iri sahibkarlıq subyektlərinə aid olması ilə bağlı sənəd.
9. İddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı ((əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyət dövründəki).
10. İddiaçının son 3(üç) illik və ya fəaliyyətə başladığı dövrdən iş təcrübəsi, yerinə yetirdiyi böyük cari işlər və müqavilələr barədə, analoji işlərdə təcrübəsi haqqında məlumatlar.
11. Dövlət sifarişi əsasında “baş podratçı” qismində iştirak etdiyi ən azı 1 layihəni uğurla icra etməsi haqqında məlumat və təsdiqedici sənədlər (müqavilə və obyektin istismara qəbul aktı) təqdim edilməlidir.
12. Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd.
13. Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazə.
14. Rəhbər şəxs və ya şəxslərin təyin olunması haqqında sənəd (əmr).
15. Tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 30 bank günü qüvvədə olmalıdır).
16. Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən ən azı 30 bank günü çox olmalıdır).

Sənədlər Azərbaycan dilində 2 (iki) nüsxədə (1 əsli və 1 surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikası Qanununa uyğun olaraq həyata keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 17 oktyabr 2023-cü il saat 15.00-a, ixtisas uyğunluğu prosedurunu keçmiş iddiaçılar isə tender təklifi və bank təminatını möhürlənmiş ikiqat zərfdə 25 oktyabr 2023-cü il saat 15.00-a qədər Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvana təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim edilən zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri 26 oktyabr 2023-cü il saat 15.00-da Bakı şəhəri, Mirzağa Əliyev küçəsi 130 nömrəli ünvanda “Azərişıq” ASC-nin inzibati binasında açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***“AZƏRİŞIQ” ASC-nin tender komissiyası***

# 22 oyun – 22 qələbə!

## Dünya qadın voleybolunda Türkiyə dövranı

**Türkiyənin qadınlardan ibarət milli voleybol komandası son 3 ayda beynəlxalq meydanda iştirakçısı olduğu 3 mötəbər yarışda bir dəfə belə uduzmayaraq, üst-üstə 22 oyunun hamısından qələbə ilə ayrılmışdır. Bu, ən şirin yuxunu da üstələyə biləcək ağlagəlməz, fantastik nailiyyətdir. Tarixi uğurun Türkiyə Cümhuriyyətinin qurulmasının 100 illiyinə təsadüf etməsi isə gözəl və qüdrətli ölkənin vətəndaşları, bütün türk dünyası üçün ikiqat fərəhli hadisədir.**

Zəhra Günəş, Eda Erdem, uzaq Kubada doğulub hazırda Türkiyə vətəndaşı olan Melissa Varqas, Ebrar Karakurt, İlkin Aydın, Dərya, Ayça, Kübra və onların rəfiqələri italiyalı baş məşqçiləri Daniele Santarellinin rəhbərliyi ilə əsl ustalıq, əzmkarlıq və fədakarlıq nümunəsi göstərmişlər. Türkiyə öz voleybol şahzadələri ilə fəxr edə bilər!

“Ay-ulduzlar” əvvəlcə iyulda ABŞ-ın Arlinqton şəhərində keçirilmiş Beynəlxalq Voleybol Federasiyasının Millətlər Liqası turnirində fərqlənmişlər. Finaladək bütün rəqibləri üzərində üstünlüyünü inamla sübuta yetirən Türkiyə millisi həlledici görüşdə Çin komandasına da heç bir ümid yeri qoymamış (3:1) və okeanın o tayından vətənə qızıl medalla qayıtmışdır. Bununla da Türkiyə kollektivi öz tarixində ilk dəfə dünyanın ən yaxşı komandası olması münasibətilə təbrikləri qəbul etmişdir. Həmin müvəffəqiyyət həm də Türkiyə millisini dünya reytinq cədvəlində ilk dəfə zirvəyə, birinci pilləyə yüksəltmişdir.



Avqustda Belçika, İtaliya, Estoniya və Almaniyanın birgə təşkil etdikləri Avropa çempionatında da baş rolda Türkiyə komandasını gördük. İlkin mərhələdə Azərbaycan millisi ilə eyni qrupda çıxış edən və yenə də bir görüşdə belə uduzmayan bu səmimi və mübariz kollektiv sonadək məğlubiyyətsiz oyunlar seriyasını davam etdirməyi bacardı. Yarımfinalda Avropa çempionu İtaliya, finalda isə 2019-cu ilin qitə çempionatının qalibi və 2022-ci ilin dünya çempionu Serbiya voleybolçuları üzərində çətin, amma çox layiqli qələbələr (hər iki oyunda 3:2 hesabı qeydə alınmışdır) türkiyəli voleybol ustalarının böyük uğurunun bəzəyinə çevrildi. Qızlar bu dəfə ölkələrinə Avropa çempionu adını qazandırdılar.

Sentyabrın 16-da Yaponiyada starta çıxıb, yenicə finişə çatmış və “TRT Spor”un sayəsində Türkiyə voleybolçularının keçirdikləri bütün yeddi görüşü maraqla izlədiyimiz 2024-cü il Olimpiya oyunlarının təsnifat turniri də böyük zəfərlə yadda qalacaq. Türkiyə kollektivi səkkiz komandanın Paris Olimpiadasına iki vəsiqə uğrunda mübarizə apardığı yarışda bütün rəqiblərini – meydan sahibləri Yaponiya idmançılarını, Argentina, Braziliya, Puerto-Riko, Bolqarıstan, Peru və Belçika komandalarını məğlubiyyətlə barışmağa məcbur etdilər. Nəticədə sanki birnəfəsə qazanılan olimpiya lisenziyası təmin edildi.

Gündoğar ölkədə möhtəşəm zəfərdən sonra Türkiyə komandası öz tarixində üçüncü dəfə Olimpiya oyunlarının iştirakçısı olacaq. Əvvəlki olimpiadalarda komanda fəxri kürsüdən kənarda qalmışdır. Gələn il isə Türkiyə, Azərbaycan, bütün türk dünyası 2023-ün voleybol qəhrəmanlarından olimpiya medalı gözləyəcəklər. Elə qeydlərimizi də məğlubedilməz komandaya ən xoş arzularla yekunlaşdıraq.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

İDMAN

# “Böyük dəbilqə”də yüksək nəticə

**Bakıda, Milli Gimnastika Arenasında təşkil olunan cüdo üzrə “Böyük dəbilqə” turniri Azərbaycan komandası üçün böyük uğurla başa çatdı. Olimpiya tsiklinin sonuncu ili olduğundan turnirdə rəqabətin səviyyəsi əvvəlki illərdən yüksək olacağı əvvəlcədən aydın idi. Təsadüfi deyildi ki, “Böyük dəbilqə”də dünya reytinqinin liderləri, həmçinin çoxlu sayda Olimpiya, dünya və Avropa çempionları iştirak edirdilər.**



61 ölkədən 400-dən çox idmançının mübarizə apardığı yarışda Azərbaycan cüdoçuları 3 qızıl, 1 gümüş, 1 bürünc medal qazanıblar. Qızıl medalları komandamızın aktivinə Yaşar Nəcəfov (66 kq), Hidayət Heydərov (73 kq), Zelim Tkçayev (81 kq) yazdırıblar. Leyla Əliyeva (48 kq) gümüş, Zelim Kotsoyev (100 kq) bürünc medala sahib olublar.



Gənc cüdoçulardan ibarət Azərbaycan millisinin baş məşqçisi Elxan Məmmədov müsahibəsində yığmamızın çıxışını çox yüksək qiymətləndirdiyini deyib. O qeyd edib ki, cüdoçularımız əla nəticə göstərib, Paris Olimpiadasına vacib lisenziya xalları qazanıblar. Mütəxəssis yığma üzvləri arasında Zelim Tçkayevin (81 kq) çıxışını xüsusi vurğulayıb. Onun mübarizəsinin xoş təsir bağışladığını söyləyib: “Zelim istedadlı cüdoçudur. Yarışda sonadək mübarizə apardı və ən yüksək mükafatı əldə etdi. Komandamız inamlı təsir bağışladı. Bu, cüdoçularımızın yarışa yüksək hazırlığı ilə bağlıdır”.

Baş məşqçi komandanın təcrübəli üzvü Hidayət Heydərovun (73 kq) qızıl medal qazanmaq üçün səylərini əsirgəmədiyini bildirib: “Hidayət Heydərov təcrübəlidir və yüksək texnikası var. O məhz bu üstünlüyündən də rəqiblərinə qarşı yararlandı”. Elxan Məmmədov onu da bildirib ki, idmançının yüksək nailiyyətində Azərbaycan Cüdo Federasiyasının vitse-prezidenti Elnur Məmmədlinin də payı çoxdur. Məhz 73 kiloqram çəki dərəcəsində E.Məmmədlinin Olimpiya çempionu olduğunu xatırladan mütəxəssis onun hər zaman millimizə dəstək olduğunu deyib: “Elnur Məmmədli Hidayət Heydərovla öz təcrübəsini, taktikasını bölüşür, onunla əlavə məşğul olur. Düşünürəm ki, Elnur Məmmədlinin Hidayətin yanında olması cüdoçumuzun özünəinamını daha da artırıb”.

Komandamızın aktivinə qızıl medal yazdıran Hidayət Heydərov müsahibəsində bütün qarşılaşmaların çətin keçdiyini bildirib. Qeyd edib ki, çempion olmağı qarşıya məqsəd qoyduğu üçün sona qədər inadla mübarizə aparıb: “Qalib olmağı qarşıya məqsəd qoymuşdum. Rəqiblərim güclü idilər. Bilirdim ki, potensialımdan maksimum istifadə etsəm, hədəfə çata bilərərm. Onu da deyim ki, doğma şəhərdə mübarizə əlavə məsuliyyət tələb edir. Ən çətin görüş yarımfinaldakı qarşılaşma oldu. Sevinirəm ki, azarkeşlərin ümidini doğruldub qızıl medal qazandım”.

İdmançı hazırda əsas məqsədinin Paris Yay Olimpiya Oyunlarına vəsiqə əldə etmək olduğunu deyib: “İndi əsas məqsədim Paris Oyunlarında iştirak üçün vəsiqə qazanmaqdır. Bu nüfuzlu turnirə vəsiqə uğrunda mübarizədə bütün səylərimi toplayacağam.

Turnirdə 81 kiloqram çəki dərəcəsində bürünc medala sahib olan Zelim Kotsoyev də turnirə qızıl medal qazanmaq üçün qatıldığını bildirib. Deyib ki, yaxşı formada olmadığı üçün büdrəyib: “Yarış gərgin mübarizə şəraitində keçdi. Çox istəyirəm ki, paytaxtımızda qalib olub, keçənilki nailiyyətimi təkrarlayım”.

Cüdoçu komandamızı qarşıda Avropa çempionatının gözlədiyini, həmin yarışa bütün gücünü səfərbər edərək hazırlaşacağını bildirib.

Beynəlxalq Cüdo Federasiyasının (IJF) baş direktoru Vlad Marinesku Bakıda təşkil olunmuş “Böyük dəbilqə” turnirini Dünya Cüdo Turunun incisi adlandırıb. Qurumun baş direktoru yarışla bağlı hazırladığı məqaləsində yarışın əla nəticələrlə tarixə düşəcəyini bildirib: “Bakıda qazanılan yerlər, xallar qarşıdakı həftələrdə və aylarda böyük rol oynayacaq. Zaman sürətlə irəliləyir. “Paris-2024” Yay Olimpiya Oyunlarına çox az vaxt qalıb. O an hələ yetişməyib, amma hiss edirik ki, tədbir artıq yaxınlaşır. Bütün nümayəndə heyətləri Paris görüşünə hazırlaşırlar”.

Qurum rəsmisi Olimpiya Oyunları yaxınlaşdığı və lisenziyaların tam sürətlə qazanıldığı bir vaxtda, ilk növbədə, Azərbaycana və cüdo federasiyasına təşəkkür etməli olduqlarını bildirib: “Bakı cüdo ailəsini qarşılayaraq, Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin xatirəsinə həsr olunmuş yüksək keyfiyyətli tədbirə evsahibliyi etdi”.

Beləliklə, Bakıda yüksək səviyyədə təşkil olunmuş “Böyük dəbilqə” turnirində 5 medal qazanan komandamız ümumi hesabda birinci yeri tutaraq dünyanın ən inkişaf etmiş cüdo ölkələrinin yığmalarını geridə qoyub. Gürcüstan 1 qızıl, 2 gümüş medalla 2-ci, Yaponiya 1 qızıl, 1 gümüş, 2 bürünc medalla 3-cü pillədə qərarlaşıblar.

“Böyük Dəbilqə” turniri başa çatdıqdan sonra idmançıların yenilənmiş dünya reytinqində qalib və mükafatçılarımız mühüm irəliləyiş əldə ediblər. Təcrübəli cüdoçumuz Hidayət Heydərov liderliyini daha da möhkəmləndirib. 9 pillə irəliləyən Yaşar Nəcəfov 13-cü yerə yüksəlib. Zelim Tçkayev isə 14 pillə irəliləyərək 14-cü yerə qalxıb. Turnirdə gümüş medal qazanan Leyla Əliyeva (48 kq) da 9 pillə irəliləyib. Xanım cüdoçumuz 25-ci sıradadır. Bürünc medalçı Zelim Kotsoyev (100 kq) isə əvvəlki kimi ikinci yeri tutur.

***Leyla QURBANOVA***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 209 (30325) 27 sentyabr 2023-cü il, çərşənbə

## İdman xəbərləri

### UEFA Millətlər Liqası: Millimiz qələbə qazanıb

**Qadın futbolçulardan ibarət Azərbaycan millisi UEFA Millətlər Liqasında ilk qələbəsini qazanıb.**




Komanda ikinci oyununda səfərdə Monteneqro yığmasını 1:0 hesabı ilə üstələyib.

Oyunda yeganə qolu 84-cü dəqiqədə Nazlıcan Parlak vurub.

### Beynəlxalq turnirdə 6 medal

**Rusiyanın Anapa şəhərində 22 yaşadək kişi və qadın boksçular arasında Nikolay Pavlyukovun xatirəsinə həsr olunmuş beynəlxalq turnir başa çatıb.**



Yarışda Azərbaycan millisi 6 medal qazanıb. Yığmanın heyətində Zeynəb Rəhimova (54 kq) finalda rusiyalı Ulyana Savronu məğlub edərək qızıl medala sahib olub.

Tural Sarıyev (48 kq), Nicat Hüseynov (54 kq), İlqar Salahov (67 kq), Rəşid Həsənov (71 kq) və Mehparə Məmmədova (48 kq) isə 3-cü yeri tutublar.

### "Neftçi" futbol klubunun yeni strukturu

**"Neftçi" futbol klubunun yeni strukturu təsdiqlənib.**



Müşahidə Şurasının rəhbərliyi ilə fəaliyyət göstərən klubun baş icraçı direktoru Fərrux Mahmudovdur. Müşahidə Şurasının idman üzrə müşaviri vəzifəsini Kamil Məmmədov yerinə yetirir.

Yeni departamentlərin qruplaşdırıldığı strukturda idman direktoru isveçli mütəxəssis Yens Andersson, administrativ işlər üzrə direktor isə Səbuhi Rzayevdir. Maliyyə üzrə direktor vəzifəsini Namiq Əlizadə icra edir.

"Neftçi"nin Media, marketinq və ictimaiyyətlə əlaqələr departamenti kommersiya və kommunikasiyalar üzrə iki hissəyə ayrılıb. Kommersiya üzrə direktor Rüstəm Allahverdiyev, kommunikasiyalar üzrə direktor isə Aysu İbrahimlidir.

Yenilənmiş struktur daha da mərkəzləşdirilib. Bu struktura əsasən, departamentlər baş icraçı direktora tabedir, baş icraçı direktor isə müvafiq olaraq Müşahidə Şurasına hesabat verir.

### Mahir Emreli rəmzi komandada

**Azərbaycan millisinin və "Dinamo" (Zaqreb) komandasının futbolçusu Mahir Emreli Xorvatiya çempionatında IX turun rəmzi komandasına düşüb.**



O, "Rudes" ilə matçda (5:1) bir qol və bir məhsuldar ötürmə ilə yadda qalıb.

Oyunçunun sözügedən qarşılaşmadakı çıxışı 8,3 xalla qiymətləndirilib.

*Leyla SABİRQIZI*
*XQ*

## İdman



### Zidan yenidən qayıdacaqmı?

**Zinəddin Zidan məşqçilik karyerasını bərpa edə bilər. Məlumata görə, mütəxəssis ancaq Fransa millisinə rəhbərlik etmək istəyir.**

Qeyd olunur ki, Zidan 2024-cü il Avropa çempionatının sonuna qədər gözləmək niyyətindədir və bundan sonra onun təyinatı mümkün olacaq.

Fransa millisini hazırda 2018-ci ildə Rusiyada keçirilən dünya çempionatında milli komandanı qalib edən Didye Deşam çalışdırır.

*ELÇİN*
*XQ*

## Sosial şəbəkələrdən seçmələr

### Göy üzü ulduz-ulduz



*"Gör necə də bənzəyir*
*Ay gümüşə - gümüşə,*
*Ulduzlarla gözəldir*
*Göy həmişə - həmişə...*

*Hey səni düşünürəm*
*Ayrılıq limanında...*
*Sən mənim könlümdəsən,*
*Mən sənin gümanında..."*

Bu gözəl poetik təbiət lövhəni tanınmış şair Həzi Həzənli yaradıb. Şeir onun "Duyğu dənizi" silsiləsindəndir. Sonra da "Facebook"da yerləşdirib.

Qeyd etmək lazımdır ki, şair sosial şəbəkələrdə çox fəaldır. Onun poetik və publisistik paylaşımlarında özünəməxsus, bənzərsiz bir estetik zövq duyulur. Həyatda və "Facebook"da çoxdan dostluğumda olan Həzi Həsənlinin hər dəfə kövrək, səmimi duyğu və düşüncələrini oxuduqca, qeyri-ixtiyari olaraq fikrə dalır, düşünür və sevinirəm. Bu paylaşımlar mənə pozitiv əhval-ruhiyyə bəxş edir.

*Təqdim etdi:*
*M.HACIXANLI*
*XQ*

## Maraq dünyamız

### Sürünən daşlar

*"Ölüm vadisi"ndəki daşları nə hərəkətə gətirirmiş?*



**Planetimizdə çoxlu sayda fenomenlər, sirli-sehrli məkanlar mövcuddur. Onlardan bəzilərinin məntiqə söykənən elmi izahı verilsə də, digərlərinin ətrafında bu gün də suallar dolaşmaqda, müəmmalar qalmaqdadır. Təbiətin bizə ünvanladığı belə tapmacalardan biri də Amerikanın Kaliforniya ştatında yerləşən "Ölüm vadisi"ndəki məşhur sürünən daşlardır.**

Məsələ ondadır ki, qurumuş "Reystrek-Playa" gölünün səhralaşmış səthini örtən böyük daşlar hərdən kənar təsir olmadan, sanki, özləri hərəkətə gəlir və arxalarınca özünəməxsus iz buraxırlar. Bu sürünən daşların sirri hələ XX əsrin əvvəllərində alimlərin marağına səbəb olmuşdur.

ABŞ-ın Okeanoqrafiya İnstitutunun alimləri apardıqları təcrübə nəticəsində daşların sirrini açıblar. Belə ki, 2021-cü ilin dekabrında keçmiş göldə əmələ gələn nazik su təbəqəsi donduqdan sonra buz xüsusi cihaz və kamera ilə təchiz edilmiş daşları saatda 5 metr sürətlə hərəkətə gətirib.

Maraqlıdır ki, ildə bir dəfə baş verən bu hadisə zamanı relyefə görə sürüşən ağır daşların izləri üç-dörd il silinməz qalır...

*SEVDA*
*XQ*

## Texnologiya yenilikləri

### İnsanabənzər yeni robot

**Amerikalı milyarder İlon Maska məxsus "Tesla" şirkətinin istehsal etdiyi insanabənzər robot "Optimus" yeni bacarıqlarını nümayiş etdirib.**



Humanoid əsaslı robot kameradan alınan məlumatlar sayəsində obyektləri müstəqil şəkildə təsnif edə, həmçinin yoqa hərəkətlərini yerinə yetirə bilir. Robot rəngarəng kubları da müvafiq qablara uyğun yerləşdirmək bacarığına malikdir.

Mütəxəssislərin sözlərinə görə, şirkət buna görə avtonom idarəetmə sisteminə bənzər texnologiyadan istifadə edib. Bu da robota öz mühitini təhlil etməyə və alınan məlumatlar əsasında qərarlar qəbul etməyə imkan verir.

Xatırladaq ki, robot ilk dəfə 2021-ci ilin avqustunda "Tesla" tərəfindən təqdim edilib. Cihazın yaradılmasının məqsədi ağır əşyaların daşınması və potensial təhlükəli işləri yerinə yetirməkdir.

*FİDAN*
*XQ*

***"WhatsApp" tərtibatçıları 2023-cü il oktyabrın 24-dən köhnə smartfonlarda tətbiqin fəaliyyətinin dayandırılacağı barədə məlumat veriblər. Belə ki, həmin tarixdən etibarən "WhatsApp"ın yalnız Android ƏS 5.0, iOS 12 və yuxarı versiyaları dəstəkləyəcək.***

### "WhatsApp" köhnə smartfonları "bəyənmir"



"Samsung Galaxy Note2", "Galaxy S2", "Galaxy Nexu", "Galaxy Tab 10.1", "HTC One", "Desire HD", "Sensation", "LG Optimus 2X", "Optimus G Pro", "Nexus 7", həmçinin "Sony XperiaZ" və "S2", "Sony Ericsson Xperia Arc3" və" Motorola. Xoom/Droid Razr" smartfonlarının sahibləri yaxın gələcəkdə məşhur messencerə girişi itirəcəklər.

*ANAR*
*XQ*

## Sağlamlıq

### Ruhlandıran qidalar

**Payızda vitamin çatışmazlığı və orqanizmdə kimyəvi birləşmələrin balanssızlığı dövründə depressiyanın inkişafının qarşısını almaq üçün ekspertlər bəzi qidalara üstünlük verməyi məsləhət görürlər.**



Yuxululuq, enerji çatışmazlığı, ümidsizlik hissləri, pis əhval-ruhiyyə kimi payız dövrünə xas olan depressiyanın simptomlarını azaltmaq üçün mütəxəssislər tərkibində yüksək miqdarda B6 vitamini olan banan yeməyi tövsiyə edirlər. Bu element sinir sistemini gücləndirməyə və narahatlığı azaltmağa kömək edir.

Payız aylarında qəbul edilməli qidalara, həmçinin dəniz məhsulları, eləcə də faydalı yağlarla zəngin olan balıq növləri aiddir. Mütəxəssislər qırmızı balıqları, xüsusilə, qızılbalıq tövsiyə edirlər. Çünki balığın tərkibində olan doymuş yağlar narahatlığın qarşısını alır.

Mütəxəssislər, həmçinin hər hansı depressiv epizodların öhdəsindən gəlmək üçün yeməklərə bibər əlavə etməyi məsləhət görürlər.

*Z.HÜSEYNLİ*
*XQ*



### Hava dəyişkən buludlu...

**Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, sentyabrın 27-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 16-20° isti, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi normadan yüksək 767 mm civə sütunu olacaq. Nisbi rütubət gecə 70-80 fazi, gündüz 45-50 fazi olacaq.

Əsasən yağmursuz keçəcək. Lakin gündüz yüksək dağlıq ərazilərdə şimşək çaxacağı, qısamüddətli az yağış yağacağı ehtimalı var. Gecə və səhər bəzi rayonlarda duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-20° isti, gündüz 24-29° isti, dağlarda 5-10° isti, gündüz 12-17° isti olacaq.

*QƏZƏNFƏR*
*XQ*

## Hadisə

### Qarında 32 kq kista?

**Ötən həftə Goranboy rayonundan cərrahi əməliyyat üçün Qəbələ Rayon Mərkəzi Xəstəxanasına müraciət edən xəstə qarnındakı ağrılardan şikayətləndiyini bildirib. Müayinələrdən sonra baş həkim, tibb elmləri namizədi Cəmil Ələkbərov xəstəni əməliyyat edib.**



38 yaşlı, 128 kiloqram çəkisi olan qadının əməliyyatı 4 saat çəkib. Əməliyyatda cərrahiyyə şöbəsinin müdiri Fariz Abdullayev və cərrah–ginekoloq Xanım Rəşid iştirak ediblər.

Əməliyyat nəticəsində həkimlər gözlənilməz hadisə ilə qarşılaşıblar. Xəstənin qarnından çıxarılan kistanın çəkisi 32 kiloqram olub.

Əməliyyatdan sonrakı gün qadın ayağa qalxanda əvvəllər çətinliklə yeridiyini, indi isə özünü çox yüngül hiss etdiyini bildirib və həkimlərə təşəkkür edib.

Xəstə vəziyyəti normal olaraq evə buraxılıb.

*ZƏRİFƏ*
*XQ*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5027
SİFARİŞ 2494
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00